RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 124 (9869) 19 iyun 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## AZƏRBAYCANIN FƏRQLİ, DÜŞÜNÜLMÜŞ SİYASƏTİ



**İlham Əliyev ölkə rəhbəri kimi fəaliyyətə başlayanda baş problemin - Qarabağ məsələsinin yalnız Azərbaycanın ərazi bütövlüyünün təmini əsasında həllinin mümkünlüyünü yaxşı bilirdi.**

Lakin o da məlum idi ki, Ermənistan heç zaman torpaqları sülh yolu ilə qaytarmayacaqdır.

O da məlum idi ki, ATƏT-in Minsk qrupu "sülh danışıqları" adı ilə məsələnin çözümünü uzatmağa çalışaraq bu yolla xalqımızın işğalla barışacağına bel bağlayırdı.

Həm də müharibə variantı zamanı yenidən Ermənistana dəstək verərək onu bir daha qalib çıxaracaqlarına əmin idilər.

*Azərbaycana qarşı qurulmuş bu oyunun bütün "qayda"larına əməl etməklə sülh danışıqlarına getmək, son nəticədə isə düşmən üzərində qələbə çalmaq elə də asan iş deyildi.*

Bu, heç mümkün də görünmürdü.

Amma...

**İlham Əliyev iti zəkası, uzaqgörənliyi, möhkəm iradəsi və qətiyyəti, ən əsası, nəyi necə və nə vaxt etmək məharəti sayəsində təkcə Ermənistana deyil, onun havadarlarına və dəstəkçilərinə, müdafiəçilərinə də qalib gəldi.**

*Uzun illər çəkən bu prosesdə Azərbaycanın fərqli, düşünülmüş və özünəməxsus xarici siyasəti də formalaşaraq yeni məna kəsb etdi.*

**Ən əvvəl, Müzəffər Ali Baş Komandan İlham Əliyev səmərəsizliyinə və nəticəsizliyinə əmin olduğu sülh danışıqlarından imtina etmədi.**

**Eyni zamanda bu danışıqlar zamanı bütün təsir və təzyiq cəhdlərinə baxmayaraq, Azərbaycanın milli maraqlarına ziyan verə biləcək heç bir sənədə imza atmadı.**

İlk növbədə qaçqın və çadır düşərgələrində, ictimai binalarda və qeyri-yaşayış yerlərində məskunlaşaraq ağır şəraitdə qalan məcburi köçkünlərin həyat və məişət şəraitlərinin yaxşılaşdırılması üçün təcili və təxirəsalınmaz tədbirlər görülməli idi.

Büdcəyə kifayət qədər vəsaitin toplanılmadığı bir vaxtda bunu etmək asan iş deyildi.

Üstəlik, regionlarda vəziyyət ağır olaraq qalır, elektrik enerjisi böyük fasilələrlə verilir, işsizlik və yoxsulluq baş alıb gedir, sahibkarlıq inkişaf etmirdi.

Bütün bunların həlli üçün ölkənin iqtisadi imkanları genişləndirilməli idi.

8

## Azərbaycan-Bolqarıstan əlaqələri strateji xarakter daşıyır

### Prezident İlham Əliyev Bolqarıstan Milli Assambleyasının Sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Bolqarıstan Respublikası Milli Assambleyasının Sədri Nataliya Kiselovanı qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin strateji xarakter daşıdığını deyərək, əməkdaşlığımızın genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərləri və həyata keçirilən birgə layihələri qeyd etdi. Siyasi münasibətlərimizin yüksək səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı son illərdə enerji sahəsində aktiv qarşılıqlı fəaliyyətin həyata keçirilməsindən məmnunluğunu bildirdi.

Azərbaycan Prezidenti Nataliya Kiselovanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Bakıda keçirilən toplantısında iştirakının önəminə toxundu, səfərin səmərəli olacağına və ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaradacağına ümidvarlığını ifadə etdi.

Qəbula görə dövlətimizin başçısına minnətdarlıq edən qonaq ölkələrimizin əlaqələrinin inkişafından məmnunluğunu bildirdi, Azərbaycanla Bolqarıstan arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannaməni vurğuladı.

Nataliya Kiselova Heydər Əliyev Fondunun dəstəyi ilə Bolqarıstanın Veliko-Tırnovo şəhərində Trapezitsa Arxeoloji Muzey Qoruğunun bərpasını xatırladaraq, bunun bolqar xalqı tərəfindən yüksək qiymətləndirildiyini dedi və bu layihənin həyata keçirilməsinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlığını ifadə etdi.

Söhbət zamanı Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Bakıda keçirilən toplantısının əhəmiyyətinə toxunularaq, bu tədbirin quruma üzv ölkələrin parlamentləri arasında əməkdaşlığın genişləndirilməsində rolu vurğulandı. Assambleyaya sədrliyin Azərbaycandan Bolqarıstana keçdiyi bildirilərək, ölkəmizin bu təşkilata yüksək səviyyədə sədrlik etdiyi qeyd olundu.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilat çərçivəsində uğurlu əməkdaşlığı və bir-birini dəstəkləməsi qeyd edildi, iqtisadi-ticari, enerji, o cümlədən bərpaolunan enerji və digər sahələrdə əlaqələrin daha da möhkəmləndirilməsi üçün geniş imkanların olduğu bildirildi.

## Kahramanmaraşda qardaşlıq abidəsi: Azərbaycan-Türkiyə həmrəyliyinin daha bir rəmzi

Azərbaycan-Türkiyə qardaşlığının əyani nümunəsi olan "Azərbaycan" məhəlləsi artıq ilk sakinlərini qəbul etməyə hazırdır. Sabah - iyunun 19-da isə məhəllənin rəsmi açılış mərasiminin keçirilməsi planlaşdırılır.

Əminliklə demək olar ki, bu layihə və göstərilən yardımlar təkcə Azərbaycan və Türkiyə arasında deyil, bütövlükdə türk dünyasında qardaşlığın və birliyin möhkəmlənməsinə, həmçinin regionda sülhün və təhlükəsizliyin temininə töhfə verən nadir nümunəyə çevrilib. Bir sözlə, Azərbaycan-Türkiyə münasibətləri "Bir millət, iki dövlət" fəlsəfəsinin real və canlı təzahürüdür.




11

## Komissiya diqqətlə izləyir, müvafiq cavab tədbirləri görür

**Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası son günlər ölkəmizlə bağlı yayılan saxta xəbərlərə dair açıqlama yayıb.**

AZƏRTAC açıqlamanı təqdim edir: "Regionda baş verən son hadisələr fonunda Azərbaycan Respublikası hibrid təhdidlərin geniş yayılmış növlərindən olan dezinformasiya kampaniyasının yeni dalğası ilə qarşılaşıb.

Aparılan monitorinqlərin təhlili nəticəsində müəyyənləşdirilib ki, qonşu dövlətlərin ərazisində fəaliyyət göstərən, müxtəlif dairələrə və maraqlara xidmət edən qruplar tərəfindən sosial media platformaları vasitəsilə dövlətimizə qarşı informasiya kampaniyaları təşkil olunur.

Cərəyan edən proseslərlə bağlı Azərbaycan Respublikasının rəsmi mövqeyinin Xarici İşlər Nazirliyi və dövlət rəsmiləri tərəfindən səsləndirilməsinə baxmayaraq, "Teleqram", "Feysbuk", "X", "TikTok" və "Yutub" kimi platformalar üzərindən aparılan fəaliyyətlərdə təhrif olunmuş, saxta məlumatlar yayılır.

Münaqişə tərəflərini, eləcə də beynəlxalq ictimaiyyəti çaşdırmağa yönəlmiş bu hərəkətlərin məqsədi ölkəmizin artan nüfuzuna xələl gətirmək, dost və qardaş ölkələrlə münasibətlərini pozmaqdır.

Təəssüf hissi ilə qeyd olunmalıdır ki, dövlətimizə qarşı aparılan bu informasiya kampaniyalarına dəstək verənlər arasında azərbaycanəsilli şəxslərə və vətəndaşlarımıza da rast gəlinir.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya aidiyyəti dövlət qurumları ilə birgə dövlətimizə qarşı aparılan bu fəaliyyətləri diqqətlə izləyir, müvafiq cavab tədbirləri görür.

Bütün maraqlı tərəfləri, o cümlədən vətəndaşlarımızı yalnız rəsmi məlumatlara inanmağa, məkrli qüvvələr tərəfindən yayılan bu cür saxta informasiyalarla mübarizə aparmağa çağırırıq".

# Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyinə həsr olunmuş "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illik yubileyinə həsr olunmuş "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar" mövzusunda beynəlxalq konfransın öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə ən xoş arzularımı yetirirəm.

2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin birbaşa rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğunun bünövrəsini qoymaqla, insan hüquqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi təsbit etmişdir.

İnsan hüquqlarının müdafiəsinin ən mühüm vasitələrindən biri olan müstəqil məhkəmə sisteminin yaradılması və inkişaf etdirilməsi dövlət siyasətimizin daim diqqət mərkəzindədir.

Hüquq islahatları çərçivəsində 2005-ci ildə məhkəmə hakimiyyətinin özünüidarəetmə orqanı qismində təsis edilmiş Məhkəmə-Hüquq Şurası fəaliyyət göstərdiyi 20 il ərzində hər kəsin məhkəməyə müraciət etmək imkanının genişləndirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılması, yüksək hüquqi biliklərə malik hakim korpusunun formalaşdırılması, məhkəmə fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiqi istiqamətində və digər mühüm istiqamətlərdə əhəmiyyətli irəliləyişə nail olmaqla, cəmiyyətin ədalət mühakiməsinə inamının möhkəmlənməsində xüsusi rol oynamışdır.

Eyni zamanda ictimai münasibətlərin inkişafı, sürətlə artan rəqəmsallaşma və müasir dövrün digər tendensiyaları məhkəmə idarəçiliyi məsələlərinə yeni yanaşmaların tətbiqini zəruri edir.

Əminəm ki, bugünkü konfransda aparılacaq müzakirələr məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlara cavabların axtarılmasına, bununla da ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına öz töhfəsini verəcəkdir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 iyun 2025-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, əziz Qardaşım!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Zati-alinizə və qardaş Azərbaycan xalqına Pakistan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırıram.

Pakistan və Azərbaycan qarşılıqlı hörmət, etimad, sülh və firavanlıqla bağlı ortaq baxışa əsaslanan yaxın qardaşlıq münasibətlərinə malikdir. Son bir neçə il ərzində ikitərəfli əlaqələrimizin tez-tez həyata keçirilən yüksəksəviyyəli səfərlərlə və qarşılıqlı maraq doğuran bütün sahələrdə səmərəli əməkdaşlıqla xeyli dərinləşməsi böyük məmnunluq doğurur.

Tərəfdaşlığımızdakı bu güclü inkişaf tempinin xalqlarımıza uzunmüddətli mənfəətlər verməyə davam edəcəyinə əminəm. Pakistan regional bağlılıq, iqtisadi artım və strateji əməkdaşlıq kimi ortaq məqsədlərimizə nail olmaq üçün Azərbaycanla yaxından işləməyə qətiyyətlə sadiq qalır.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, rifah və xoşbəxtlik, dost Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıqla bağlı ən səmimi arzularımı çatdırıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Asif Əli ZƏRDARİ,***
***Pakistan İslam Respublikasının Prezidenti***

# "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumunun iştirakçılarına

Hörmətli simpozium iştirakçıları!

Sizi "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumunun açılışı münasibətilə salamlayıram.

Bu il Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu, Vətən müharibəsində şanlı zəfərimizin 5-ci ildönümüdür və bu münasibətlə 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. 18 iyun həmçinin ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Bugünkü simpoziumun belə əlamətdar tarixlərlə eyni vaxta təsadüf etməsi onun əhəmiyyətini artırmaqla yanaşı, Azərbaycanda müstəqillik və suverenlik dəyərlərinin, demokratik prinsiplərin, qanunun aliliyinin və insan hüquqlarının təbliği və təşviqi baxımından xüsusi önəm daşıyır.

İnsan hüquqları və əsas azadlıqlarının qorunması dövlətlərin başlıca vəzifələrindən biridir. Xüsusilə son dövrdə baş verən qlobal proseslər, geosiyasi gərginlik, informasiya texnologiyalarının sürətlə inkişafı və rəqəmsallaşmaya keçid insan hüquqlarının müdafiəsi sahəsində yeni prioritetlərin müəyyən olunmasını, hüquq müdafiə mexanizmlərinin, habelə milli insan hüquqları təsisatlarının fəaliyyətinin gücləndirilməsini şərtləndirir. Bu baxımdan, ölkəmizdə aparılan hüquqi və institusional islahatlar çərçivəsində ombudsman təsisatının mandatının beynəlxalq hüquq normalarına tam uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət kəsb edir və bu tədbirlər davam etdirilməkdədir.

Simpoziumda müzakirə ediləcək mövzulardan biri qaçqınların hüquqları ilə bağlıdır. Bu sahədə diqqət yetirilməli olan məsələ keçən əsrin əvvəllərindən başlayaraq Qərbi Azərbaycandan - Ermənistan ərazisindən yüz minlərlə azərbaycanlının zorla çıxarılması və etnik təmizləməyə məruz qalmasıdır. Həmin dəhşətli deportasiyalardan sonra Ermənistan ərazisində bir nəfər belə azərbaycanlı qalmamış, bu ərazilərdə xalqımızın qədim tarixi-mədəni, dini-mənəvi irsi, o cümlədən abidələr, məscidlər, qəbiristanlıqlar məhv edilmişdir. Tarixi ədalət bu insanların öz vətənlərinə dinc və təhlükəsiz qayıdışının təmin olunmasını tələb edir. Ermənistan azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtmaq hüququna hörmətlə yanaşmalıdır. Bu, bölgədə sülhün, barışığın və insan hüquqlarının bərqərar olması üçün vacib şərtdir.

Əminəm ki, bu simpoziumda aparılacaq müzakirələr və təcrübə mübadiləsi insan hüquq və azadlıqlarının müdafiəsi, hüquq mədəniyyətinin təbliği, təsisatlar arasında əməkdaşlığın gücləndirilməsi və qanunun aliliyinin təmin olunması üzrə gələcək perspektivlərin müəyyən edilməsi baxımından faydalı olacaqdır.

Bir daha sizi salamlayır, simpoziumun işinə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2025-ci il*

# Milli Məclisin Sədri Sahibə Qafarova Ombudsmanların Beynəlxalq Simpoziumunun iştirakçıları ilə görüşüb





**Milli Məclisin Sədri Sahibə Qafarova iyunun 18-də "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumunun iştirakçıları ilə görüşüb.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan paytaxtının hazırda həm simpozium, həm də regionda parlamentlərarası əməkdaşlığın mühüm mexanizmi olan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının 65-ci Assambleyasına uğurla evsahibliyi etdiyini bildirərək deyib ki, belə tədbirləri təşkil etmək, beynəlxalq ictimaiyyəti maraqlandıran məsələlərin müzakirəsi üçün platformanın təmin edilməsi Azərbaycanın baxışını, dialoqa və əməkdaşlığa sadiqliyini əks etdirir. Vurğulanıb ki, bu, ciddi problemlərlə üzləşən dünyada yalnız birgə səylər və koordinasiya ilə ümumi məqsədlərə və mühüm nəticələrə nail ola biləcəyimizə inamın təzahürüdür.

Görüşdə Azərbaycanın inkişaf yolu və insan hüquqları sahəsində əldə etdiyi nailiyyətlər barədə qonaqlara məlumat verən spiker Sahibə Qafarovanın sözlərinə görə, ölkəmiz üzləşdiyi bütün çətinliklərə və çağırışlara baxmayaraq, insan hüquq və əsas azadlıqlarının müdafiəsi sahəsində mühüm nailiyyətlər əldə edib. O, həmçinin Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkil İnstitutunun fəaliyyəti, bu sahədə mövcud olan qanunvericilik bazası haqqında da danışıb.

Söhbət zamanı spiker Sahibə Qafarova Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin 30 il ərzində qonşusu Ermənistan tərəfindən işğalı, şəhər və kəndlərimizin, infrastrukturun, tarixi, dini, mədəni irsin tamamilə dağıdılması haqqında da danışaraq deyib ki, burada söhbət həm də insan hüquqlarının, xalqımızın əsas azadlıqlarının pozulmasından gedir. Onun sözlərinə görə, Azərbaycan xalqı etnik təmizləmə və soyqırımı ilə üzləşmiş, öz yurd-yuvasından didərgin düşməyə məcbur olmuşdur. Qeyd edilib ki, işğal olunmuş ərazilərdən 750 mindən çox məcburi köçkün, həmçinin Ermənistanda yaşayan 250 mindən çox azərbaycanlı 1980-ci illərin sonlarında, hələ münaqişə başlamamış öz doğma yurdlarından didərgin salınıb. Ağır sosial-iqtisadi yükə baxmayaraq, dövlətimiz onların ehtiyaclarını ödəmək, təməl hüquqlarını təmin etmək üçün bütün lazımi tədbirləri görüb. Bu mənada, ərazilərimizin işğaldan azad edilməsi, ərazi bütövlüyünün və suverenliyinin bərpası həm də insan hüquqlarının və əsas azadlıqların təntənəsidir.

Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı yenidənqurma və bərpa işləri aparıldığını bildirən Sahibə Qafarova deyib ki, görülən tədbirlər keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıtmasına şərait yaradıb. 44 günlük Vətən müharibəsindən ötən qısa müddət ərzində bu ərazilərdə 40 mindən çox insan yaşayır və işləyir. Milli Məclisin Sədri xüsusilə vurğulayıb ki, bütün bu nailiyyətlərin memarı olan Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi rəmzi məna daşıyır: Dövlətçiliyimizin hüquq və azadlıqlarını təmin edən əsas sənəd olan Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun 30-cu ildönümü, Vətən müharibəsində qələbənin, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpasının, xalqımızın hüquq və azadlıqlarının təmin edilməsinin 5-ci ildönümü.

Spiker Sahibə Qafarova bununla belə, hələ də aradan qaldırılmalı olan bəzi məsələlərdən danışıb. O, xüsusilə Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq hüquqlarının təmin edilmədiyini, Ermənistanın hələ də buna məhəl qoymadığını söyləyib. Milli Məclisin Sədri bu simpozium zamanı aparılan müzakirələrin beynəlxalq ictimaiyyətin bu məsələyə diqqətinin artırılması və Ermənistanın bu insanların hüquqlarına hörmətlə yanaşmağa məcbur edilməsi baxımından əhəmiyyətli olacağına da inamını ifadə edib.

Görüşdə çıxış edən Türkiyə Respublikasının Baş Ombudsmanı Mehmet Akarca, İslam Əməkdaşlıq Təşkilatı Ombudsmanlar Assosiasiyasının İcraçı katibi Almas Ali Jovindah, Özbəkistan Respublikası Ali Məclisinin İnsan Hüquqları üzrə müvəkkili Feruza Eşmatova, Slovakiya Respublikasının Ombudsmanı Robert Dubrovodski Ombudsmanların Beynəlxalq Simpoziumunda müzakirə olunan mövzuların aktuallığı və əhəmiyyəti ilə bağlı fikirlərini səsləndiriblər. Həmçinin insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın vacibliyi diqqətə çatdırılıb. Bu sahədə qanunverici orqanların mühüm rolu xüsusilə qeyd edilib.

*"Azərbaycan"*

# BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası olub

**İyunun 18-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) keçirilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin ilk iclası olub.**




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətində şəhərlərimizin və digər yaşayış məntəqələrimizin inkişafı, dayanaqlı həyat şəraitinin, sakinlərin rahat və sağlam həyat tərzinin təmin olunmasının daimi diqqət mərkəzində saxlanıldığını qeyd edib.



Təşkilat Komitəsinin sədri şəhərsalma fəaliyyətinin Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də dövlətin sosial-iqtisadi siyasətində dayanıqlı inkişafın əsas strateji hədəflərindən biri kimi müəyyən olunduğunu və bu istiqamətdə məqsədyönlü fəaliyyətin həyata keçirildiyini deyib. Bu gün dövlət başçımızın rəhbərliyi ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında miqyasına, keyfiyyətinə və sürətinə görə dünyada postmünaqişə dövrünün misli görünməyən və qabaqcıl şəhərsalma standartlarına uyğun kompleks yenidənqurma işləri uğurla həyata keçirilir.

XXI əsrdə dünyada urbanizasiya prosesinin sürətləndiyini bildirən Təşkilat Komitəsinin sədri Azərbaycan hökumətinin şəhərsalma sahəsində apardığı islahatların və genişmiqyaslı layihələrin, habelə ölkəmizin bu sahədə qlobal əməkdaşlığa verdiyi töhfələrin beynəlxalq aləmdə təqdir olunduğunu qeyd edib. Buna görə də BMT-nin himayəsi altında keçirilən, mühüm və qlobal xarakterli tədbirlərdən biri hesab edilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusunda 2026-cı ildə Bakıda təşkilinə dair qərar qəbul olunması Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun, ölkəmizə göstərilən böyük etimadın növbəti təzahürüdür.

Daha sonra Təşkilat Komitəsinin üzvləri - Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyevin, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun və Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadənin gündəlikdə duran məsələlər üzrə məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidentinin bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi ilə əlaqədar qarşıya qoyduğu vəzifələrə uyğun olaraq WUF13-ün milli koordinatoru və əməliyyat şirkətinin fəaliyyəti, forumun təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planının hazırlanması, Təşkilat Komitəsinin Katibliyinin işinin təşkili və digər aidiyyəti məsələlərlə bağlı tapşırıqlar verib.

# Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri regional əməkdaşlıq məsələlərini müzakirə ediblər

**İyunun 18-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı aparılıb.**





Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı İsrail-İran qarşıdurması nəticəsində mövcud təhlükəsizlik vəziyyəti, eləcə də Azərbaycanla Rusiya arasında ikitərəfli və regional əməkdaşlıq məsələləri müzakirə olunub.

Rusiya xarici işlər naziri incəsənət xadimləri daxil olmaqla, Rusiya vətəndaşlarının İrandan təxliyəsi istiqamətində ölkəmiz tərəfindən göstərilən dəstəyə görə ölkə rəhbərliyinə və bütün aidiyyəti qurumlara təşəkkür edib.

Tərəflər İsrail-İran qarşıdurması nəticəsində bölgədə yaranmış təhlükəsizlik vəziyyətindən ciddi şəkildə narahat olduqlarını bildirib, münaqişənin diplomatik yollarla həllinin vacib olduğunu vurğulayıblar.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 493, № 7, maddə 744, № 12 (I kitab), maddə 1281; 2025, № 1, maddə 17; Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 140-VIIQD nömrəli, 18 mart tarixli 158-VIIQD və 161-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 606.3-cü maddənin ikinci cümləsində "təyyarələr" sözü "hava gəmiləri" sözləri ilə əvəz edilsin;

1.2. 1181.3-cü maddədə "dəniz və ya hava gəmisinin kapitanı" sözləri "dəniz gəmisinin kapitanı və hava gəmisinin kapitanı (komanda verən pilotu)" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138, № 4, maddə 365, № 5 (I kitab), maddə 498, № 6 (I kitab), maddələr 630, 638, № 7, maddə 747, № 8, maddələr 932, 933, 934, № 10, maddə 1118, № 11, maddə 1182, № 12 (I kitab), maddə 1282, № 12 (II kitab), maddə 1345; 2025, № 2, maddə 96; Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 135-VIIQD nömrəli, 28 fevral tarixli 144-VIIQD nömrəli, 18 mart tarixli 158-VIIQD, 161-VIIQD nömrəli və 11 aprel tarixli 172-VIIQD nömrəli qanunları) 164.1.38-ci maddəsində "uçuş aparatları" sözləri "hava gəmiləri" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının Gömrük Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 9, maddə 787 (Cild I); 2024, № 7, maddə 747) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.0.41-ci maddədə "aviaqaimə" sözü "hava nəqliyyatında yük qaiməsi" sözləri ilə əvəz edilsin;

3.2. 56.1.3-cü maddədə "aeroportlara" sözü "hava limanlarına" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797 (Cild I); 2024, № 1, maddə 7, № 4, maddə 365, № 5 (I kitab), maddələr 488, 489, 503, № 11, maddə 1187, № 12 (II kitab), maddələr 1350, 1351; 2025, № 1, maddələr 2, 15, 16)19.3.3-cü maddəsinin birinci cümləsində üçüncü halda "təyyarə" sözü "sərnişin" sözü ilə əvəz edilsin.

**Maddə5.** Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 1, maddə 1) 36.1.6-cı maddəsində "aeroport xidmətləri, aeroportların" sözləri "hava limanı xidmətləri, hava limanlarının" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı,1992,№ 1, maddə 1, 1995, № 17-18, maddə 282; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 8-ci maddədə "xarici təyyarələrin və başqa uçuş aparatlarının Azərbaycan Respublikasının hava fəzasına girməsi" sözləri "xarici dövlətə mənsub hava gəmilərinin Azərbaycan Respublikasının hava məkanına daxil olması" sözləri ilə əvəz edilsin;

6.2. 9-cu maddənin dördüncü hissəsinin birinci cümləsində "Azərbaycan Respublikasının səlahiyyətli orqanları tərəfindən qəbul edilən və "Aeronaviqasiya məlumatları məcmuəsi"ndə" sözləri "Aeronaviqasiya Məlumatlar Toplusunda" sözləri ilə əvəz edilsin;

6.3. 10-cu maddənin birinci hissəsində "aeroportlardan (aerodromlardan)" sözləri "hava limanlarından, aerodromlardan" sözləri ilə, "aeroportlara (aerodromlara)" sözləri "hava limanlarına, aerodromlara" sözləri ilə əvəz edilsin;

6.4. 20-ci maddənin birinci hissəsinin 5-ci bəndindən "və digər uçuş aparatları" sözləri çıxarılsın;

6.5. 26-cı maddə üzrə:

6.5.1. ikinci hissənin ikinci cümləsində "aeroportların (aerodromların)" sözləri "hava limanlarının, aerodromların" sözləri ilə əvəz edilsin;

6.5.2. üçüncü hissədə "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin;

6.5.3. dördüncü hissədə "komandirləri" sözü "kapitanları (komanda verən pilotları)" sözləri ilə əvəz edilsin;

6.6. 31-ci maddənin birinci hissəsinin 5-ci bəndində "uçuş aparatlarını" sözləri "hava gəmilərini" sözləri ilə əvəz edilsin;

6.7. 37-ci maddə üzrə:

6.7.1. 3-cü bəndin birinci abzasında "vertolyotları" sözü "helikopterləri" sözü ilə əvəz edilsin;

6.7.2. 4-cü və 5-ci bəndlərdən "və başqa uçuş aparatlarına" sözləri çıxarılsın.

**Maddə 7.** "Sərhəd mühafizə orqanları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 16, maddə 209; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 11-ci maddənin birinci hissəsində "vertolyotları" sözü "helikopterləri" sözü ilə əvəz edilsin;

7.2. 24-cü maddənin birinci hissəsində "təyyarə, vertolyot və digər uçan aparat" sözləri "hava gəmisi" sözləri ilə əvəz edilsin.

**Maddə 8.** Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 17, maddə 234; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I);2024, № 4, maddə 366; 2025, № 2, maddə 96) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"nin 69-cu maddəsində "vertolyotlarına da" sözləri "helikopterlərinə də" sözləri ilə əvəz edilsin.

**Maddə 9.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 347; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 5 (I kitab), maddələr 489, 503, № 11, maddə 1183) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

9.1. II fəslin "Dəmiryol (su yolu) sahəsinin və stansiyasının (limanın), aeroportun hərbi komendantı" hissəsinin adında "aeroportun" sözü "hava limanının" sözləri ilə əvəz edilsin;

9.2. 46-cı maddənin birinci (hər iki halda) və ikinci cümlələrində ismin müvafiq hallarında "aeroport" sözü ismin müvafiq hallarında "hava limanı" sözləri ilə əvəz edilsin;

9.3. 47-ci maddənin birinci hissəsinin birinci, ikinci, üçüncü və doqquzuncu abzaslarında ismin müvafiq hallarında "aeroport" sözü ismin müvafiq hallarında "hava limanı" sözləri ilə əvəz edilsin;

9.4. 48-ci maddənin birinci cümləsində "aeroportun" sözü "hava limanının" sözləri ilə əvəz edilsin;

9.5. 64-cü maddənin birinci hissəsində"aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin;

9.6. 66-cı maddənin ikinci cümləsində "limanlarında və aeroportlarda" sözləri "və hava limanlarında" sözləri ilə, "(limanın), aeroportun" sözləri ", hava, dəniz (çay) limanının" sözləri ilə əvəz edilsin;

9.7. 67-ci maddənin üçüncü hissəsində "(liman, aeroport)" sözləri", hava, dəniz (çay) limanı" sözləri ilə əvəz edilsin;

9.8. 97-ci maddənin dördüncü hissəsinin ikinci cümləsində "limanda, aeroportda" sözləri "hava və dəniz (çay)limanlarında"sözləri ilə əvəz edilsin;

9.9. 112-ci maddənin birinci və ikinci hissələrində ismin müvafiq hallarında "təyyarələr" sözü ismin müvafiq hallarında "hava gəmiləri" sözləri ilə əvəz edilsin;

9.10. 153-cü maddədə, 162-ci və 165-ci maddələrin ikinci hissələrində, 182-ci maddənin birinci hissəsində, 219-cu maddənin beşinci hissəsinin birinci cümləsində "təyyarələrin" sözü "hava gəmilərinin" sözləri ilə əvəz edilsin;

9.11. 241-ci maddənin üçüncü hissəsində hər iki halda "(liman), aeroport" sözləri "hava, dəniz (çay) limanı" sözləri ilə, "(limanlardan), aeroportlardan" sözləri ", hava və dəniz (çay) limanlarından" sözləri ilə əvəz edilsin;

9.12. 243-cü maddənin dördüncü hissəsində "(limanın), aeroportun" sözləri "hava, dəniz (çay) limanının" sözləri ilə, "(liman), aeroport" sözləri "hava, dəniz (çay) limanı" sözləri ilə əvəz edilsin;

9.13. 273-cü maddə üzrə:

9.13.1. ikinci hissənin birinci cümləsində "(liman), aeroport "sözləri ", hava, dəniz (çay) limanı" sözləri ilə əvəz edilsin;

9.13.2. dördüncü hissədə "aeroportda (aerodromda)" sözləri "hava limanında, aerodromda" sözləri ilə əvəz edilsin;

9.14. 277-ci maddə üzrə:

9.14.1. birinci hissənin birinci cümləsində "(limanların), aeroportların" sözləri ", hava və dəniz (çay) limanlarının" sözləri ilə əvəz edilsin;

9.14.2. ikinci hissə üzrə:

9.14.2.1. doqquzuncu abzasda "(limanların), aeroportların" sözləri ", hava və dəniz (çay) limanlarının" sözləri ilə əvəz edilsin;

9.14.2.2. on birinci abzasda "liman, aeroport" sözləri "hava, dəniz (çay) limanı" sözləri ilə əvəz edilsin;

9.15. 278-ci maddənin ikinci cümləsində "gəmisi ekipajının" sözləri "gəmisinin heyətinin" sözləri ilə, "liman, aeroport" sözləri "hava, dəniz (çay) limanı" sözləri ilə əvəz edilsin;

9.16. 282-ci maddədə "(limanların), aeroportların" sözləri ", hava və dəniz (çay) limanlarının" sözləri ilə əvəz edilsin;

9.17. 283-cü maddənin birinci hissəsinin dördüncü abzasında "limana, aeroporta" sözləri "hava, dəniz (çay) limanına" sözləri ilə əvəz edilsin;

9.18. həmin Nizamnaməyə 11 saylı əlavə - "Qarovul otağının avadanlığı"nın 3-cü maddəsinin birinci hissəsinin doqquzuncu abzasında "təyyarələri" sözü "hava gəmilərini" sözləri ilə əvəz edilsin.

**Maddə10.** Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 887 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1995, № 22, maddə 364; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 18, № 5 (I kitab), maddə 499, № 11, maddə 1183) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

10.1. 25-ci maddənin birinci hissəsinin altıncı abzasında "təyyarə meydanlarında" sözləri "hava limanlarında, aerodromlarda və helikopter meydançalarında" sözləri ilə əvəz edilsin;

10.2. 42-ci maddənin dördüncü hissəsində "təyyarədən" sözü "hava gəmisindən" sözləri ilə əvəz edilsin;

10.3. 334-cü maddənin on ikinci abzasında "limanın, aeroportun" sözləri "hava və dəniz limanlarının" sözləri ilə, "limanların, aeroportların" sözləri "hava və dəniz limanlarının" sözləri ilə əvəz edilsin;

10.4. 336-cı maddədə hər iki halda "liman, aeroport" sözləri "hava limanı" sözləri ilə əvəz edilsin;

10.5. 338-ci maddənin on ikinci abzasında "limanın, aeroportun" sözləri "hava limanının" sözləri ilə əvəz edilsin;

10.6. 339-cu maddədə "liman, aeroport" sözləri "hava limanı" sözləri ilə əvəz edilsin;

10.7. həmin Nizamnaməyə 5 saylı əlavə - "YANĞIN TƏHLÜKƏSİZLİYİ QAYDALARI" üzrə:

10.7.1. 10-cu maddədə "təyyarələr" sözü "hava gəmiləri" sözləri ilə əvəz edilsin;

10.7.2. 11-ci maddənin birinci hissəsinin ikinci, onuncu və on ikinci abzaslarında ismin müvafiq hallarında "təyyarələr" sözü ismin müvafiq hallarında "hava gəmiləri" sözləri ilə əvəz edilsin;

10.7.3. 12-ci maddədə "təyyarələrin" sözü "hava gəmilərinin" sözləri ilə əvəz edilsin;

10.8. həmin Nizamnaməyə 16 saylı əlavə - "HƏRBİ HİSSƏLƏRƏ DÖYÜŞ BAYRAQLARI VERİLMƏSİ QAYDASI HAQQINDA ƏSASNAMƏ"nin 22-ci maddəsinin birinci cümləsində "təyyarə" sözü "hava gəmisi" sözləri ilə əvəz edilsin.

**Maddə 11.** Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 14 (Cild I); 2024, № 1, maddə 19, № 2, maddə 137, № 7, maddə 755, № 12 (II kitab), maddələr 1328, 1350; 2025, № 1, maddələr 4, 7; Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 176-VIIQD nömrəli Qanunu) ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnaməyə 10 saylı Əlavə - "Azərbaycan Respublikası Silahlı Qüvvələri zabitlərinin attestasiya edilməsinin Nümunəvi sxemi"nin "b) Hərbi Hava Qüvvələri üzrə" hissəsinin ikinci - beşinci abzaslarında "vertolyot" sözü "helikopter" sözü ilə əvəz edilsin.

**Maddə 12.** "Hidrometeorologiya fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 482 (Cild I) 6-cı və 18-ci maddələrinin birinci hissələrinin beşinci abzaslarında "və hərbi aviasiyanın" sözləri "aviasiyanın və dövlət aviasiyasının" sözləri ilə əvəz edilsin.

**Maddə 13.** "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 641 (Cild I) 4-cü maddəsində "təyyarələrin" sözü "hava gəmilərinin" sözləri ilə əvəz edilsin.

**Maddə 14.** "Nəqliyyat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 399 (Cild I); Azərbaycan Respublikasının 2025-ci il 1 aprel tarixli 162-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

14.1. 3-cü maddənin üçüncü hissəsində "və idarə edilməsi sisteminin aeronaviqasiya vasitələri və avadanlığı, hava gəmilərinin uçuş təhlükəsizliyini təmin edən qurğular, aviasiya daşımaları ilə əlaqədar mühəndis şəbəkələri və qurğuları" sözləri "sisteminin obyektləri" sözləri ilə əvəz edilsin;

14.2. 8-ci maddənin 5-ci hissəsində "limanların, aeroportların" sözləri "hava və dəniz limanlarının" sözləri ilə əvəz edilsin;

14.3. 22-ci maddənin 4-cü hissəsinin birinci cümləsində "liman" sözü "dəniz limanı" sözləri ilə, "aeroport" sözü "hava limanı" sözləri ilə əvəz edilsin.

**Maddə 15.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101; Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 161-VIIQD nömrəli və 11 aprel tarixli 172-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 2.0.16-cı maddə aşağıdakı redaksiyada verilsin:

"2.0.16. Mülki aviasiya sahəsində icazələrin, o cümlədən şəhadətnamə, vəsiqə və sertifikatların verilməsi, tanınması və ya müddətinin uzadılması;";

15.2. 29.1-ci maddədə "Aeroportlar" sözü "Hava limanlarına" sözləri ilə əvəz edilsin;

15.3. aşağıdakı məzmunda 29.2-1-ci və 29.2-2-ci maddələr əlavə edilsin:

| | |
|---|---|
| 29.2-1. Pilotsuz uçuş aparatları istismarçılarına istismarçı sertifikatının verilməsi | 15 manat |
| 29.2-2. Aviasiya personalına şəhadətnamələrin, vəsiqələrin və ya sertifikatların verilməsi | 15 manat |

15.4. 29.5-ci maddədə "şəhadətnaməsinin" sözü "sertifikatının" sözü ilə əvəz edilsin;

15.5. aşağıdakı məzmunda 29.5-1-ci maddə əlavə edilsin:

| | |
|---|---|
| 29.5-1. Pilotsuz uçuş aparatlarına qeydiyyat sertifikatının verilməsi | 10 manat |

15.6. 29.6-cı maddədə "tipinin" sözü "növ" sözü ilə əvəz edilsin;

15.7. 29.13-cü maddədə "Çarter" sözü "Qeyri-müntəzəm (çarter)" sözləri ilə əvəz edilsin;

15.8. aşağıdakı məzmunda 29.16-29.18-ci maddələr əlavə edilsin:

| | |
|---|---|
| 29.16. Pilotsuz uçuş aparatları istismarçılarına əməliyyat icazəsinin verilməsi | 10 manat |
| 29.17. Məsafədən idarə edən pilotlara (operatorlara) şəhadətnamələrin verilməsi | 10 manat |
| 29.18. Model pilotsuz uçuş aparatı klubları və ya assosiasiyalarına icazələrin verilməsi | 10 manat |

**Maddə 16.** "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 2, maddə 56 (Cild I); 2024, № 8, maddə 933) 18-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"18. Mülki pilotsuz uçuş aparatları (uşaqların istifadəsi üçün nəzərdə tutulmuş oyuncaq pilotsuz uçuş aparatları istisna olmaqla).".

**Maddə 17. "Lisenziyalar və icazələr haqqında"** Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632 (Cild I); 2024, № 6 (I kitab), maddə 631, № 7, maddələr 747, 751, № 8, maddə 933; 2025, № 1, maddə 16; Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli və 18 mart tarixli 157-VIIQD nömrəli qanunları) 3 nömrəli əlavə - "Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı"nın 8-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"8. mülki aviasiya sahəsində "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq istismarçı sertifikatının verilməsi;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2025-ci il*

# "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 103 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 86(Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında hidrometeorologiya fəaliyyətinə dövlət nəzarəti haqqında Əsasnamə"nin 4-cü hissəsinin on üçüncü abzasında "hərbi" sözü "dövlət" sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 25 iyun tarixli 514 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 412 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə"nin 14-cü hissəsinin ikinci abzasında "təyyarələrə, gəmilərin" sözləri "hava gəmilərinə, dəniz gəmilərinin" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 769 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 489 (Cild I); 2024, № 5 (I kitab), maddə 511) ilə təsdiq edilmiş "Odlu silahın tətbiqi ilə bağlı ov etmə, eləcə də idmanla məşğul olma Qaydaları"nın 2.3.6-cı yarımbəndində "vertolyot" sözü "helikopter" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 yanvar tarixli 15 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 21 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında "Əsasnamə"nin 13-cü hissəsində "təyyarələrə və vertolyotlara, gəmilərin" sözləri "hava gəmilərinə, dəniz gəmilərinin" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 iyul tarixli 97 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 536 (Cild I);2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Protokolunun Əsas Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2-ci hissə üzrə:

5.1.1.2.4-cü və 2.5-ci bəndlərdə "Təyyarə" sözü "Hava gəmisinin" sözləri ilə əvəz edilsin;

5.1.2.2.34-cü bəndin üçüncü cümləsində "təyyarə" sözü "hava gəmisi" sözləri ilə əvəz edilsin;

5.1.3.2.37-ci bənddə"təyyarənin"sözü "hava gəmisinin" sözləri ilə əvəz edilsin;

5.2. 3-cü hissə üzrə:

5.2.1.3.3-cü bənddə "təyyarənin"sözü "hava gəmisinin" sözləri ilə əvəz edilsin;

5.2.2.3.17-ci bənddə "təyyarə" sözü "hava gəmisinin" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 13 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 58-ci bəndin ikinci abzasına "ekipaj komandirinin" sözlərindən sonra "(hava gəmisi kapitanının (komanda verən pilotun)" sözləri əlavə edilsin;

6.2. 59-cu bəndin birinci abzasına "ekipaj komandiri" sözlərindən sonra "(hava gəmisinin kapitanı (komanda verən pilot)" sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 12 sentyabr tarixli 292 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 798 (Cild I); 2024, № 8, maddə 950) ilə təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsinə xüsusi icazə verən mərkəzi icra hakimiyyəti orqanlarının Siyahısı"nın 17-ci hissəsində "Mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar" sütununda "Məsafədən idarə edilən pilotsuz uçan aparatlar" sözləri "Mülki pilotsuz uçuş aparatları (uşaqların istifadəsi üçün nəzərdə tutulmuş oyuncaq pilotsuz uçuş aparatları istisna olmaqla)" sözləri ilə əvəz olunsun və həmin hissənin "Xüsusi icazə verən icra hakimiyyəti orqanı" sütununa birinci halda "Azərbaycan" sözündən əvvəl "Dövlət Mülki Aviasiya Agentliyi qismində" sözləri əlavə edilsin.

8. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 326 (Cild I); 2024, № 2, maddə 155, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Daşınar əmlakın rəsmi reyestrlərində qeydiyyata alınan əmlak növlərinin və onların qeydiyyatını aparan inzibati orqanların Siyahısı"nın"Daşınar əmlakın rəsmi reyestrlərini aparan inzibati orqanların adları" sütununun 12-ci hissəsinə "Azərbaycan" sözündən əvvəl "Dövlət Mülki Aviasiya Agentliyi qismində" sözləri əlavə edilsin.

9. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 27 avqust tarixli 623 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 771(Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının hərbi geyim forması və xüsusi rütbəsi olan əməkdaşlarının geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə"nin 13-cü hissəsində "təyyarələrə və vertolyotlara, gəmilərin" sözləri "hava gəmilərinə, dəniz gəmilərinin" sözləri ilə əvəz edilsin.

10. "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiyanın tərkibi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 dekabr tarixli 1169 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2087 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. preambulada "təhlükəsizliyi üzrə" sözləri "təhlükəsizliyinə dair" sözləri ilə əvəz edilsin;

10.2. həmin Fərmanla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Aviasiya Təhlükəsizliyi üzrə Respublika İdarələrarası Komissiya haqqında Əsasnamə" üzrə:

10.2.1. 1.1-ci və 1.2-ci bəndlərdə "təhlükəsizliyi üzrə" sözləri "təhlükəsizliyinə dair" sözləri ilə əvəz edilsin;

10.2.2. 2.1.1-ci yarımbənddə "təhlükəsizliyinin təmin edilməsi üzrə" sözləri "təhlükəsizliyinə dair" sözləri ilə əvəz edilsin;

10.2.3. 3.1.3-cü yarımbənddə "aeroportun" sözü "hava limanının" sözləri ilə, "aeroportların" sözü "hava limanlarının" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 1, maddə 41 (Cild I); 2024, № 2, maddə 155, № 6 (I kitab), maddə 654, № 8, maddə 948, № 12 (I kitab), maddə 1287; 2025, № 3, maddələr 224, 227) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

Ardı 4-cü səh.

# "Aviasiya haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 3-cü səh.*

11.1. 3.0.18-ci yarımbəndə "barədə" sözündən sonra "tabeliyindəki qurum vasitəsilə" sözləri əlavə edilsin;

11.2. 3.0.22-ci yarımbənddə "icazələr" sözü "tabeliyindəki qurum vasitəsilə icazə" sözləri ilə əvəz edilsin;

11.3. 3.0.23-cü yarımbənddə ", telekommunikasiya, informasiya və meteoroloji xidmətlərini" sözləri "xidmətləri" sözü ilə əvəz edilsin;

11.4. 3.0.24-cü yarımbəndə "əlaqədar" sözündən sonra ", Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 25.1-ci maddəsi nəzərə alınmaqla" sözləri əlavə edilsin;

11.5. 3.0.26-cı yarımbənddə "aviasiya mütəxəssislərinin" sözləri "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun 25.2-ci maddəsi nəzərə alınmaqla, aviasiya personalının" sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 aprel tarixli 613 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 4, maddə 292 (Cild I); 2025, № 3, maddələr 222, 224) ilə təsdiq edilmiş "Aviasiya təhlükəsizliyinə dair Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

12.1. "Giriş" hissəsi üzrə:

12.1.1. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

"Dövlət Proqramında aviasiya təhlükəsizliyi dedikdə insanlardan və maddi resurslardan istifadə etməkləmülki aviasiya sahəsində hava limanlarının, hava gəmilərinin və mülki aviasiyanın digər obyektlərinin mühafizəsi, hava gəmisi heyətinin, aviasiya personalının və sərnişinlərin həyat və sağlamlığının qorunması, əl yüklərinin, baqajın, poçtun, digər yüklərin və hava gəmilərindəki bort ehtiyatlarının yoxlanılması, hava gəmilərini zəbt etmək və qaçırmaq cəhdlərinin qarşısının alınması, təhlükə mənbələrinin və risk faktorlarının müəyyən edilməsi yolu ilə insanlara və əmlaka zərər vurulması riskinin minimuma endirilməsi məqsədilə həyata keçirilən, habelə uçuşların təhlükəsizliyinin, müntəzəmliyinin və səmərəliliyinin təmin olunmasına xidmət edən aviasiyanın qanunsuz müdaxilə aktlarından qorunması üzrə tədbirlər kompleksi nəzərdə tutulur.";

12.1.2. aşağıdakı məzmunda doqquzuncu və onuncu abzaslar əlavə edilsin:

"Dövlət Proqramının yerinə yetirilməsinin təmin edilməsinə cavabdeh orqan Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (bundan sonra - Nazirlik) tabeliyində Dövlət Mülki Aviasiya Agentliyidir (bundan sonra - Aviasiya Agentliyi).

Aviasiya Agentliyi onun səlahiyyətləri və yerinə yetirdiyi vəzifələri barədə ICAO-ya məlumat verir.";

12.2. 1-ci hissə üzrə:

12.2.1. 1.1.3-cü yarımbənddə "ekipaj üzvlərinin" sözləri "hava gəmisi heyətinin" sözləri ilə əvəz edilsin;

12.2.2. 1.2.1-ci yarımbənddə "ekipaj üzvlərinin" sözləri "hava gəmisi heyətinin" sözləri ilə, "aeroportların (hava limanlarının)" sözləri "hava limanlarının" sözləri ilə əvəz edilsin;

12.2.3. 1.2.6-cı yarımbənddə "ekipaj üzvlərinin" sözləri "heyətinin" sözü ilə əvəz edilsin və həmin yarımbənddən "müəssisələri" sözü çıxarılsın;

12.3. 3.2.2-ci yarımbənddə "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tabeliyində Dövlət Mülki Aviasiya Agentliyinə (bundan sonra - Aviasiya Agentliyi)" sözləri "Aviasiya Agentliyinə" sözləri ilə əvəz edilsin;

12.4. 4-cü hissə üzrə:

12.4.1. 4.1-ci bənddə "əlaqəsi" sözü "mübadiləsi" sözü ilə əvəz edilsin;

12.4.2. 4.1.1-ci yarımbənddə "analitik məlumatların" sözləri "konfidensial informasiyanın" sözləri ilə əvəz edilsin;

12.4.3. 4.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"4.1.2. aviasiya təhlükəsizliyi üzrə konfidensial informasiyanın təhlili, mübadiləsi, əlaqələndirilməsi və istifadəsi üzrə nəzarətə cavabdeh qurum Aviasiya Agentliyidir;";

12.4.4. aşağıdakı məzmunda 4.1.3-4.1.7-ci yarımbəndlər əlavə edilsin:

"4.1.3. aviasiya təhlükəsizliyi sahəsində dövlət siyasəti barədə məlumatlılığın təmin edilməsi, Dövlət Proqramının və "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın tələblərinin yerinə yetirilməsi, mülki aviasiyanın təhlükəsizliyinə təhdidlərin müəyyənləşdirilməsi və risklərin qiymətləndirilməsi, təhlükəsizlik sistemindəki zəifliyin, boşluğun və təhdid nəticəsində yarana biləcək fəsadların aradan qaldırılması məqsədilə Dövlət Proqramı, "Aviasiya təhlükəsizliyinin təmin edilməsi Qaydaları"nın müvafiq hissələri, həmçinin aviasiya təhlükəsizliyinin təmin edilməsi üzrə digər konfidensial informasiya aviasiya subyektlərinə, həmçinin hava limanlarında təmsil olunan dövlət qurumlarına çatdırılır;

4.1.4.aviasiya təhlükəsizliyi üzrə konfidensial informasiyanın mübadiləsi, təhlükəsizliyinin təmini vəmetodları dövlətlər arasında imzalanmış yazılı sazişlər əsasında müəyyənləşdirilir;

4.1.5. konfidensial informasiya mübadiləsi həyata keçirilməzdən əvvəl aviasiya təhlükəsizliyi üzrə informasiya konfidensial informasiya kimi qiymətləndirilir, identifikasiya edilir və onun təhlükəsizliyinin təmin olunması üçün tədbirlər görülməsi tələb edilir;

4.1.6. aviasiya təhlükəsizliyi üzrə konfidensial informasiyanı qəbul edən tərəf onun təhlükəsizliyinin qorunması və yayılmasının qarşısının alınması üçün tədbirlər həyata keçirir;

4.1.7. xarici dövlətlər tərəfindən təqdim olunan və ya xarici dövlətlərin maraqlarına toxunan aviasiya təhlükəsizliyi üzrə konfidensial informasiyanın mühafizəsi təmin edilir.";

12.4.5. 4.2.5-ci yarımbəndin 9-cu abzasında "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin;

12.4.6.4.2.6-4.2.10-cu yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.2.6. Aviasiya Agentliyi Dövlət Proqramının, aviasiya təhlükəsizliyi sahəsində keyfiyyətə nəzarət və aviasiya təhlükəsizliyi sahəsində personalın hazırlığı üzrə milli proqramların işlənib hazırlanmasında xarici dövlətlərlə əməkdaşlıq edir, bu sahələr üzrə məlumat mübadiləsini təmin edir və xarici dövlətlərin müraciəti əsasında qeyd edilən proqramların müvafiq hissələrini həmin dövlətlərə təqdim edir;

4.2.7. Aviasiya Agentliyində Dövlət Proqramının 4.2.6-cı yarımbəndində qeyd edilən sahələr üzrə məlumat mübadiləsinin təmini məqsədilə məsləhətləşmələr aparılır, aviasiya təhlükəsizliyi üzrə məsul şəxslərin adları, ünvanları, telefon, teleks və faks nömrələri, avtomatik fiksasiyalı teleqraf rabitəsinin (AFTN) ünvanı göstərilməklə, tərəflər arasında əlaqə yaratma qaydası və məlumatların çatdırılması üsulları müəyyən edilir;

4.2.8. Aviasiya Agentliyi aviasiya təhlükəsizliyinin təmini sahəsində keçirilmiş yoxlamaların nəticələri barədə konfidensial məlumatların rəsmi müraciətlər əsasında digər dövlətlərə təqdim edilib-edilməməsi barədə qərarın qəbulu məqsədilə Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (bundan sonra - DTX) ilə və Nazirliklə məsləhətləşmələr aparır və yalnız qeyd edilən qurumların razılığından sonra məlumat mübadiləsini təmin edir;

4.2.9. Dövlət Proqramının 4.2.8-ci yarımbəndində qeyd edilən konfidensial informasiyanın diplomatik kanallarla xarici dövlətlərə çatdırılması məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə müraciət edilir;

4.2.10. Aviasiya Agentliyi xarici dövlətlərin konkret reyslərinin və ya hava gəmisinin istismarçılarının təhlükəsizliyinin təmini məqsədilə konfidensial informasiya təşkil edən əlavə təhlükəsizlik tədbirləri görülməsi barədə müraciətlərini qəbul edir, DTX-nin və Nazirliyin rəyi və hava limanlarının faktiki imkanları nəzərə alınmaqla qərar qəbul edir və həmin müraciətlərin təmin olunması üçün "Azərbaycan Hava Yolları" QSC-yə və hava limanlarının rəhbərlərinə göstəriş verir;";

12.4.7. aşağıdakı məzmunda 4.2.11-ci və 4.2.12-ci yarımbəndlər əlavə edilsin:

"4.2.11. xarici dövlətlərin hava limanlarına və ya konkret reyslərinə münasibətdə qanunsuz müdaxilə aktının başvermə təhdidi barədə konfidensial informasiya alındıqda, Aviasiya Agentliyi tərəfindən DTX ilərazılaşdırmaqla Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi vasitəsilə ən qısa zamanda həmin dövlətin səlahiyyətli orqanına və hava gəmisinin istismarçısına məlumat verilir. Həmin dövlətə məlumatın bilavasitə ötürülməsi mümkün olmadıqda, məlumat üçüncü dövlətə və ya ICAO-ya müraciət etməklə çatdırılır;

4.2.12. Aviasiya Agentliyi milli daşıyıcıların konkret reyslərinin təhlükəsizliyinin təmini məqsədilə əlavə təhlükəsizlik tədbirləri görülməsi barədə xarici dövlətlərə müraciət etməzdən əvvəl DTX və Nazirliklə müvafiq məsləhətləşmələr aparır və həmin dövlət tərəfindən müraciətdə qeyd olunan əlavə təhlükəsizlik tədbirlərinin alternativ variantlarının tətbiqi imkanlarını nəzərdən keçirir.";

12.5. 5-ci hissə üzrə:

12.5.1. 5.2-ci bənddə "Aeroport" sözü "Hava limanı" sözləri ilə, "aeroportlarda" sözü "hava limanlarında" sözləri ilə əvəz edilsin;

12.5.2. 5.4-cü bənddə "Aeroport" sözü "Hava limanının" sözləri ilə əvəz edilsin;

12.6. 6-cı hissə üzrə:

12.6.1. 6.0.1-ci yarımbənddə "adekvat" sözü "uyğun" sözü ilə əvəz edilsin;

12.6.2.6.0.8-ci yarımbənddə "aeroportların" sözü "hava limanlarının" sözləri ilə əvəz edilsin;

12.7. 7.0.9-cu yarımbənddə "ekipaj üzvlərinin" sözləri "hava gəmisi heyətinin" sözləri ilə, "aeroportların" sözü "hava limanlarının" sözləri ilə əvəz edilsin.

13. "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı"nın və "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 756 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1047 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 3, maddə 224) aşağıdakı dəyişikliklər edilsin:

13.1. həmin Fərmanla təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinin təmin edilməsi Qaydası" üzrə:

13.1.1. 2-ci hissə üzrə:

13.1.1.1. 2.1.2-ci yarımbənddə "hava gəmilərinin və aviasiya məmulatının fiziki xassələrinə, konfiqurasiyalarına, material hissələrinə, texniki xüsusiyyətlərinə, habelə aviasiya personalına dair tətbiqini" sözləri "mülki aviasiya sahəsində" sözləri ilə əvəz edilsin;

13.1.1.2. 2.1.3-cü yarımbənddə "hava gəmilərinin və aviasiya məmulatının fiziki xassələrinə, konfiqurasiyalarına, material hissələrinə, texniki xüsusiyyətlərinə, habelə aviasiya personalına tətbiqini" sözləri "mülki aviasiya sahəsində" sözləri ilə əvəz edilsin;

13.1.1.3. 2.1.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.5. **xidmət təminatçısı** - təlim təşkilatları, hava gəmisinin istismarçıları, aerodrom istismarçıları, hava gəmisinin istismarçılarına xidmət göstərən texniki xidmət təşkilatları, hava gəmisinin, mühərrik və ya pərlərin növ dizaynına və istehsalına məsul olan hüquqi şəxslər və fərdi sahibkarlar, o cümlədən hava hərəkəti xidmətlərini təmin edən təchizatçı;";

13.1.1.4.2.1.6-cı yarımbənddə ", qəbuledilən" sözü "və məqbul" sözləri ilə əvəz edilsin;

13.1.1.5. aşağıdakı məzmunda 2.1.6-1-ci yarımbənd əlavə edilsin:

"2.1.6-1. **uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə performans** - müəyyən edilmiş uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə performans indikatorlarına və hədəflərinə uyğun olaraq dövlətin və ya xidmət təminatçısının nailiyyəti;";

13.1.1.6.2.1.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.7. **uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə performans indikatoru(bundansonra-performansindikatoru)** - uçuşların təhlükəsizliyinin təmin edilməsinin monitorinqi və performansının qiymətləndirilməsi üçün istifadə olunan və məlumatlara əsaslanan meyarlar;";

13.1.1.7.aşağıdakı məzmunda 2.1.7-1-ci yarımbənd əlavə edilsin:

"2.1.7-1. **uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə performans hədəfi (bundan sonra - performans hədəfi)** - uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədlərinə uyğun olan dövlətin və ya xidmət təminatçısının planlaşdırdığı və ya nəzərdə tutduğu performans indikatoru ilə bağlı müəyyən müddət üçün hədəf;";

13.1.1.8.2.1.8-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.8. **uçuşların təhlükəsizliyi üçün risk (bundan sonra - risk)** -proqnozlaşdırılmış təhlükə amilinin fəsadlarının və ya nəticələrinin başvermə ehtimalı və uçuşların təhlükəsizliyinə təsirinin ciddiliyi;";

13.1.1.9. aşağıdakı məzmunda 2.1.8-1-ci yarımbənd əlavə edilsin:

"2.1.8-1. **mülki aviasiya subyektləri** - xidmət təminatçıları da daxil olmaqla mülki aviasiya sahəsində fəaliyyət göstərən və təhlükəsizliyin təmin edilməsi öhdəliyini üzərinə götürmüş fiziki və ya hüquqi şəxslər;";

13.1.1.10. 2.1.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.9. **risklərin azaldılması**-proqnozlaşdırılmış təhlükə amilinin fəsadlarının və ya nəticələrinin başvermə ehtimalı və uçuşların təhlükəsizliyinə təsirinin ciddiliyinin azaldılmasına yönəlmiş profilaktik və bərpaedici tədbirlərin məcmusu;";

13.1.1.11. aşağıdakı məzmunda 2.1.9-1-ci və 2.1.10-1-2.1.10-3-cü yarımbəndlər əlavə edilsin:

"2.1.9-1. **risklərin qiymətləndirilməsi** - risklərin məqbul olub-olmadığını müəyyən etmək üçün analitik üsullara əsaslanan qiymətləndirmə;";

"2.1.10-1. **təhlükə amili** - aviasiya hadisəsinə və ya insidentinə səbəb ola biləcək, yaxud buna şərait yarada biləcək vəziyyət və ya obyekt;

2.1.10-2. **təhlükəsizlik mədəniyyəti** - uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün lazımi məsuliyyətin, öhdəliyin və hesabatlılığın yaranmasına yönəldilmiş, eləcə də insanların təhlükə amillərinə məruz qalmasının minimuma endirilməsi ilə bağlı davamlı dəyərlər, normalar, münasibətlər və təcrübələr toplusu;

2.1.10-3. **uçuşların təhlükəsizliyinə dair məlumat -** uçuşların təhlükəsizliyinin təkmilləşdirilməsi üçün aviasiya ilə bağlı müxtəlif mənbələrdən toplanılmış faktlar toplusu;";

13.1.1.12. 2.1.11-ci yarımbənd ləğv edilsin;

13.1.1.13. 2.1.12-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.12. **uçuşların təhlükəsizliyinin idarə edilməsi üzrə toplanılmış məlumat bazası** - uçuşların təhlükəsizliyinin idarə edilməsi məqsədləri üçün işlənmiş, sistemləşdirilmiş və təhlil edilmiş uçuş təhlükəsizliyinə dair məlumatların toplusu;";

13.1.1.14.2.1.13-cü yarımbəndə "məqsədilə" sözündən sonra "Nazirliyin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra - Agentlik) tərəfindən" sözləri əlavə edilsin, həmin yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.14-cü yarımbənd əlavə edilsin:

"2.1.14. uçuşların təhlükəsizliyi üzrə müfəttiş yoxlaması **(bundan sonra - müfəttiş yoxlaması)** - aviasiya fəaliyyətini həyata keçirən fiziki və hüquqi şəxslər tərəfindən dövlətin müəyyən etdiyi səriştə və uçuşların təhlükəsizliyinin təmin edilməsi səviyyəsinə uyğun olaraq fəaliyyət göstərdiklərini müəyyən etmək məqsədilə audit və inspeksiyalar daxil olmaqla yerinə yetirilən fəaliyyət.";

13.1.2.3-cü hissə üzrə:

13.1.2.1.3.1-ci bənddə "Nazirliyin tabeliyində Dövlət Mülki Aviasiya Agentliyi (bundan sonra - Agentlik)" sözləri "Agentlik" sözü ilə əvəz edilsin;

13.1.2.2.3.2.1-ci yarımbəndə birinci halda "dövlət" sözündən əvvəl "dövlət siyasətini," sözləri əlavə edilsin;

13.1.2.3.3.2.2-ci yarımbənddə "uçuşların" sözü" mülki hava gəmilərinin uçuşlarının" sözləri ilə əvəz edilsin;

13.1.2.4.3.2.8-ci yarımbənddə ", telekommunikasiya, informasiya və metereoloji xidmətlər" sözləri "xidmətləri" sözü ilə əvəz edilsin;

13.1.2.5.3.3.14-cü yarımbənddə "istismarçılarına" sözü "subyektlərinə" sözü ilə əvəz olunsun və həmin yarımbəndə "edilməsi," sözündən sonra "etibarlılıq müddətinin uzadılması," sözləri əlavə edilsin;

13.1.3. 5-ci hissə üzrə:

13.1.3.1. 5.2.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.2.2. uçuşların təhlükəsizliyinin təmin edilməsi məqsədilə nəzarətin, habelə uçuşların təhlükəsizliyinə nəzarət üzrə tənzimləyici funksiyaların və vəzifələrin ötürülməsinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada həyata keçirilməsi üçün Agentliyin hazırlıqlı müfəttişlər ilə komplektləşdirilməsi;";

13.1.3.2.5.2.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.2.9-cu yarımbənd əlavə edilsin:

"5.2.9. mülki aviasiya sahəsində normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərin pozulduğu aşkarlandığı təqdirdə müvafiq tədbirlərin görülməsi.";

13.1.3.3. 5.3.1-ci yarımbənddə birinci halda "mülki" sözü"dövlətə mənsub" sözləri ilə əvəz edilsin;

13.1.3.4. 5.3.7-ci yarımbənddə ", metereoloji təminat və telekommunikasiya xidmətinin və bu xidmətin" sözləri "xidmətlərinin və bu xidmətlərin" sözləri ilə əvəz edilsin;

13.1.3.5. 5.3.11-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.3.12-ci yarımbənd əlavə edilsin:

"5.3.12. mülki hava gəmilərinin istismarçılarının, eləcə də mülki hava gəmilərinə texniki xidmət göstərən və onların uçuşa yararlılığının saxlanılmasını idarə edən təşkilatların sertifikatlaşdırma tələblərinə uyğunluğu.";

13.1.3.6. 5.5-ci bənddən "ildə bir dəfə", "xidmət təminatçıları ilə razılaşdırmaqla" sözləri çıxarılsın və həmin bənddə "keçiriləcəyi sahələr" sözləri "əhatə dairəsi" sözləri ilə əvəz edilsin;

13.1.3.7. 5.7-ci bənddən "pozuntular və" sözləri çıxarılsın;

13.1.3.8. 5.8-ci bənddən"pozuntuların və uçuşların təhlükəsizliyinə təsir edə biləcək" sözləri çıxarılsın;

13.1.3.9. 5.11.5-ci yarımbəndə "xarici" sözündən sonra "dövlətə mənsub" sözləri əlavə edilsin;

13.1.4. 6-cı hissə üzrə:

13.1.4.1. 6.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"6.1.2. aşkar edilmiş təhlükə amillərinin risklərinin qiymətləndirilməsi və azaldılması.";

13.1.4.2.6.2.1-ci yarımbənddə "sahəsində yüksək səmərəlilik göstəricilərinə" sözləri "üzrə performansa" sözləri ilə əvəz edilsin;

13.1.4.3.6.2.3-cü yarımbənddə "məmulatının təqdim edilməsi və xidmətlər" sözləri "fəaliyyətinin" sözü ilə əvəz edilsin;

13.1.4.4.6.2.4-cü yarımbənddə "personalın" sözü "aviasiya personalının" sözləri ilə, "təqdim edilən aviasiya məmulatlarının və göstərilən xidmətlərin" sözləri "həyata keçirilən fəaliyyətin" sözləri ilə əvəz edilsin;

13.1.4.5.6.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"6.3. Bütün xidmət təminatçıları UTİS-ə malik olmalıdır, eləcə də həyata keçirdikləri fəaliyyətlə əlaqədar təhlükə amillərinin aşkar edilməsinə və risklərin idarə edilməsinə təminat verən qaydaları təsdiq və tətbiq etməlidirlər.";

13.1.4.6. 6.4.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 6.4.4-cü yarımbənd əlavə edilsin:

"6.4.4. aviasiya fəaliyyəti ilə bağlı digər aidiyyəti məlumatların toplanılması.";

13.1.4.7.6.5.2-ci, 6.5.5-ci (hər iki halda) və 6.5.6-cı yarımbəndlərdə "personalın" sözü "aviasiya personalının" sözləri ilə əvəz edilsin;

13.1.4.8.6.5.7-ci yarımbənddə "personalın attestasiyası" sözləri "aviasiya personalının şəhadətnamə, vəsiqə və sertifikatlara malik olması" sözləri ilə əvəz edilsin;

13.1.5. 7-ci hissə üzrə:

13.1.5.1. 7.1.2-ci yarımbənddə "nəzarət" sözü "monitorinq" sözü ilə əvəz edilsin;

13.1.5.2.7.6.3-cü yarımbənddə "səmərəliliyinə" sözü "təmin edilməsi üzrə performansa" sözü ilə, "səviyyə göstəricilərinə" sözləri "indikatorlarına və hədəflərinə" sözləri ilə əvəz edilsin;

13.1.5.3.7.7-ci bənddə "səmərəlilik göstəricilərinin" sözləri "performans indikatorunun" sözləri ilə əvəz edilsin;

13.1.5.4. 7.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"7.8. Agentlik xidmət təminatçıları, habelə digər mülki aviasiya subyektləri üçün hər təqvim ili üzrə Azərbaycan Respublikasının mülki aviasiyasında uçuşların təhlükəsizliyinin hədəflənən minimal səviyyəsini müəyyən edir.";

13.1.6. 8-ci hissə üzrə:

13.1.6.1. 8.5-ci bənddə "9.3-cü" sözləri "9.2-ci" sözləri ilə əvəz edilsin;

13.1.6.2. 8.7-ci bənddən dördüncü halda "aviasiya" sözü çıxarılsın;

13.1.6.3.8.8-ci bənddə "dövlətlərin" sözü "dövlətə mənsub" sözləri ilə əvəz edilsin;

13.1.7. 9-cu hissə üzrə:

13.1.7.1. 9.1-ci bənddə "dövlətin" sözü "dövlətə mənsub" sözləri ilə əvəz edilsin;

13.1.7.2.9.2-ci və 9.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"9.2. Aviasiya hadisəsinin araşdırılmasını Azərbaycan Respublikası Nazirlər Kabinetinin yaratdığı aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiya həyata keçirir.

9.3. Aviasiya hadisələrinin və insidentlərinin araşdırılması üzrə daimi komissiyanın tərkibi və fəaliyyət qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən olunur.";

13.1.8. 10-cu hissə üzrə:

13.1.8.1. adında və 10.5-ci bənddə "personalın" sözü "müfəttiş heyətinin" sözləri ilə əvəz edilsin;

13.1.8.2.10.2-ci bənddə "peşəkar hazırlığının təşkilini və ixtisasının artırılmasını" sözləri "uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı təlim keçməsini" sözləri ilə əvəz edilsin;

13.1.8.3.10.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"10.7. Agentlik uçuşların təhlükəsizliyinə nəzarətin həyata keçirilməsində iştirak edən müfəttiş heyətinin təlimini sertifikatlaşdırılmış təhsil müəssisəsində və ya ICAO-nun təlim mərkəzlərində, habelə Agentlik tərəfindən səlahiyyət bəyanı verilmiş müvafiq təlimçi sertifikatına malik şəxslər vasitəsilə Agentlikdə həyata keçirir.";

13.2. həmin Fərmanla təsdiq edilmiş "Uçuşların təhlükəsizliyinə dair Dövlət Proqramı" üzrə:

13.2.1. 1-ci hissə üzrə:

13.2.1.1. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"Dövlət Proqramı "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununa, "Beynəlxalq Mülki Aviasiya haqqında" 1944-cü il 7 dekabr tarixli Konvensiya və onun əlavələri ilə müəyyən edilmiş Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) beynəlxalq standartlarına və tövsiyə olunan təcrübəsinə və mülki aviasiya sahəsində digər beynəlxalq təşkilatların standartlarına və tövsiyə olunan təcrübəsinə uyğun olaraq, habelə mülki aviasiya sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər beynəlxalq müqavilələrin tələbləri nəzərə alınmaqla hazırlanmışdır.";

13.2.1.2. üçüncü abzasa "dedikdə" sözündən sonra "təhlükə mənbələrinin aşkarlanması və risklərə nəzarət yolu ilə uçuşların təhlükəsiz həyata keçirilməsi, o cümlədən" sözləri əlavə edilsin;

13.2.1.3. beşinci abzasda "təşkilatları" sözü "təşkilatlarının" sözü ilə əvəz edilsin və həmin abzasdan "Dövlətlərarası Aviasiya Komitəsinin fəaliyyəti çərçivəsində" sözləri çıxarılsın;

13.2.1.4. altıncı abzasda "Sərnişin və yük daşınmasında" sözləri "Mülki aviasiya sahəsində" sözləri ilə əvəz edilsin;

13.2.2. 3-cü hissə üzrə:

13.2.2.1. 3.1.2-ci yarımbənddə "uçuşların təhlükəsizliyinin idarə edilməsi sistemi ilə bağlı" sözləri "mülki aviasiya sahəsində" sözləri ilə əvəz edilsin;

13.2.2.2. 3.1.4-cü yarımbənddə "risklərə nəzarət" sözləri "risklərin idarə edilməsi" sözləri ilə əvəz edilsin;

13.2.2.3. 3.1.5-ci yarımbənddə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.1.6-cı və 3.1.7-ci yarımbəndlər əlavə edilsin:

"3.1.6. mülki aviasiya sahəsində təhlükəsizlik mədəniyyətinin təşviq edilməsi;

3.1.7. müxtəlif mənbələrdən uçuşların təhlükəsizliyinə dair məlumatların toplanılması, qorunması və təhlili, o cümlədən bu təhlilin nəticəsi olaraq mülki aviasiyanın daha təhlükəsiz və səmərəli fəaliyyət göstərməsi üçün düzgün qərarların verilməsi, habelə risklərə əsaslanan uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarətin həyata keçirilməsi.";

13.2.2.4. 3.2.1-ci yarımbəndə "bazanın" sözündən sonra "beynəlxalq standartlar və tövsiyə edilən təcrübə nəzərə alınmaqla" sözləri əlavə edilsin;

13.2.2.5. 3.2.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.2.3. Azərbaycan Respublikasında uçuşların təhlükəsizliyinin təmin edilməsi üzrə performans indikatorlarının və hədəflərinin monitorinqi;";

13.2.2.6. 3.2.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.2.5 - 3.2.7-ci yarımbəndlər əlavə edilsin:

"3.2.5. uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində qabaqcıl təcrübənin tətbiqini təşviq etmək;

3.2.6. uçuşların təhlükəsizliyinin təmin edilməsinə nəzarət, eləcə də aviasiya hadisələrinin araşdırılması funksiyalarının yüksək səviyyədə keçirilməsi üçün lazımi insan və maliyyə resurslarının cəlb edilməsi;

3.2.7. uçuşların təhlükəsizliyinin təmin edilməsi sahəsində aidiyyəti dövlət qurumları və mülki aviasiya sənayesi arasında fəal əməkdaşlığın qurulması və dəstəklənməsi.";

13.2.2.7. 3.3.2-ci yarımbənddə "idarə olunması" sözləri "azaldılması" sözü ilə əvəz edilsin;

13.2.3. 5-ci hissə üzrə:

13.2.3.1. 5.1.3-cü yarımbəndə "toplanmasının" sözündən sonra ", təhlil edilməsinin" sözləri əlavə edilsin;

13.2.3.2. 5.1.9-cu yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.1.9. mülki aviasiya subyektlərinin hüquqi və fiziki şəxslərə göstərdikləri xidmətlərin milli və beynəlxalq tələblərə uyğunluğunun təmin edilməsi.";

13.2.4. 6-cı hissə üzrə:

13.2.4.1. 6.1.3-cü yarımbəndə "uyğunluğuna" sözündən sonra ", aviasiya sahəsində yarana biləcək təhlükə amillərinin müəyyən edilməsinə, risklərin qiymətləndirilməsinə və xidmət təminatçılarının xidmət göstərməsi zamanı həmin amillərin təsir dərəcəsinin azaldılması üçün risklərin idarə edilməsi sisteminə" sözləri əlavə edilsin;

13.2.4.2. 6.1.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 6.1.5-ci yarımbənd əlavə edilsin:

"6.1.5. Uçuşların təhlükəsizliyinin təmin edilməsi üçün maarifləndirmə və məlumatlandırma işlərinin görülməsi, aviasiya hadisələri və insidentlərinin məlumat bazasının formalaşdırılması.";

13.2.5. 7.2.1-ci yarımbənddə ikinci halda "xarici" sözü "beynəlxalq" sözü ilə əvəz edilsin;

13.2.6. 9-cu hissə üzrə:

13.2.6.1. 9.1.3-cü yarımbəndə "prosedur" sözündən sonra ", təlimat" sözü əlavə edilsin;

13.2.6.2. 9.1.4-cü yarımbəndə "xarici" sözündən sonra "dövlətə mənsub" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 iyun 2025-ci il*

# Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının 65-ci Baş Assambleyasının plenar iclası keçirilib

**İyunun 18-də Bakıda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) 65-ci Baş Assambleyası keçirilib. Milli Məclisin spikeri, QDİƏTPA-nın fəaliyyətdə olan Sədri Sahibə Qafarova Assambleyada çıxış edib.**






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin Sədri qonaqları Bakıda salamlamaqdan məmnunluğunu bildirərək deyib ki, belə görüşlər xalqların bir-birinə daha da yaxınlaşmasına, qarşılıqlı anlaşmanın möhkəmlənməsinə təkan verir.

O, Azərbaycanın dövlət səviyyəsində dialoqa, dinc birgəyaşayışa və beynəlxalq əməkdaşlığa hər zaman böyük əhəmiyyət verdiyini bildirib. Bu gün Bakı ideyaların yarandığı, təcrübə mübadiləsinin aparıldığı, birlikdə regionumuzu yaxşılığa doğru dəyişə biləcək həll yollarının axtarıldığı yerə çevrilir.

Spiker Sahibə Qafarova xüsusilə qeyd edib ki, Azərbaycanın bu mühüm beynəlxalq forumu uğurla təşkili Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uzaqgörən və strateji cəhətdən uğurlu siyasi kurs sayəsində mümkün olub. Məhz dövlət başçısının rəhbərliyi sayəsində Azərbaycan daxili sabitliyi qoruyub saxlaya bilib, ədaləti bərpa edib, davamlı inkişafı təmin edib, dinamik, özünəinamlı və nüfuzlu ölkəyə çevrilib. Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan bu gün həm müasir çağırışların öhdəsindən gələn, həm də regional və qlobal gündəmi fəal şəkildə formalaşdıran, sülh, inkişaf və bərabərhüquqlu əməkdaşlığı müdafiə və təşviq edən dövlətdir.

Spiker Sahibə Qafarova xatırladıb ki, İkinci Dünya müharibəsindən sonra Azərbaycan yeganə ölkədir ki, işğal olunmuş torpaqlarını azad edib, ərazi bütövlüyünü bərpa edib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, QDİƏT-in regionumuzdakı rolu həqiqətən unikaldır. Bu təşkilat Balkanlardan Qafqaza, Qara dənizdən Xəzər dənizinə qədər ölkələri birləşdirir. Onun sözlərinə görə, bu təkcə coğrafiya deyil. Bizi ümumi tarix, mədəniyyət, iqtisadi maraqlar, ən əsası isə, sülh və inkişafa olan ümumi arzu birləşdirir.

Baş Assambleya çərçivəsində keçiriləcək müzakirələrin mühüm prinsiplərə - demokratiyaya, qarşılıqlı hörmət və etimada əsaslanacağına inamını ifadə edən Sahibə Qafarova deyib ki, qərarların söz olaraq qalmaması üçün lazımi işlər görülməli, konkret addımlar atılmalı, insanların həyatını dəyişəcək real təşəbbüslər irəli sürülməli, dialoq siyasətə, siyasət isə real fəaliyyətə çevrilməlidir. Azərbaycan parlamentinin spikeri parlamentlər arasında əməkdaşlığın gücləndirilməsinin, davamlı inkişafa töhfə verəcək qanunvericilik aktlarının uyğunlaşdırılmasının təşviq edilməsinin və qanunun aliliyinin gücləndirilməsinin vacibliyini ifadə edib. Sözdən konkret səmərəli, şəffaf və uzunmüddətli əməkdaşlıq mexanizmlərinə keçilməli, davamlı inkişafa xüsusi diqqət yetirilməlidir. O, nəinki bu günün çağırışlarına cavab verəcək, həm də gələcəyə yol açacaq əməkdaşlıq mexanizmlərinin qurulmasının əhəmiyyətini qeyd edib. Onun sözlərinə görə, bugünkü qərarlar təkcə operativ deyil, həm də strateji xarakter daşımalıdır. Rəqəmsallaşma, innovasiya, "yaşıl iqtisadiyyat" - bütün bunlar bizim gündəmimizin əsas məsələləri olmalıdır. Spiker həmçinin mədəniyyət sahəsində əməkdaşlığın önəminə toxunaraq deyib ki, mədəni əlaqələr insanlar arasında əsl körpüdür. Bunlarla yanaşı, tələbə mübadiləsi, birgə layihələr, tarixi irsin qorunub saxlanması xalqları daha da yaxınlaşdırır. Çünki mədəniyyət sərhədlərindən, baxışlarından asılı olmayaraq hər kəsin anlaşdığı dildir.

Çıxışda qeyd olunub ki, digər mühüm mövzu süni intellektdir. Bu, artıq iqtisadiyyata, təhsilə, səhiyyəyə və dövlət idarəçiliyinə təsir edir. Ona görə də ümumi etik və hüquqi bazanın işlənib hazırlanması, birgə tədqiqatları təşviq etmək və regionun bütün ölkələri üçün süni intellektə bərabər çıxışı təmin etmək üçün birlikdə işləmək lazımdır.

Sahibə Qafarova həmçinin insan hüquqlarını qorumağın və xalqın təmsilçiliyinin əsas formalarından biri kimi parlamentarizmi təbliğ etməyin də əhəmiyyətini diqqətə çatdırıb. O deyib ki, Assambleya regionda qanunun aliliyini, şəffaflığı və hesabatlılığı müdafiə etməli və göstərməlidir ki, parlament institutları, həqiqətən də, xalqın mənafeyi üçün çalışır. Azərbaycan həmişə hamının lehinə olan əməkdaşlıq və tərəfdaşlığın tərəfdarı olub. Ölkəmiz real və hərtərəfli uğur əldə etmək üçün öz təcrübəsini və imkanlarını bölüşür. Bu gün Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən enerji layihələri və strateji boru kəmərləri regionun və onun sərhədlərindən kənarda enerji təhlükəsizliyində əvəzsiz rol oynayır. Milli Məclisin Sədri diqqətə çatdırıb ki, nəqliyyat infrastrukturuna qoyulan böyük investisiyalar Azərbaycanı Avrasiyanın mühüm nəqliyyat qovşaqlarından birinə çevirib, Orta dəhliz boyunca Şərqlə Qərb arasında həyati və etibarlı əlaqəni təmin edib. Xəzər-Qara dəniz-Avropa "Yaşıl Enerji" Dəhlizinin inkişafı üzrə layihələr Xəzərin böyük "yaşıl enerji" ehtiyatlarının Avropaya ixracına imkan yaradacaq, ölkələrimizin "yaşıl inkişaf" gündəliyinə töhfə verəcək.



Baş Assambleya iştirakçılarının tədbir çərçivəsində Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər edəcəklərini bildirən Milli Məclisin Sədri deyib ki, qonaqlar həmin ərazilərdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin Ermənistan tərəfindən 30 il davam edən işğalının dağıdıcı nəticələrini ilk baxışdan görə biləcəklər. Eyni zamanda onlar bu ərazilərdə aparılan genişmiqyaslı yenidənqurma və abadlıq işlərinin də şahidi olacaqlar. Spiker vurğulayıb ki, bu ərazilərin azad edilməsi ərazi bütövlüyümüzü və suverenliyimizi bərpa etməklə yanaşı, uzunmüddətli sülh və sabitlik üçün də əlverişli şərait yaradıb. Bu da öz növbəsində regionumuzda əməkdaşlıq üçün yeni və daha da yaxşı imkanlar yaradır. Beləliklə, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə inamla baxır və ölkəmizin əldə etdiyi təcrübənin regionun ümumi rifahına töhfə verməsinə çalışır.

Sonda spiker Sahibə Qafarova bir daha QDİƏT PA-nın 65-ci sessiyasının əməkdaşlıqda yeni səhifə açacağına inamını ifadə edərək, tədbirin işinə uğurlar arzulayıb.

Sonra iclasda Bolqarıstan Respublikası Milli Assambleyasının Sədri Nataliya Kiselova çıxış edib. O, Bakıda təşkil olunmuş bu tədbirin QDİƏT PA-nın regionda iqtisadi əməkdaşlığın gücləndirilməsinə, parlamentlərarası dialoqun təşviqinə yönəldiyini söyləyib. Üzv ölkələr arasında əlaqələrin möhkəmləndirilməsinin Qara Dəniz regionunda davamlı inkişafın və rifahın təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb etdiyini deyib. Mehriban qonşuluq münasibətlərinin qurulmasının regional və beynəlxalq əməkdaşlığın inkişafı üçün önəmli olduğunu qeyd edib, bu istiqamətdə birgə səylərin artırılmasının Qara Dəniz regionunda sabitliyin və təhlükəsizliyin təmin edilməsi baxımından vacibliyindən danışıb.

Bolqarıstan spikeri tədbirin mövzusunun aktuallığına diqqət çəkərək nəqliyyat infrastrukturunun səmərəliliyin artırılmasının üzv dövlətlərin davamlı iqtisadi inkişafına nail olunması, ticarət sahəsində regional inteqrasiya üçün geniş imkanlar yaratdığını bildirib. O, eyni zamanda ekoloji cəhətdən daha təmiz nəqliyyat növlərindən istifadə edilməsinin vacibliyindən söhbət açaraq, bunun regionda dayanıqlı və təhlükəsiz inkişaf prinsiplərinə uyğun olduğunu deyib.

Daha sonra tədbirdə Şimali Makedoniya Respublikası Assambleyasının Sədri Afrim Qaşi çıxış edib. O bildirib ki, firavan gələcəyin, sabitlik və təhlükəsizliyin təmin edilməsində, iqtisadi inkişafın sürətləndirilməsində, iqlim dəyişiklikləri ilə mübarizədə çoxtərəfli əməkdaşlığın gücləndirilməsi, demokratik dəyərlərin qorunması, qanunun aliliyinin təmin edilməsi, xalqlar arasında dialoqun təşviqi, parlament diplomatiyasının rolunun gücləndirilməsi önəmli amillər hesab olunur.

Afrim Qaşi müasir və dayanıqlı nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi üçün region ölkələri arasında qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətindən danışıb. O, regional nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində potensial imkanlardan istifadənin vacibliyini qeyd edib və bunun quruma üzv dövlətlər arasında münasibətlərin gücləndirilməsinə, ölkələrin iqtisadiyyatının daha da yüksəlməsinə xidmət etdiyini bildirib. Habelə firavan və sabit gələcəyin yaradılması üçün siyasi dialoqun mühüm əhəmiyyətindən söhbət açıb. Sülhün, təhlükəsizliyin, iqtisadi inkişafın təmin edilməsi, mədəni əlaqələrin möhkəmləndirilməsi, yoxsulluqla mübarizə sahəsində QDİƏT tərəfindən təqdirəlayiq işlərin görüldüyünü vurğulayıb.

Tədbirdə çıxış edən QDİƏT PA-nın Baş katibi Asəf Hacıyev Qara Dəniz bölgəsində müxtəlif mədəniyyətlərə, dinlərə, adət-ənənələrə mənsub millətlərin birgəyaşayışı üçün sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq mühitinin formalaşmasının vacibliyindən bəhs edib. Təşkilata üzv ölkələr arasında iqtisadi, siyasi, sosial, humanitar, təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi, habelə milli maraqların qorunması ilə bağlı fikirlərini bölüşüb. Gələcək inkişaf üçün sülh, barışıq və əməkdaşlığın önəmli amillər olduğunu vurğulayıb.

Asəf Hacıyev Milli Məclisin Sədri Sahibə Qafarovaya QDİƏT PA-nın 65-ci Baş Assambleyasının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını ifadə edib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova iki il əvvəl QDİƏT PA-nın 30 illik yubileyinin qeyd edildiyini bildirib. O, çoxtərəfli iqtisadi əməkdaşlığın təşviqində qurumun mühüm rol oynadığını, bu sahədə milli nümayəndə heyətlərinin töhfə verdiyini söyləyib. Spiker QDİƏT PA-nın səmərəli fəaliyyətində əməyi olan şəxslərin təşkilatın medalı ilə təltif olunduğunu vurğulayıb.

Tədbirdə Sahibə Qafarova Sofiya Vultepsiyə (Yunanıstan), Blagika Lasovskaya (Şimali Makedoniya), Fatih Dönməzə (Türkiyə), Eldar İbrahimova (Azərbaycan) və Peter Kanevə (Bolqarıstan) medalları təqdim edib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova QDİƏT Parlament Assambleyasına növbəti müddət üçün sədrliyin Bolqarıstan Respublikasının Milli Assambleyasına təhvil verildiyini bildirib.

Bolqarıstan Milli Assambleyasının Sədri Nataliya Kiselova QDİƏT PA-ya sədrliyi dövründə səmərəli fəaliyyətinə görə Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovaya təşəkkürünü ifadə edib. O, təşkilatın regional əməkdaşlığın dərinləşməsinə, iqtisadi inkişafın təmin edilməsinə nail olmaq istiqamətində gördüyü işləri yüksək dəyərləndirib. Qara Dəniz bölgəsi ölkələrinin parlamentlərinin bir araya gələrək regionda etimadın və sabitliyin möhkəmlənməsinə töhfə verdiyini deyib. Bolqarıstanın quruma sədrliyi dövründə dayanıqlı inkişafa, mədəni inteqrasiyaya, tolerantlığın təmin edilməsinə, parlamentlərarası əməkdaşlığın gücləndirilməsinə diqqət yetiriləcəyini söyləyib.

Sonra Bolqarıstan Milli Assambleyasının Sədri Nataliya Kiselova Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Şərəf medalı ilə təltif olunduğunu bildirib. O, Azərbaycan parlamentinin spikerinin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının işinə dəyərli töhfələrini, təşkilatın təşəbbüslərinə sarsılmaz dəstəyini və parlamentlər arasında dialoqun gücləndirilməsi istiqamətində səylərini nəzərə alaraq, bu medala layiq görüldüyünü deyib. Nataliya Kiselova vurğulayib ki, Milli Məclisin Sədri Sahibə Qafarova son altı ayda QDİƏT PA-nın sədri kimi Assambleya məqsədlərinin təşviqinə və üzv dövlətlərin arasında əməkdaşlığın möhkəmləndirilməsinə əhəmiyyətli töhfələr verib. Bu, regional iqtisadi əməkdaşlığın, sabitliyin və həmrəyliyin inkişafı üçün vacib təməldir.

Tədbirdə Nataliya Kiselova Milli Məclisin Sədri Sahibə Qafarovaya QDİƏT PA-nın Şərəf medalını təqdim edib.

Sonra tədbir iştirakçıları ailə fotosu çəkdiriblər.

❖ ❖ ❖

Fasilədən sonra QDİƏT PA-nın Baş Assambleyası öz işini sessiyalarda davam etdirib.

Birinci sessiyada bir sıra prosedur məsələlərinə baxılıb, habelə təşkilati və maliyyə məsələləri nəzərdən keçirilib, müvafiq qərarlar qəbul edilib.

Sonra sessiyada Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) fəaliyyəti, Qara Dəniz Ticarət və İnkişaf Bankının (QDTİB) fəaliyyəti, Qara Dəniz Araşdırmaları üzrə Beynəlxalq Mərkəzin (QDABM) fəaliyyəti barədə məlumatlar dinlənilib. Tədbir iştirakçıları gündəlikdəki məsələlərə öz münasibətlərini bildiriblər.

QDİƏTPA-nın Baş Assambleyasının ikinci sessiyasında "Müasir və dayanıqlı nəqliyyat infrastrukturu vasitəsilə QDİƏT regionunda əlaqəliliyin gücləndirilməsi və hərəkətliliyin artırılması" mövzusunda müzakirələr aparılıb. Milli nümayəndə heyətlərinin rəhbərləri mövzu ilə bağlı çıxış edərək öz fikirlərini bölüşüblər.

Sessiya çərçivəsində həmçinin qurumun İqtisadi və inkişaf siyasəti komitəsinin iclası keçirilib. İclasda "Daha yaşıl bir gələcəyə doğru: Qara Dəniz regionunda texnologiya həlləri üzrə əməkdaşlıq" adlı hesabat və tövsiyə layihəsi müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

Üçüncü sessiyada qurumun Hüquq məsələləri və beynəlxalq əməkdaşlıq komitəsinin və Sosial və humanitar siyasət komitəsinin iclasları olub. Tədbirlərdə "QDİƏT regionunda mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə beynəlxalq əməkdaşlıq", "QDİƏT regionunda əlilliyi olan şəxslər üçün təhsilin və məşğulluğun inkişafına dair cari strategiyalar və təcrübələr" adlı hesabat və tövsiyə layihələri nəzərdən keçirilib və müvafiq qərarlar qəbul olunub.

Dördüncü sessiyada QDİƏT PA-nın Baş Assambleyasının 2025-ci il payız sessiyasının tarixi, məkanı və gündəliyi müəyyən edilib.

Bununla Bakıda keçirilən QDİƏT PA-nın 65-ci Baş Assambleyası öz işini başa çatdırıb.

QDİƏT PA-nın 65-ci Baş Assambleyasında Azərbaycan, Albaniya, Bolqarıstan, Gürcüstan, Rumıniya, Serbiya, Şimali Makedoniya, Türkiyə, Ukrayna, Yunanıstan parlament nümayəndə heyətləri, bir sıra beynəlxalq təşkilatların, o cümlədən TÜRKPA, Cənub-Şərqi Avropada Parlament Əməkdaşlığı üzrə Regional Katibliyi (RSPC SEE), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq Katibliyi (BSEC PERMIS), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Beynəlxalq Avtomobil Nəqliyyatı Assosiasiyaları İttifaqı (BSEC-URTA), Qara Dəniz Ticarət və İnkişaf Bankı (BSTDB), Marmara Qrupu, MDB PA-nın təmsilçiləri iştirak ediblər.

*"Azərbaycan"*

## QDİƏT PA-nın 65-ci plenar sessiyasının iştirakçıları Ulu Öndərin məzarını və Zəfər parkını ziyarət ediblər





**Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (QDİƏT PA) 65-ci plenar sessiyasının iştirakçıları iyunun 18-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edib. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verildi.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisində (QDİƏT PM) nümayəndə heyətimizin rəhbəri Eldar Quliyev və parlamentin və təşkilatın komitə sədri Musa Quliyev, deputatlardan Səbinə Salmanova, Kamran Bayramov, Mahir Süleymanlı və digər rəsmi şəxslər müşayiət ediblər.

*"Azərbaycan"*

## Şimali Makedoniya Respublikası Assambleyasının Sədri Fəxri xiyabanı və Zəfər parkını ziyarət edib





**Ölkəmizdə rəsmi səfərdə olan Şimali Makedoniya Respublikası Assambleyasının Sədri Afrim Qaşi iyunun 18-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub, tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, səfər çərçivəsində nümayəndə heyəti Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.

*"Azərbaycan"*

# "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar"

## Bakıda beynəlxalq konfrans keçirilib

**İyunun 18-də Bakıda Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin 20 illiyinə həsr olunmuş "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar" adlı beynəlxalq konfransın açılış mərasimi keçirilib.**














AZƏRTAC xəbər verir ki, açılış mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Daha sonra məhkəmə-hüquq islahatlarının tarixi inkişaf yolunu əks etdirən videoçarx nümayiş etdirilib.

Beynəlxalq konfransın açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov, Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov, Konstitusiya Məhkəməsinin hakimi, Məhkəmə-Hüquq Şurasının sabiq sədri Fikrət Məmmədov, Gürcüstan Ali Məhkəməsinin sədri Nino Kadagidze çıxış ediblər. Açılış mərasimində daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov və baş prokuror Kamran Əliyev də iştirak ediblər.

Açılış mərasimində çıxış edən Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının və Ali Məhkəməsinin sədri İnam Kərimov bildirib ki, məhkəmə islahatlarının davamlılığı, hakimlərin peşəkarlığının artırılması, rəqəmsal transformasiyanın genişləndirilməsi və ictimai etimadın qorunması gələcək fəaliyyətin əsas prioritetlərini təşkil edir: "Bu, davamlı və mərhələli şəkildə aparılmalı olan prosesdir. Dünya inkişaf etdikcə qarşımıza yeni çağırış və tələblər çıxır. Bu baxımdan gələcəyin məhkəmə sistemi yalnız hüquqi islahatlarla deyil, həm də texnoloji inkişafla güclənəcək. Süni intellekt, rəqəmsal texnologiyalar və avtomatlaşdırma sahələrindəki yeniliklər məhkəmə proseslərini daha sürətli, şəffaf və ədalətli aparmaq üçün böyük imkanlar yaradacaq. Virtual məhkəmələr, videokonfranslar və elektron imzalar vasitəsilə hüquqi xidmətlərə daha geniş çıxış təmin ediləcək və nəticədə daha əlçatan bir məhkəmə sistemi qurulacaq. Bu imkanlar məhkəmələrin daha effektiv olmasına, hakimlərin iş yükünün azalmasına, qərarların daha çevik qəbuluna şərait yaradacaq və məhkəmə sisteminin fəaliyyətini daha da təkmilləşdirəcək. Davamlı islahatlar, atılan addımlar vətəndaş məmnunluğunun artmasına hesablanıb. Çünki Azərbaycan Respublikasının dövlət siyasətinin mərkəzində məhz vətəndaş dayanır, yəni dövlətin bütün fəaliyyəti vətəndaşların rifahını, hüquqlarını və həyat şəraitini yaxşılaşdırmağa yönəlib".

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov çıxışında bildirib ki, bu il Azərbaycanda məhkəmə hakimiyyətinin idarəedici funksiyalarını həyata keçirən Məhkəmə-Hüquq Şurasının yaradılmasının 20 illiyi qeyd olunur: "2005-ci ildə bu qurumun formalaşdırılması ilə ölkəmizdə məhkəmə hakimiyyətinin inkişafı, onun idarəolunmasının institusional əsaslar üzərində qurulması yeni mərhələyə qədəm qoyub. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin davam etdirdiyi geniş hüquq islahatları çərçivəsində Məhkəmə-Hüquq Şurasının fəaliyyəti daha da gücləndirilib, məhkəmə sistemində səmərəli tənzimləmə mexanizmləri tətbiq olunub. Eyni zamanda müasir dövrdə məhkəmə idarəçiliyi artıq yalnız inzibati funksiyaların icrası ilə məhdudlaşmır, əksinə, ədalət mühakiməsinin keyfiyyəti, şəffaflığı və ictimai etimadın formalaşdırılmasında mühüm vasitə kimi çıxış edir. Bildiyiniz kimi, 2025-ci il Azərbaycan Respublikasının Prezidenti tərəfindən ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunub. Bu kontekstdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dövlət təsisatlarının, o cümlədən məhkəmə hakimiyyəti orqanlarının fəaliyyətinin bərpası prosesini xüsusi vurğulamaq istərdim. Bu proses Azərbaycanın suverenliyinin real təcəssümüdür və əminəm ki, bu sahədə görülən işlər də uğurla başa çatdırılacaq. Azərbaycan Respublikası məhkəmə-hüquq sistemini daha da təkmilləşdirmək əzmindədir. Bu yolda əsas hədəf ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin hərtərəfli artırılmasıdır. İnanıram ki, bugünkü beynəlxalq tədbir məhkəmə idarəçiliyində qabaqcıl təcrübənin paylaşılması, fikir mübadiləsinin aparılması və gələcək əməkdaşlıq üçün məhsuldar zəmin yaradacaq", - deyə Fuad Ələsgərov vurğulayıb.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov bildirib ki, son illərdə Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra islahatlar keçirilib: "Qanunvericiliyə edilmiş dəyişikliklərə əsasən, 2023-cü ildən etibarən Məhkəmə-Hüquq Şurası əsasən hakimlər tərəfindən formalaşır və şura hazırda hakimliyin yeganə özünüidarəetmə orqanıdır. Eyni zamanda məhkəmə-hüquq sistemində növbəti islahatların keçirilməsi ilə bağlı Prezident İlham Əliyevin 3 aprel 2019-cu il tarixli fərmanı öz aktuallığını saxlamaqdadır. Fərmanın preambulasında deyilir ki, müasir dövrün tələblərinə cavab verən, yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət imkanları genişləndirilməli, məhkəmə fəaliyyətində şəffaflıq artırılmalı, icraatın effektivliyi yüksəldilməli, qərarların tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin və digər neqativ halların aradan qaldırılması üçün əlavə tədbirlər gücləndirilməlidir. Bu çağırışlar hazırda da Məhkəmə-Hüquq Şurası üçün aktualdır".

Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov qeyd edib ki, Azərbaycanda məhkəmə sistemində çox işlər görülüb. "Bütün dünyada qəbul olunmuş postulatdır ki, məhkəmə sistemi insan hüquq və azadlıqlarının qorunmasının ən mühüm müxanizmlərindən biridir. Bu, bütün dünyada qəbul olunub. Azərbaycanda məhkəmə sisteminin formalaşması, təşkili və fəaliyyət prinsipləri Konstitusiyamızda təsbit olunub. Hesab edirəm ki, ötən illər ərzində bu sahədə çox işlər görülüb, proseslər bu gün də davam edir. Mən vaxtilə Məhkəmə-Hüquq Şurasının üzvü olmuşam. Deyə bilərəm ki, məhkəmələrdə qərarlar qanunun tam ciddiyyəti ilə qəbul olunur. Bununla yanaşı, Azərbaycanda məhkəmə fəaliyyətinin tam yüksək səviyyədə həyata keçirilməsi üçün normal şəraitin yaradılması da olduqca vacib məsələdir. Məsələn, bu gün heç kimə sirr deyil ki, məhkəmələrin yükü həddindən artıq çoxdur. Bu baxımdan hakim korpusunun artırılması normal fəaliyyət göstərilməsinə təsir edəcək. Bu proseslərin şəffaf olması qanunçuluq prinsiplərinə əməl edilməsində əhəmiyyətli rol oynaya bilər", - deyə Ziyafət Əsgərov bildirib.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, Məhkəmə-Hüquq Şurasının sabiq sədri Fikrət Məmmədov diqqətə çatdırıb ki, ölkəmizdə məhkəmə islahatlarının uğurla inkişafı, o cümlədən məhkəmə hakimiyyətinin müstəqilliyinin artırılması, xüsusilə Məhkəmə-Hüquq Şurasının səlahiyyətlərinin genişləndirilməsi hər birimizi sevindirir: "Məhkəmə-Hüquq Şurasının tərkibində hakimlərin rolunun daha da genişləndirilməsi, onların demokratik yolla Hakimlərin Konfransı tərəfindən seçilməsi, bütün instansiya məhkəmələri hakimlərinin təmsil olunduğu Hakimlərin Qiymətləndirilməsi Komitəsinin yaradılması, hakimlərin seçimi prosesinin daha da təkmilləşdirilməsi xüsusi məmnuniyyət doğurur. Əminəm ki, Məhkəmə-Hüquq Şurası İnam Kərimovun rəhbərliyi ilə qarşıda duran mühüm vəzifələrin öhdəsindən layiqincə gələcək, ölkəmizdə məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi və daha da inkişafına layiqli töhfəsini verəcək".

Gürcüstan Ali Məhkəməsinin sədri Nino Kadagidze vurğulayıb ki, məhkəmə şuraları məhkəmə sisteminin idarəedilməsinə cavabdeh olan müstəqil orqan kimi mühüm rol oynayır. Bu şuraların vəzifəsi yalnız təyinatlara, karyera yüksəlişlərinə və digər məsələlərə nəzarət etmək deyil, həm də məhkəmə sistemini kənar təsirlərdən qorumaqdadır. "Məhkəmə şuraları məhkəmələrin gərəksiz təzyiqlərdən asılı olmadan müstəqil fəaliyyət göstərmələrinə təkan verir. Müasir dünyada məhkəmə sisteminin müstəqilliyi ilə bağlı tələblər artır. Siyasi və texnoloji inkişaf məhkəmə institutlarına təzyiq göstərə bilər. Bu kimi hallar isə məhkəmə şuralarının rolunu daha da artırır və aktuallaşdırır", - deyə o bildirib.

Açılış mərasiminin sonunda Konstitusiya Məhkəməsinin hakimi, Məhkəmə-Hüquq Şurasının sabiq sədri Fikrət Məmmədov "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib.

Daha sonra "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar" mövzusunda beynəlxalq konfrans işini panel sessiyalarla davam etdirib.

# Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərin edilməsi nəzərdə tutulur

**İyunun 18-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli iclası açaraq bildirib ki, gündəliyə 1 məsələ - Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) daxil edilib.

Qanun layihəsi barədə ətraflı məlumat verən deputat Nurlan Həsənov qeyd edib ki, sənəd bir sıra qanunlarda əlavə və dəyişiklikləri nəzərdə tutur. O bildirib ki, son illərdə Xəzər dənizinin sahilyanı zolağında irimiqyaslı quruculuq işləri aparılır, bu ərazilərdə iri infrastruktur layihələri həyata keçirilir. Bu qanun layihəsi də sahibkarlıq fəaliyyətinin təşviq olunması, turizmin inkişafı və yeni iş yerlərinin yaradılması məqsədi daşıyır.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov qanun layihəsi barədə fikirlərini bildiriblər, onun ölkəmizdə sahibkarlığın inkişafı sahəsinə mühüm töhfə olacağını diqqətə çatdırıblar.

Qanun layihəsinin müzakirəsində Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Elşən Musayev, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov, deputatlar Mübariz Qurbanlı, Aydın Həsənov və Əlibaba Məhərrəmzadə qanun layihəsi ilə bağlı fikirlərini açıqlayıblar, bəzi qeyd və təkliflərini səsləndiriblər.

İclasın sonunda deputatlar müzakirəyə çıxarılan qanun layihəsini birinci oxunuşda Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə ediblər.

❖❖❖

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin ayrıca iclası da keçirilib. Komitənin sədri Əli Hüseynli bildirib ki, iclasın gündəliyinə 8 məsələ daxildir.

Bildirilib ki, gündəliyin 1-ci və 2-ci məsələləri birinci oxunuşda olan "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Konstitusiya Qanunlarının layihələridir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına 2 yeni maddənin (maddə 3-1 və maddə 28-1) əlavə edilməsi, 1 maddənin (maddə 5) çıxarılması, bir sıra maddələrdə və preambula hissədə dəyişikliklər edilməsi nəzərdə tutulur.

Layihəyə əsasən, Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinin III hissəsində qeyd olunan Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olmağı ilə bağlı müddəa Naxçıvan Muxtar Respublikası Konstitusiyasının preambulasında da öz əksini tapacaq.

Konstitusiyaya əlavə edilməsi nəzərdə tutulan "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi" adlı 3-1-ci maddəyə əsasən, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi vəzifələri yerinə yetirən icra orqanıdır və ona rəhbərliyi Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi həyata keçirir.

Sonra bildirilib ki, gündəliyin 3-cü məsələsi olan "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) prokurorluq orqanlarında qulluq keçmənin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Dəyişikliyin əsas məqsədi uzunmüddətli təcrübəyə malik prokurorluq işçilərinin prokurorluq orqanlarında fəaliyyətini davam etdirməsinə şərait yaradaraq prokurorluq orqanlarının səmərəliyinin artırılmasıdır.

Gündəliyin 4-cü məsələsi olan "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədi daşıyır.

Gündəlikdəki "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) məhkəmə hakimiyyətinin müstəqilliyi, habelə məhkəmə hakimiyyətinin özünüidarə orqanı kimi Məhkəmə-Hüquq Şurasının statusu və səlahiyyətləri nəzərə alınmaqla hakimin xidməti vəsiqəsinin təsvirinin və nümunəsinin təsdiq edilməsi, habelə həmin xidməti vəsiqələrin təqdim olunmasının vahid formada Məhkəmə-Hüquq Şurası tərəfindən həyata keçirilməsini ehtiva edir.

Gündəlikdəki "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) barədə bildirilib ki, bu dəyişikliklər qeyri-hökumət təşkilatları tərəfindən xidmətlərin göstərilməsi və işlərin görülməsinə dair qüvvədə olan mövcud tələblərin daha da təkmilləşdirilməsi və şəffaflaşdırılması məqsədi daşıyır.

7-ci məsələ olan Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) isə bir sıra normaların təkmilləşdirilməsi və dəqiqləşdirilməsi məqsədilə hazırlanıb.

Diqqətə çatdırılıb ki, gündəliyin sonuncu məsələsi Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Bələdiyyə torpaqlarının ayrılmasına dair sənədlərin hazırlanması və razılaşdırılması qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsidir. Dəyişikliklər təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına yaşayış evlərinin və çoxmənzilli yaşayış binalarının tikintisi ilə bağlı torpaq sahələrinin ayrılması, daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı, habelə şəhərsalma və tikinti prosedurlarının sadələşdirilməsi məsələlərini özündə ehtiva edir.

İclasın sonunda gündəlikdəki 8 məsələnin hamısı Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

***"Azərbaycan"***

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları təsisatlarının rolu"

## Bakıda Ombudsmanların Beynəlxalq Simpoziumu keçirilib

**Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin (ombudsmanın) təşəbbüsü ilə Bakıda "Konstitusiya və Suverenlik İli" və 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Gününə həsr olunmuş "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları institutlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, simpoziumda 15-dək ölkədən ombudsman və milli insan hüquqları təsisatlarının rəhbərləri və nümayəndələri, dövlət orqanlarının yüksəkvəzifəli şəxsləri, deputatlar, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri, həmçinin insan hüquqları sahəsində təcrübəli ekspertlər iştirak ediblər.

Əvvəlcə ədliyyə naziri Fərid Əhmədov Prezident İlham Əliyevin simpozium iştirakçılarına müraciətini səsləndirib.

Sonra ölkəmizlə bağlı videoçarx nümayiş olunub.

Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva simpozium iştirakçılarına ünvanladığı müraciətə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirib.

Ombudsman qanunun aliliyinin gücləndirilməsi kimi qlobal əhəmiyyətli mövzu üzrə təşkil olunan bu tədbirin insan hüquqlarının müdafiəsi məsələsinin müzakirəsi və gələcək perspektivlərin dəyərləndirilməsi baxımından faydalı olacağına əminliyini ifadə edib. O, müasir dövrdə qloballaşma, silahlı münaqişələr və digər qlobal proseslərin insan hüquqları sahəsində əməkdaşlığın gücləndirilməsini şərtləndirdiyini, xüsusilə münaqişə və postmünaqişə dövründə qanunun aliliyinin təminatçısı kimi ombudsman və milli insan hüquqları təsisatlarının fəaliyyətinin vacib rol oynadığını qeyd edib.

Səbinə Əliyeva Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə otuz ilə yaxın işğal altında olan torpaqlarımızın azad olunduğunu, ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün və suverenliyinin tam olaraq bərpa edildiyini bildirib. Ölkəmizin Ermənistanın işğalçılıq və etnik təmizləmə siyasətinin yaratmış olduğu humanitar fəsadlardan hələ də əziyyət çəkdiyini qeyd edən ombudsman azad edilmiş ərazilərdə mövcud mina probleminin insanların təhlükəsiz yaşamaq hüququna ciddi təhdidlər yaratdığını, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz qayıdışına, bu ərazilərdə aparılan bərpa-quruculuq işlərinə əngəl törətdiyini və regionda ekoloji tarazlığın pozulmasına səbəb olduğunu diqqətə çatdırıb.

















Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev bildirib ki, qloballaşan dünyada dövlətin, cəmiyyətin harmonik, sabit inkişafında fundamental hüquq və azadlıqların qorunması və qanunun aliliyinin təmin edilməsi mühüm şərtdir. Dövlət hakimiyyət orqanları arasında səmərəli əməkdaşlıq münasibətlərinin qurulması və bu münasibətlərin inkişaf etdirilməsi vacibdir.

F.Abdullayev Konstitusiya Məhkəməsi ilə Ombudsman təsisatı arasındakı əlaqəyə toxunaraq, bu cür qarşılıqlı münasibətlərin və aparılan təcrübə mübadiləsinin insan hüquqlarının müdafiəsi baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov isə bildirib ki, ölkəmizdə insan hüquqlarının qorunması ali dəyərə çevrilib. İnsan hüquqlarının qorunması uğurla həyata keçirilən prosesdir.

O qeyd edib ki, insan hüquqlarının qorunması Azərbaycan dövlətinin öz qarşısına qoyduğu, uğurla həyata keçirdiyi ən önəmli vəzifələrdən biridir. Dövlətimizin insan hüquqlarının müdafiəsini öz ali məqsədlərindən biri kimi qəbul etdiyini, bununla da ölkəmizdə insan hüquqları sahəsində formalaşmış təsisatların, o cümlədən Ombudsman təsisatının həmin dəyərlər əsasında fəaliyyət göstərməsinə şərait yaradıldığını bildirib.

Milli İnsan Hüquqları İnstitutlarının Qlobal Alyansının (GANHRI) sədri Amina Buayaşın və Milli İnsan Hüquqları İnstitutlarının Avropa Şəbəkəsinin (ENNHRI) sədri Luiza Holkun konfrans iştirakçılarına videomüraciətləri dinlənilib.

Ombudsmanların Beynəlxalq Simpoziumunda "Hər kəs üçün bərabər hüquqların təmin edilməsi: müsbət təcrübələr və çətinliklər" mövzusunda keçirilən panel müzakirələrdə çıxış edən xarici işlər nazirinin müavini Elnur Məmmədov ölkəmizin BMT-nin bir çox qurumu ilə əməkdaşlıq etdiyini diqqətə çatdırıb. Bildirib ki, çoxmillətli, çoxdinli ölkə olan Azərbaycanda 50-dən çox etnik və dini qrup bir ahəng içərisində yaşayır.

"Azərbaycandakı dini inanc azadlığı da fundamental insan hüquqlarından biridir. Azərbaycan müsəlman ölkə olsa da, burada qeyri-müsəlman icmalar azad yaşaya bilirlər. Ölkəmizdə dini icmaların inkişafı üçün onlara maliyyə dəstəyi də göstərilir", - deyə xarici işlər nazirinin müavini vurğulayıb.

Simpoziumda ombudsmanların və milli insan hüquqları institutlarının konstitusion hüquqların təmin edilməsi sahəsində fəaliyyəti, hər kəs üçün bərabər hüquqların təmin edilməsi: müsbət təcrübələr və çətinliklər və qaçqınların hüquqlarının müdafiəsi sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi və müsbət təcrübələr mövzularında panel sessiyalar təşkil edilib.

Yekunda Ombudsmanların Beynəlxalq Simpoziumunun Bəyannaməsi qəbul olunub.

# Qaz təchizatının hüquqi tənzimlənməsi yenilənəcək

**Xəbər verdiyimiz kimi, Milli Məclisin iyunun 13-də keçirilən iclasında "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası qanununun layihəsi müzakirə olunaraq birinci oxunuşda qəbul edilib. Qeyd edək ki, hazırda qüvvədə olan "Qaz təchizatı haqqında" qanun 1998-ci ildə qəbul olunub. Bəs bu sahədə yeni qanun layihəsinin hazırlanması hansı zərurətdən irəli gəlib və onun qəbulu nəyi dəyişəcək?**

Bu suallarla Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanova müraciət etdik. Komitə sədri bildirdi ki, Azərbaycanda uğurla həyata keçirilən sosial-iqtisadi islahatlarda məqsəd milli iqtisadiyyatın davamlı inkişafını, onun maliyyə dayanıqlığının güclənməsini və sürətlə müasirləşməsini, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini, xalqın maddi rifahının yüksəlməsini və insan kapitalının davamlı inkişafını təmin etməkdədir. "Qaz təchizatı haqqında" yeni qanun layihəsi də "Azərbaycan Respublikasının energetika sektorunda islahatların sürətləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 1209 nömrəli Sərəncamından irəli gələn tapşırıqların icrasını təmin etmək məqsədi daşıyır.

Yeni qanun layihəsinin hazırlanması zərurətinə gəldikdə Sadiq Qurbanov qeyd etdi ki, mövcud qanun qaz təchizatının yalnız ümumi çərçivəsini müəyyən edir və onun praktiki tətbiq zamanı sektorun müxtəlif iştirakçıları - nəql edən, paylayan, saxlayan və satan subyektlər arasında məsuliyyət həddinin kifayət qədər dəqiq aparılmadığı müşahidə olunurdu. Odur ki, ölkəmizin qaz təchizatı sistemində idarəetmənin beynəlxalq standartlara uyğunlaşdırılması və bu sahədə dayanıqlı, sabit, şəffaf və rəqabətli hüquqi mühitin formalaşdırılması məqsədilə belə bir qanun layihəsinin hazırlanması zərurəti yarandı. Milli Məclisdə birinci oxunuşdan keçən yeni qanun layihəsində bütün bunlar, o cümlədən qaz təchizatı ilə bağlı yeni çağırışlar və tələblər nəzərə alınıb. Belə ki, layihədə hasilat, nəql, paylanma və satış funksiyalarının hüquqi ayrılığın təmin edilməsi, tariflərin hesablanması üçün şəffaf mexanizmlərin qurulması, mənzildaxili nasazlıqlar və texniki xidmət sahəsində müstəqil bazarın formalaşdırılmasının hədəflənməsi kimi məsələlər öz əksini tapıb. Layihə ilk dəfə olaraq "qaz nəqli sistem operatoru", "qazpaylayıcı sistem operatoru" və "qazın saxlanması sistem operatoru" anlayışları qanunvericiliyə daxil edilir və bu subyektlərin səlahiyyət və öhdəliklərini konkretləşdirir. Bundan başqa, layihədə "tənzimləyici orqan" anlayışı da hüquqi səviyyədə müəyyən edilib. Bu orqana qaz təchizatı sahəsində icazələrin verilməsi, tariflərin tənzimlənməsi, sektor üzrə monitorinq və nəzarət, habelə mübahisələrin həlli kimi mühüm və kompleks səlahiyyətlər verilir. Qanun layihəsində tarif siyasəti də ayrıca və ətraflı şəkildə nəzərdə tutulur. Eyni zamanda kommersiya uçotu, texniki istismar, balanslaşdırma və itkilərin qarşısının alınması ilə bağlı mexanizmlər də layihədə öz əksini tapıb.

Layihədə dövlət siyasətinin əsas prinsipləri kimi - qaz təchizatının dayanıqlılığı, təhlükəsizliyi, etibarlığı, səmərəliliyi, şəffaf idarəetmə və tənzimləmə, bərabər və ayrı-seçkiliyə yol verilməyən xidmət imkanları təsbit edilib. Əsas məqsəd enerji təhlükəsizliyini təmin etmək, istehlakçılarla təchizat subyektləri arasında balanslı və ədalətli münasibətlər qurmaqdır.

Sadiq Qurbanovun sözlərinə görə, "Qaz təchizatı haqqında" yeni qanunun qəbulu ilə qazın nəqli, paylanması, saxlanması, satışı, idxalı, istehlakı və qaz qurğularının istismarı ilə bağlı qaz təchizatı subyektləri, istehlakçılar və qaz təchizatı sektorunda fəaliyyət göstərən dövlət orqanları arasında yaranan münasibətlər daha təkmil və mütərəqqi şəkildə tənzimlənəcək və qaz təchizatının hüquqi, iqtisadi və təşkilati əsasları müəyyən ediləcək. O cümlədən qazın nəqli, paylanması, saxlanması, topdan satışı və idxalı, habelə pərakəndə satışı fəaliyyətlərinin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun (SOCAR) tabeliyində ayrı-ayrı hüquqi şəxslərin yaradılması təmin ediləcək. Layihənin qəbul edilməsi ilə əlaqədar qaz təchizatı sahəsində mövcud olan qanunvericilik, o cümlədən hökumət tərəfindən təsdiq edilmiş qaydalar da yenilənəcək. Layihədə yer alan məsələlər həm də qaz təchizatı sektorunda inhisarçılığın qarşısının alınmasına, özəl investisiyaların təşviqinə, istehlakçı hüquqlarının qorunmasına xidmət edir.

Bütövlükdə "Qaz təchizatı haqqında" yeni qanun layihəsinin hazırlanması strateji əhəmiyyət daşıyan enerji sektorunun hüquqi tənzimlənməsi baxımından mühüm təşəbbüsdür və onun qəbulu respublikamızın qaz təchizatı sektorunda yeni mərhələnin başlanğıcı olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclasında 4 qanun layihəsi müzakirə olunub

**İyunun 18-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin videokonfrans formatında iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Sadiq Qurbanov gündəliyə 4 məsələnin - "Qaz təchizatı haqqında" (ikinci oxunuş), "Elektroenergetika haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş), "İstilik təchizatı haqqında " (üçüncü oxunuş), "Elektroenergetika haqqında" qanunda dəyişiklik edilməsi barədə" qanun layihələrinin daxil olduğunu bildirib.

İlk olaraq "Qaz təchizatı haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarılıb. Məlumat verilib ki, bu qanun qazın nəqli, paylanması, saxlanması, satışı, idxalı, istehlakı və qaz qurğularının istismarı ilə bağlı qaz təchizatı subyektləri, istehlakçılar və qaz təchizatı sektorunda fəaliyyət göstərən dövlət orqanları (qurumları) arasında yaranan münasibətləri tənzimləyəcək, həmçinin qaz təchizatının hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edəcək.

Sonra gündəliyin ikinci məsələsi - "Elektroenergetika haqqında" qanuna təklif olunan dəyişiklik barədə məlumat verilib. Bildirilib ki, qanun layihəsi elektroenergetika sektorunda sabit tarifin tətbiqi məqsədilə hazırlanıb. Layihədə istehlak səviyyəsindən asılı olmayaraq, hər bir istehlakçı üçün sabit tarifin aylıq ödəniş elementi kimi müəyyənləşdirilməsi, bu tarif vasitəsilə paylayıcı sistem operatorunun sabit xərclərinin qarşılanması nəzərdə tutulur. Eyni zamanda layihədə sabit tarifin tətbiqindən irəli gələn məsələlər, elektrik enerjisi təchizatçısının və istehlakçının hüquq və vəzifələri də tənzimlənir.

Gündəliyin üçüncü məsələsi olan "İstilik təchizatı haqqında " (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verən komitə sədri Sadiq Qurbanov bildirib ki, sənəd istilik enerjisinin istehsalı, paylanması (ötürülməsi), satışı və istehlakı ilə bağlı yaranan münasibətləri, bu sahədə dövlət orqanlarının və tənzimləyicinin səlahiyyətlərini, istilik təchizatı subyektlərinin hüquq və vəzifələrini tənzimləyəcək və istehlakçıların istilik təchizatı ilə təminatının keyfiyyətinin yüksəldilməsinə xidmət edəcək.

Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov gündəliyin sonuncu məsələsi - "Elektroenergetika haqqında" qanunda dəyişiklik edilməsi barədə məlumat verib. O, qanun layihəsinin "Elektroenergetika haqqında" qanunun 13.2-ci maddəsinin qüvvəyə minmə müddətinin dəyişdirilməsi məqsədilə hazırlandığını söyləyib. Bildirilib ki, hazırkı variantda bu maddənin 2025-ci il iyulun 1-də qüvvəyə minməsi nəzərdə tutulsa da, təklifə əsasən bu müddətin müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilməsi məqsədəuyğun hesab olunur.

Komitənin sədr müavini Fatma Yıldırım, üzvləri Vüqar Rəhimzadə, Asif Əsgərov qanun layihələri ilə bağlı fikirlərini bölüşüblər. Müzakirələrin sonunda qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

# AZƏRBAYCANIN FƏRQLİ, DÜŞÜNÜLMÜŞ SİYASƏTİ



Dünya od tutub yanır!

* Bu yanğın get-gedə genişlənir!
* Bu yanğının fəsadları getdikcə artır!
* Bu yanğından zərər çəkənlərin də miqdarı sürətlə çoxalır!

**Təəssüf ki, belə yanğınlara odun atanların sayı onu söndürmək istəyənlərdən qat-qat artıqdır.**

Aşkarda yanar ocağa neft töküb alovu qızışdıranlarla yanaşı, üzdə bir söz söyləyərək daldada "ələkçiyə qıl verənlər" də kifayət qədərdir.

Barmaqla sayılacaq qədər az ölkə var ki, onların liderləri müharibə ocağını söndürməyə qəlbən çalışır, vuruşanların sülhə gəlmələri üçün səmimən vasitəçilik etmək istəyir.

**Lakin dalaşanların bir-birinə qarşılıqlı iddiaları çox olduğundan hələ ki heç bir tərəf güzəştə getməyə, sülhə gəlməyə meyilli görünmür.**

* Ziyan çəkənlər isə daha çox döyüşən ölkələrin mülki insanları, sıravi vətəndaşlarıdır.

* Ziyan çəkənlər evləri dağıdılan, ocaqları söndürülən, doğmalarını, əzizlərini, yaxınlarını itirən günahsız insanlardır.

* Ziyan çəkənlər təkcə vuruşan tərəflər deyil, onlara qonşu olan ölkələrdəki hava məkanlarının bağlanmasından əziyyət çəkən sərnişinlərdir.

* Ziyan çəkənlər həm də bütün dünyadır.

*Əslində, Yer kürəsi o qədər də böyük deyil.*

*Kosmosdan baxanda onun kiçikliyi aydın hiss olunur.*

Hər gün göyə buraxılan yüzlərlə PUA-lar, qanadlı raketlər, dronlar səmanı çömçə kimi bulandıraraq qarışdırır.

**Artıq dünyanın bütün qitələrində ilin fəsilləri dəyişib, yerini səhv salaraq çaşbaş qalıb.**

* Dayanmadan vulkanlar püskürür, zəlzələlər baş verir;

* Meşə yanğınları planetimizin ağ ciyərlərini parçalayır;

* Sellər bütöv yaşayış məntəqələrini ağzına alıb aparır...

*Kənd təsərrüfatının növrağı dağıldığından kəndli bol məhsula həsrət qalır, bazarlarda qiymətlər od tutub yanır.*

**Lakin gözünü pul hərisliyi tutmuş silah alverçilərinin, əlləri onların cibində olan siyasətçilərin başları artan gəlirlərini hesablamağa qarışdığından bütün bunları sanki görmür, yaxud görmək istəmirlər.**

*Bir günün içində ömürləri boyu qazandıqlarını itirərək yurdsuz-yuvasız qaçqına çevrilənlərin, bir qarın yemək üçün saatlarla itələşərək sonda gülləyə qurban gedənlərin faciəsi bu oyunları quranları zərrə qədər də narahat etmir.*

**Heç bütün bu qovğaların nüvə silahlarının işə düşəcəyi ilə yekunlaşa biləcəyi də sanki heç kəsin eyninə deyil.**

Atom bombaları partlayanda isə nə varlı bilir, nə yoxsul tanıyır...

Heç dini əlamətləri də fərqləndirmir.

*Dünya nüvə silahının nə olduğunu Xirosima və Naqasaki şəhərlərinin timsalında aydın gördü.*

*Amma nüvə silahının nə edə biləcəyini deyəsən artıq unudub...*

*Ölənlərin heç biri özü ilə o dünyaya heç nə apara bilmir!*

Dünya hökmranlığı etmək, dünyanın var-dövlətini bir ölkənin əlində cəmləmək ideyası da bəşər tarixi yaranandan bəri kimsəyə müyəssər olmayıb.

Hərçənd ki, buna çalışanlar, bu yolda dəryalarca qan tökənlər də çox olub.

**Bəs döyüşən tərəflər bu barədə düşünmürlərmi?**

**Bəs döyüşən tərəfləri müdafiə edərək silahlandıranlar baş verəcək idarəolunmaz nəticələrdən özlərinin də böyük ziyan görəcəklərini anlamırlarmı?**

* Niyə sülh yaratmaq istəyənlərin səmimi səsi eşidilmir?!

* Niyə hədələr sülh çağırışlarını eşidilməz edir?!

* Niyə indiyədək iki dünya müharibəsinə səbəb olanlar üçüncünün həm də sonuncu ola biləcəyini anlamaq istəmirlər?!

Suallar çox, ağıllı çıxış yolları barədə danışıqlara gəlmək istəyənlər isə yox dərəcəsindədirlər.

❖ ❖ ❖

*Nəhayət, hamının çoxdan gözlədiyi hadisə baş verdi...*

*İsraillə İran arasında müharibə başladı!*

**İran həmişə İsraili yer üzündən siləcəyi ilə hədələyirdi.**

**İsrail İranın nüvə silahı yaratmasına heç zaman imkan verməyəcəyini bildirirdi.**

İran isə MAQATE-nin və ABŞ-nin bütün xəbərdarlıqlarına məhəl qoymadan uranın zənginləşdirilməsini davam etdirirdi.

Nəhayət, məlum oldu ki, tezliklə İranın beş atom bombası hazırlamasına kifayət edəcək qədər zənginləşdirilmiş uranı olacaq.

İsrail də bir gecə qəflətən İranın çoxsaylı obyektlərini raket zərbələri ilə vuraraq onun bir neçə yüksək çinli hərbçilərini və nüvə silahı hazırlamaqla məşğul olan alimlərini öldürdü.

**ABŞ Prezidenti D.Tramp İranı bu yoldan çəkindirmək üçün xəbərdarlıq etmişdi və sülh danışıqlarına çağırmışdı.**

Lakin...

İsraillə İran arasında müharibənin olmamasını və indiki halda isə dərhal dayanmasını istəyən ən səmimi dövlət Azərbaycandır!

Çünki...

Azərbaycanın İsraillə çoxdan dostluq və əməkdaşlıq əlaqələri var və Vətən müharibəsində istifadə etdiyimiz müasir silahların bir qismini İsraildən almışıq və yenə də alırıq.

İranla Azərbaycan tarixi köklərə, milli ənənələrə malik müsəlman dövlətləridir və azərbaycanlıların böyük bir qismi İran ərazisində yaşayır.

Azərbaycan həmişə İrana dost münasibəti bəsləyib, onunla əməkdaşlığa can atıb.

Təəssüf ki, İran heç də həmişə Azərbaycana səmimi münasibət bəsləməyib, hətta İkinci Qarabağ müharibəsində hava məkanını açaraq daim Ermənistana silah-sursat daşınmasına şərait də yaradıb.

**Azərbaycan isə heç zaman qardaşlıq mövqeyindən geri çəkilməyib.**

**İsrailin hücumu baş verən kimi Azərbaycan XİN dərhal bəyan etdi ki, ölkəmiz heç bir üçüncü dövlətə onun ərazisindən İrana qarşı istifadəyə yol verməyəcəkdir!**

*Azərbaycan İranda qalaraq müharibə nəticəsində çətin vəziyyətə düşən əcnəbi diplomat və turistlərin öz vətənlərinə rahat və təhlükəsiz qayıtmaları üçün sərhəd qapılarını onların üzünə açdı!*

**Azərbaycan daim bəyan etdiyi mövqeyində yenə də dönməz və qətiyyətlidir:**

**Ölkəmiz Cənubi Qafqazda sülh, əməkdaşlıq və mehriban qonşuluğun tərəfdarıdır!**

Bunun üçün özünün bütün imkanlarını qonşularla bəlli prinsiplər əsasında bölüşməyə də hazırdır.

❖ ❖ ❖

*Azərbaycan xalqı və Azərbaycan dövləti müharibənin nə olduğunu yaxşı bilir!*

*Həm də ən yaxın dövrün təcrübəsi əsasında!*

**Bizim xalq heç zaman aqressiv olmayıb, heç kəsin torpağına göz dikməyib, heç bir halda müharibə istəməyib.**

**Amma daim qürurlu olub, müstəqil, azad yaşamaq istəyib, kimsənin qoltuğuna qısılmayıb!**

İmperiyasevər qüvvələr, xain və məkrli qonşuları isə başqa cür düşünüblər.

Həm də təkcə düşünməyiblər, bizdən torpaq qoparmaq üçün daim fürsət gəziblər.

Hər dəfə Azərbaycanın taleyüklü məqamlarında əllərinə belə bir fürsət düşüb.

*Çar Rusiyasının köməyi ilə Cənubi Qafqazda yerləşən və Azərbaycan torpaqları hesabına özlərinə vassal dövlət yaradan ermənilər ötən əsrin əvvəllərində - Azərbaycan Xalq Cümhuriyyəti qurulanda yaranmış mürəkkəb vəziyyətdən istifadə edərək əlavə ərazilərimizi ələ keçirdilər.*

**Çar Rusiyasının "qırmızı davamçıları" olan sovet dövründə də Moskvanın köməyi ilə dəfələrlə soydaşlarımızı dədə-baba torpaqlarından deportasiya etdirərək boşaldılan ərazilərə sahib çıxdılar.**

1923-cü ildə isə Kremlin qərarı ilə torpaqlarımızda "DQMV" adlı qondarma qurum təsis etdirərək, əslində, ərazimizdə gec partlayan mina basdırmış oldular.

Qırmızı imperiya laxlayaraq dağılanda isə yenə köhnə ssenari ilə hərəkətə başladılar.

Plan bəlli, niyyət məlum olsa da, yeni müstəqilliyin ilk illərində ölkəyə maymaq və qorxaq insanlar başçılıq etdiklərindən uzaqgörənlik və qətiyyət göstərə bilmədilər.

Həqiqi rəhbərindən və sadiq oğlundan ayrı düşmüş Azərbaycan xalqı isə ordusuz və silahsız olduğundan torpaqlarını qoruya bilmədi.

"Arxalı köpək qurd basar" - demişlər.

*Ermənilər havadarlarına və dostlarına güvənərək, onlardan siyasi, hərbi, maliyyə, diplomatik dəstək alaraq ərazilərimizin iyirmi faizini işğal etdilər.*

*Bu qanlı müharibədə iyirmi min övladını şəhid verən Azərbaycan işğalla heç zaman barışmayacağını dönə-dönə bəyan etdi.*

**Xalq həqiqi rəhbəri Ulu Öndər Heydər Əliyevi yenidən ölkə rəhbərliyinə qaytardı, sülh danışıqları yolu ilə torpaqlarını qaytaracağına ümid bəslədi.**

**Ulu Öndər Heydər Əliyev ölkədə daimi və dönməz sabitlik yaratdı, Azərbaycanın müstəqilliyini əbədiliyə və dönməzliyə çevirdi, "Əsrin müqaviləsi"nin imzalanmasına nail olaraq ölkənin gələcək iqtisadi inkişafını təmin etdi, yeni ordu quruculuğuna başladı!**

Ömür isə bundan artığına imkan vermədi...

❖ ❖ ❖

**İlham Əliyev ölkə rəhbəri kimi fəaliyyətə başlayanda baş problemin - Qarabağ məsələsinin yalnız Azərbaycanın ərazi bütövlüyünün təmini əsasında həllinin mümkünlüyünü yaxşı bilirdi.**

Lakin o da məlum idi ki, Ermənistan heç zaman torpaqları sülh yolu ilə qaytarmayacaqdır.

O da məlum idi ki, ATƏT-in Minsk qrupu "sülh danışıqları" adı ilə məsələnin çözümünü uzatmağa çalışaraq bu yolla xalqımızın işğalla barışacağına bel bağlayırdı.

Həm də müharibə variantı zamanı yenidən Ermənistana dəstək verərək onu bir daha qalib çıxaracaqlarına əmin idilər.

*Azərbaycana qarşı qurulmuş bu oyunun bütün "qayda"larına əməl etməklə sülh danışıqlarına getmək, son nəticədə isə düşmən üzərində qələbə çalmaq elə də asan iş deyildi.*

Bu, heç mümkün də görünmürdü.

Amma...

**İlham Əliyev iti zəkası, uzaqgörənliyi, möhkəm iradəsi və qətiyyəti, ən əsası, nəyi necə və nə vaxt etmək məharəti sayəsində təkcə Ermənistana deyil, onun havadarlarına və dəstəkçilərinə, müdafiəçilərinə də qalib gəldi.**

*Uzun illər çəkən bu prosesdə Azərbaycanın fərqli, düşünülmüş və özünəməxsus xarici siyasəti də formalaşaraq yeni məna kəsb etdi.*

**Ən əvvəl, Müzəffər Ali Baş Komandan İlham Əliyev səmərəsizliyinə və nəticəsizliyinə əmin olduğu sülh danışıqlarından imtina etmədi.**

**Eyni zamanda bu danışıqlar zamanı bütün təsir və təzyiq cəhdlərinə baxmayaraq, Azərbaycanın milli maraqlarına ziyan verə biləcək heç bir sənədə imza atmadı.**

İlk növbədə qaçqın və çadır düşərgələrində, ictimai binalarda və qeyri-yaşayış yerlərində məskunlaşaraq ağır şəraitdə qalan məcburi köçkünlərin həyat və məişət şəraitlərinin yaxşılaşdırılması üçün təcili və təxirəsalınmaz tədbirlər görülməli idi.

Büdcəyə kifayət qədər vəsaitin toplanılmadığı bir vaxtda bunu etmək asan iş deyildi.

Üstəlik, regionlarda vəziyyət ağır olaraq qalır, elektrik enerjisi böyük fasilələrlə verilir, işsizlik və yoxsulluq baş alıb gedir, sahibkarlıq inkişaf etmirdi.

Bütün bunların həlli üçün ölkənin iqtisadi imkanları genişləndirilməli idi.

**Prezidentliyinin ilk günlərində cənab İlham Əliyev eyni vaxtda bir çox məsələ ilə məşğul oldu:**

* Regionların sosial-iqtisadi inkişafına dair dörd dövlət proqramı qəbul olunaraq uğurla yerinə yetirildi.

* Sahibkarlıq inkişaf etdirildi, çoxsaylı yeni iş yerləri açıldı, işsizlik və yoxsulluq beş faiz səviyyəsinədək aşağı salındı.

* 116 yeni qaçqın şəhərciyi və yaşayış kompleksi salınaraq 300 mindən çox məcburi köçkünün həyat şəraiti yaxşılaşdırıldı.

* Regionlar fasiləsiz elektrik enerjisi ilə təmin olundu, ölkə üzrə qazlaşdırma qısa müddətdə 95 faizi keçdi.

* Görülən bu və digər tədbirlər nəticəsində tarixinin ən qüdrətli Azərbaycanı yaradıldı.

*Bütün bunlar üzdə olan və hamının görə bildiyi məsələlər idi.*

**İlham Əliyev bir an da olsun torpaqların qaytarılmasını və ölkənin ərazi bütövlüyünün bərpasını yaddan çıxarmırdı!**

**Aşkar və gizli formada yeni ordu quruculuğu ilə ciddi şəkildə məşğul olurdu!**

BELƏLİKLƏ:

* Yeni gənc nəsil yetişdirildi və onların iştirakı ilə müasir ordu formalaşdırıldı.

* Ən yeni texnologiyalara əsaslanan müasir silahlar alınaraq ordu təchiz edildi.

* Yeni xüsusi təyinatlılar və komando hissələri yaradıldı.

* Davamlı və sistemli şəkildə hərbi təlimlər keçirilərək orduda peşəkarlıq yüksək səviyyəyə qaldırıldı.

* Yeni taktika və strategiyanın tətbiqinə, müasir müharibənin aparılmasına nail olacaq yeni hərbçilər, hərbi mütəxəssislər dəstəsi yetişdirildi.

**Bir sözlə, Azərbaycan işğalçıya qarşı müharibəyə tam hazır oldu!**

**Hətta 2016-cı ilin dördgünlük Aprel müharibəsində yeni ordu çox böyük uğurla sınaqdan keçirildi.**

*Ermənistan isə baş verənlərdən nəticə çıxarmadı.*

*Azərbaycan yenə də sülh danışıqlarından dönmədi...*

O vaxta qədər ki, Ermənistanın yeni rəhbəri N.Paşinyan sərxoş vəziyyətdə "Qarabağ Ermənistandır və nöqtə" deyərək sülh danışıqlarının mənasızlığını açıq şəkildə göstərdi.

*Lakin İlham Əliyev bu dəfə də tələsmədi.*

Əvvəlcə Soçidə, sonra isə Münxendə keçirilən beynəlxalq tədbirlərdə Paşinyanın bu mövqeyini gündəmə gətirərək sülhdən məhz Ermənistanın qaçdığını dünya ictimaiyyətinin nəzərinə dönə-dönə çatdırdı.

**Zaman göstərdi ki, İlham Əliyev tələsməməkdə, hər dəfə hesablanmış və düşünülmüş addımlar atmaqda nə qədər haqlı imiş!**

İkinci Qarabağ müharibəsi başlayanda hərbi əməliyyatların uzanmaması üçün də mümkün olan hər şeyi etdi.

*Özü isə üç cəbhədə - hərb meydanında, diplomatiya sahəsində və informasiya müharibəsində cəsarət və qətiyyətlə döyüşərək hər üçündə qalib gəldi!*

**Zaman İlham Əliyevin artıq neçənci dəfə haqlı olduğunu, düzgün və müdrik addımlar atdığını bir daha təsdiq etdi!**

Ermənistanın və dostlarının bütün cabalarına baxmayaraq, kimsə Azərbaycanı *günahkar çıxara bilmədi!*

*Heç bir beynəlxalq təşkilat, bəzilərinin istəyinə baxmayaraq, ölkəmizə qarşı sanksiya tətbiq edə bilmədi!*

Azərbaycan müharibənin bütün qanunlarına sonadək əməl etdi!

Ermənistanın xahiş və yalvarışlarından və yalnız İlham Əliyevin bütün şərtləri təmin olunduqdan sonra müharibə dayandırıldı.

Düşmənə sülh əlini birinci uzadan isə məhz qalib Azərbaycan oldu!

❖ ❖ ❖

**Azərbaycanın özünəməxsus, fərqli, düşünülmüş siyasəti vardır.**

* Bu siyasət Heydər Əliyev siyasi kursunun prinsipləri əsasında formalaşdırılıb.

* Bu siyasət beynəlxalq hüququn norma və prinsiplərinə söykənir.

* Bu siyasət İlham Əliyevə xas qətiyyət, iradə və uzaqgörənliklə aparılır.

* Bu siyasət ən əvvəl ölkənin milli və dövləti maraqlarını ehtiva edir.

Belə düşünmək yanlış olardı ki, bu gün Azərbaycanın yeritdiyi siyasət tam fərqli və məhdud çevrədədir.

Əksinə, Azərbaycanın yeritdiyi siyasət humanist, insanpərvər, sülhsevər olmaqla bu istiqamətdə çalışan ölkələrlə uyğun şəkildə, dostluq şəraitində aparılır.

Bu gün Azərbaycan Qoşulmama Hərəkatının, TDT-nin üzvüdür.

Digər qurum və təşkilatlarla da daim əlbir və əlaqəli çalışır, daha neçə birliyə üzvlüyə hazırlaşır.

**Lakin onun üzv olduğu, yaxud olacağı təşkilatlarla əməkdaşlığının dəyişməz prinsipləri də mövcuddur.**

**Bunlar milli maraqların, hər bir dövlətin fərdi maraqlarının qorunması, beynəlxalq hüquqa əsaslanan sülhpərvər siyasətdir.**

Əməkdaşlıq zamanı Azərbaycan heç bir dövlətin maraqlarına biganəlik və saygısızlıq göstərmir!

Əksinə, bir çox məqamlarda razılaşaraq uyğun addımlar atır.

**Eyni zamanda özünün milli maraqları ilə bağlı məsələlərdə kimsəyə güzəştə getmir və heç kəs ondan belə bir addım da gözləməsin!**

*Azərbaycan dünyanın da, dövlətlərin də inkişafını yalnız sülh və əməkdaşlıqda, bir-birinin daxili işlərinə qarışmamaqda, qarşılıqlı hörmətdə görür.*

**Azərbaycan heç zaman heç kəsin torpağına göz dikməyib, kiməsə qarşı ərazi iddiası ilə çıxış etməyib!**

**Heç kəsə də öz torpaqlarının bir qarışını belə güzəştə getməyib və bunu daim açıq şəkildə bəyan edib!**

Bəli, Azərbaycan otuz ilə yaxın bir müddətdə Ermənistanı ağıla gəlməyə, torpaqları sülh yolu ilə qaytarmağa çağırdı və gözlədi.

*Lakin elə ki, yolunu azmış dövlətin bunu xoşluqla etməyəcəyini, əksinə, artıq işğal etdiyi əraziləri özününkü saydığını və bunu açıq şəkildə bəyan etdiyini gördü, o zaman silaha əl atdı!*

**Ancaq müharibəni də mərdcəsinə apardı!**

**Yalnız düşmənin hərbi obyektlərini, terrorçu qrup və hərbi birləşmələrini hədəf seçdi, dəqiq zərbələrlə ətrafa ziyan vurmadan məqsədinə çatdı!**

Ağlını itirmiş Ermənistan rəhbərliyi Azərbaycanın dinc yaşayış məntəqələrini qadağan edilmiş ballistik raket, kasetli və fosforlu bombalarla atəşə tutanda belə təmkinini itirmədi.

* Yenə humanizm göstərdi!
* Yenə müharibə qanunlarını pozmadı!
* Yenə düşmənlə düşmənin etdiyi kimi etmədi!

*Amma sonda məqsədinə çatdı!*

*Mərdliklə çatdı!*

*Kişi kimi çatdı!*

*Mülki əhalini qurbana çevirmədən çatdı!*

Ölkə ərazisini dinc şəkildə tərk etmək istəyənlərə isə təhlükəsiz yol verdi, hətta ehtiyacı olanlara yardım belə göstərdi.

❖ ❖ ❖

Bu gün müharibə yenidən Cənubi Qafqaza yaxınlaşır!

Ermənistan hələ də ərazi iddialarından əl çəkərək sülh müqaviləsini imzalamaq istəmir.

İranla İsrail açıq və dağıdıcı müharibəyə başlayıblar...

**Lakin Azərbaycan yenə sülh yolunu tutur, tərəfləri sülhə gəlməyə çağırır.**

Azərbaycan hələ də səbir edərək Ermənistanın revanşist niyyətlərdən çəkinəcəyini gözləyir, müharibə bitən ilk günlərdən indiyədək sülhə çağırışını davam etdirir.

*Bütün müharibələr sülhlə qurtarır...*

*Kimin hansı güzəştə gedib, nəyə nail olmasına baxmayaraq.*

Dünya yalnız sülh şəraitində inkişaf edir!

**Müharibə heç zaman xalqları və dövlətləri irəli aparmır, ağ günlərə çıxarmır.**

**Bu gün bir-biriləri ilə silahlarla, hədə-qorxu dili ilə danışaraq əhaliyə çətinliklər, ölüm və qaçqınçılıq yaşadanlar bu həqiqəti daha tez dərk etsələr, hər iki tərəf üçün daha yaxşı olar.**

Azərbaycanın hamıya təklif etdiyi və özünün daim sadiq qaldığı əsl və ən düzgün yol da məhz budur:

Sülh yolu!

* Azərbaycan nə bu yolundan dönəndir, nə də prinsiplərindən geri çəkilən!
* Azərbaycan nə tələsəndir, nə də gecikən!
* Azərbaycan heç vaxt düşünülməmiş addım atmır!

İndiyədək nə lazımdırsa, o da edilib!

Bundan sonra görüləcək işlər də Azərbaycanın milli maraqlarına xidmət edəcəkdir!

Bu, birmənalıdır!

**Bəxtiyar SADIQOV**

UNEC - 95

# Dəyərlərə sadiqlik, gələcəyə inamlı baxış





**Azərbaycan Dövlət İqtisad Universiteti - UNEC bu gün 95 illik tarixi ilə ölkənin təhsil, elmi-intellektual həyatında dəyərli bir səhifə olaraq dayanır. Bu şərəfli yol zəngin və maraqlı keçmiş, milli dəyərlər və daim yenilənən strateji baxışla formalaşmışdır. UNEC-in keçdiyi yol təkcə bir təhsil müəssisəsinin deyil, bütövlükdə Azərbaycanın ali təhsil sisteminin inkişaf tarixinin mühüm tərkib hissəsidir.**

Ümummilli Lider Heydər Əliyevin UNEC-ə olan xüsusi münasibəti bu universitetin inkişafında əsas dönüş nöqtələrindən olmuşdur. Onun 13 iyun 2002-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyinə həsr olunmuş təntənəli tarixi çıxışı və söylədiyi fikirlər bu gün də UNEC-in idarəetməsində əsas istiqamətverici prinsip kimi yaşamaqdadır: "Mən bu salona baxıram. Mən o illərdə də belə salonlar görmüşəm. Amma burada kimi görürəm, hamısı azərbaycanlı, hamısı bizim millət. Mən bununla fəxr edirəm. Fəxr edirəm ki, bizim milli ali təhsilimiz var. İndi bizim yetişən gənc milli kadrlarımız var. Azərbaycan elminə böyük töhfələr vermiş və xidmətlər göstərmiş qocaman professorlarımız var. Mən bununla fəxr edirəm. Bu, böyük nemətdir. Gəlin, bundan sonra bu neməti əlimizdə möhkəm saxlayaq".

Ulu Öndərin həmin çıxışında UNEC-in gələcəyi ilə bağlı verdiyi tövsiyələr universitetimizin uzunmüddətli inkişaf strategiyasıdır: "İqtisadiyyat haqqında danışdıq. Sizin vəzifələriniz haqqında danışdıq. İndi yeni-yeni əsərlər yazın və ən əsası, bizim gəncləri, gənc nəsli müasir bazar iqtisadiyyatı tələblərinə uyğun olaraq, müasir dünya maliyyə sisteminin tələblərinə uyğun olaraq təhsilləndirin.

İndi ən hörmətli ixtisas iqtisadçıdır. Çünki bünövrə iqtisadiyyatdır. İqtisadiyyatı irəliyə aparmaq üçün, dünyanın mürəkkəb maliyyə sisteminə, iqtisadi sisteminə qoşulmaq üçün bizə müasir, hazırlıqlı, xarici dilləri bilən, dünya təcrübəsini mənimsəmiş gənclər lazımdır. Bu isə sizin qarşınızda duran əsas vəzifədir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, siz bu vəzifəni şərəflə yerinə yetirəcəksiniz".

Prezident İlham Əliyevin ali təhsilə göstərdiyi diqqət və qayğısı, Birinci vitse-prezident Mehriban Əliyevanın təhsilə verdiyi önəm UNEC-in sürətli transformasiyasına zəmin yaratmışdır.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda Prezident İlham Əliyev əsas istiqamətləri müəyyən edərək qeyd etmişdir ki, sürətlə modernləşən Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına ehtiyac vardır və təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün onun idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir.

Həmin strategiyada Prezident İlham Əliyev Azərbaycan Respublikasında keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri sırasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması, təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi, təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması, müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması, iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulması, təhsil müəssisələrində nəticəyönlü və şəffaf idarəetmə modelinin, təhsilin keyfiyyətinin təminatı və idarə olunması üzrə yeni məlumat və hesabat sistemlərinin yaradılmasını, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, inklüziv təhsil və inkişafa xüsusi diqqət ayırmışdır.

UNEC-in yeni tədris korpusunun rəsmi açılışında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirak etməsi, ümumi tədris şəraiti ilə tanış olması və yeni kampusun məzmununu yüksək qiymətləndirməsi, UNEC haqqında söylədiyi əsas fikir - universitetdə yaradılan müasir, innovativ və cəlbedici təhsil mühiti sayəsində "lap yenidən tələbə olmaq istəyir" - UNEC-in brend dəyərini vurğulayır.

Yuxarıda qeyd edilmiş tapşırıq və tövsiyələr əsasında qəbul edilmiş "UNEC-100" strategiyası universitetin yüzilliyə doğru strateji hədəflərini müəyyən edən yol xəritəsi olmaqla, UNEC bu sənədlə təkcə daxili idarəetməsini deyil, beynəlxalq təhsil xidmətləri bazarında yüksəlmək üçün əsas inkişaf istiqamətlərini də müəyyən etdi.

## UNEC - yeni brend, brendləşmiş universitet

UNEC brendi, təkcə bir ali təhsil müəssisəsinin adı deyil, eyni zamanda ölkədə iqtisadi təfəkkürün formalaşmasına xidmət edən, beynəlxalq akademik məkanla inteqrasiyanı hədəfləyən və milli təhsil dəyərlərini daşıyan bir simvoldur.

UNEC-in əsası 1930-cu ildə Azərbaycan Sənaye İnstitutu kimi qoyulmuş, 1934-cü ildə isə Müstəqil Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu adını almışdır. Müxtəlif mərhələlərdən keçərək 2000-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti adını alan bu ali məktəb, 2016-cı ildən etibarən beynəlxalq tanınma məqsədilə "UNEC" brendi ilə təqdim olunmağa başlamışdır.

UNEC, həm milli kökləri qoruyaraq, həm də qlobal təhsil bazarında tanınaraq, iki sferada eyni anda mövcudluğunu təmin edir, onun beynəlxalq layihələrə, əməkdaşlıqlara və akademik mübadilələrə açıq olduğunu göstərir. UNEC brendi Azərbaycanda iqtisad sahəsində peşəkar kadr hazırlığının sinoniminə çevrilmişdir. Bu marka altında məzun olan tələbələr ölkədə və xaricdə nüfuzlu mövqelər tutur, bu isə brendin reputasiyasını gücləndirir. UNEC-in son illərdə apardığı rəqəmsal transformasiya, onlayn təhsil platformalarının tətbiqi, süni intellektlə bağlı təşəbbüsləri və "Smart University" konsepti onun brendini gələcəyin universiteti kimi təqdim edir.

UNEC-də təhsil Azərbaycan, rus, türk və ingilis dillərində aparılır. Bu, həm ölkədaxili, həm də xaricdən olan tələbələr üçün əlverişli şərait yaradır və brendin çoxmədəniyyətli obrazını möhkəmləndirir. UNEC-in sosial layihələrdə, dəyərlərin təbliğində və vətənpərvərlik istiqamətli təşəbbüslərdə fəallığı onun brendini yalnız təhsil sahəsi ilə deyil, ümumilikdə milli inkişaf və ictimai dəyərlərlə əlaqələndirir.

UNEC brendi artıq sadəcə bir ali təhsil ocağının adı deyil. Bu ad altında Azərbaycan gənclərinin iqtisadi düşüncəsi formalaşır, elm və innovasiya inteqrasiyası baş verir, milli-mənəvi dəyərlərlə müasir yanaşmalar sintez olunur. UNEC brendi həm ölkə daxilində, həm də beynəlxalq təhsil məkanında etibarlı, güclü və gələcəyə yönəlmiş bir simvoldur. Bu brend, Azərbaycanın təhsil potensialının yeni mərhələyə qədəm qoyduğunu təcəssüm etdirir.

UNEC bu gün sadəcə bir universitet adı deyil, beynəlxalq mühitə açıq, rəqəmsal cəmiyyətin çağırışlarına cavab verən dinamik, çevik və strateji düşünən bir ali təhsil qurumudur. Onun gücü - təhsildə keyfiyyət, elmdə innovasiya, ictimaiyyətdə etimad və gələcəyə yönəlik strateji baxış ilə ölçülür.

## Rəqəmsal universitet modeli

Universitetin yeni təşəbbüslərindən biri olan UNECExtern platforması distant təhsilin keyfiyyətini və əlçatanlığını yeni mərhələyə daşıyaraq zaman və məkan məhdudiyyətlərini aradan qaldırmışdır.

UNEC "EduMan - Tədrisin vahid elektron idarəetmə sistemi"ni qurmuşdur. EduMan sistemində bütün müəllim, əməkdaş və tələbələrin elektron bazası və tələbələrin fənn üzrə qrupları yaradılmış, dərs cədvəlləri, tədris planları, tədris materialları, cari və aralıq qiymətləndirmə nəticələri, apellyasiya müraciətləri, sənəd qəbulu və təqaüdlərin hesablanması kimi proseslər elektronlaşdırılmışdır.

EduMan sistemində "Test imtahanlarının təşkili modulu, qəbul prosesinin şəffaflığını və sənədlərin elektron qaydada qəbulunun avtomatlaşdırılmasını təmin edən "Əlavə təhsil elektron idarəetmə modulu", "İkinci ali təhsil elektron idarəetmə modulu", "Əcnəbilərin qəbulunun elektron idarəetmə modulu", universitetin professor-müəllim heyətinin fəaliyyətinin nəticələrinə əsaslanan differensial əməkhaqqı sisteminin tətbiqi ilə əlaqədar müəllimlərin reytinqi müəyyən edilir, habelə tələbə və tədrisin bütün parametrləri üzrə məlumat bazasını əhatə edən modullar tətbiq edilir.

Tələbə heyətinin hərəkətləri, elektron apellyasiya, ÜOMG-nin hesablanması və təqaüd, yay məktəbi, eləcə də imtahanlarla bağlı əlavə hesabatların yaradılması, sistemdən transkriptlərin əldə edilməsi, elektron imtahan sistemindən sualların tələbə şəxsi kabinetlərinə göndərilməsi, dərs vəsaitlərinin müəllimin şəxsi kabinetindən tələbələr tərəfindən oxuna bilməsi imkanı, sərbəst işlərin kabinetlər vasitəsilə təqdim edilməsi və elektron jurnalda qiymətləndirilməsi, ixtisas fənləri yazılı imtahanların keçirilməsi prosesinin elektronlaşdırılması modulu, fərdi tədris planlarının (FTP) elektronlaşdırılması kimi sistemə yeni funksional modullar əlavə edilmişdir.

EduMan sistemi içərisində təklif olunan xidmətlərdən biri də "Bir pəncərə" moduludur. Bu modul vasitəsilə tələbələr vahid mərkəzə müraciət edərək təhsil haqqında arayışları, transkriptləri, eləcə də digər sənədləri qısa müddətdə əldə edə bilirlər. "Bir pəncərə" vasitəsilə tələbələr şəxsi elektron kabinetlərindən günün 24 saatı sistemə müraciət edə bilərlər.

Distant (məsafədən) təhsilalma forması üçün vacib elementlərdən biri olan müəllim-müəllim, tələbə-müəllim, tələbə-tələbə və tələbə-inzibati heyət arasında virtual kommunikasiyanın təmin edilməsi məqsədilə EduMan sistemində "Kommunikasiya modulu" istifadəyə verilmişdir.

Beyond Labz, Parxi Las (İngiltərə), VRLab Academy (Almaniya), Phet, The OpenScience Laboratory, Ilab, NOVA Labs, Labster, Labbuddy, Labxchange kimi şirkətlərlə əməkdaşlıq əsasından UNEC-də texniki və texnoloji ixtisaslar üzrə yeni tədris standartları əsasında virtual laboratoriya bazası yaradılmışdır. Bununla yanaşı, fizikanın bütün bölmələri üzrə virtual laboratoriyalar alınmışdır.

Zoom platforması EduMan platforması ilə inteqrasiya edilmiş, dərslər üçün onlayn qoşulmanın təmin edilməsi zamanı auditoriya və zoom hesabının əlaqələndirilməsi, onlayn və hibrid dərslər zamanı tələbələrin dərslərdə iştirak qeydiyyatının avtomatik olaraq elektron jurnallarda əks olunması təmin edilmişdir. Video dərslərin avtomatik olaraq tələbə kabinetlərinə göndərilməsi imkanı da inteqrasiya edilmişdir. UNEC-də ilk rəqəmsal dərslik hazırlanmışdır.

İxtisas fənləri üzrə imtahanlar "elektron yazılı imtahan modulundan" istifadə etməklə birbaşa elektron sistem üzərindən aparılır. Tələbələr imtahan səhifəsinə daxil olaraq yüklənmiş suallar əsasında sistem tərəfindən şərtlərə uyğun avtomatik formalaşmış imtahan bileti ilə tanış olaraq, hər bir imtahan sualına birbaşa kompüter vasitəsilə sistemdə cavab yaza, zərurət yarandığı halda isə sualın cavabını kağıza qeyd edərək masada quraşdırılmış xüsusi scan aparatı vasitəsilə scan edərək sistemə əlavə edə bilir. İstifadəyə verilmiş modul kağız əsaslı xidmətin elektronlaşdırılmasını və cavabların qiymətləndirilməsi zamanı obyektivliyin artırılmasını təmin edir.

Tələbələrin fərdi tədris planlarının tərtib edilməsinin avtomatlaşdırılması məqsədilə Fərdi Tədris Planı (FTP), Tədris Yükü və Yay Semestri modulları istifadəyə verilmişdir.

Modulun hazırlanmasında əsas məqsəd tələbənin təhsil aldığı ixtisasın tədris planına uyğun olaraq fənn seçimi etməsi, Fərdi Tədris Planını (FTP) tərtib etməsi və bu plan əsasında tədris yükünün sistem tərəfindən avtomatik formalaşdırılmasının təmin olunmasıdır:

* Tələbələrin tədris ili ərzində təhsil almaq istədikləri fənlərin elektron qaydada seçilməsi;
* Yay semestrində təhsil almaq istədikləri fənlərin qeydiyyatı;
* Tədris yükünün avtomatik formalaşdırılması;
* Təkrar imtahan sessiyasında iştirak üçün fənlərin seçimi;
* Seçilmiş fənlər əsasında maliyyə öhdəliklərinin və müqavilələrin avtomatlaşdırılmış şəkildə hazırlanması.

## Tələbə mərkəzli təhsilə keçid

Tədrisin daha müasir və keyfiyyətli təşkil edilməsi üzrə beynəlxalq təcrübədə daha çox istifadə edilən üsullardan olan "Çevrilmiş tədris" (Flipped learning) metodu UNEC-də tətbiq edilir. Ənənəvi tədris modelindən fərqli olaraq, müəllimin dərs vaxtı təqdim etdiyi nəzəri biliklərin tələbələrə öncədən video və digər rəqəmsal materiallar vasitəsilə təqdim olunması, dərs zamanı isə əsasən praktik müzakirə, qrup işi və tətbiqi tapşırıqlara fokuslanma prinsipi əsasında qurulmuş innovativ tədris metodudur. UNEC-də bu metodun tətbiqi tədrisin keyfiyyətinin yüksəldilməsi və tələbələrin fərdi öyrənmə tempinə uyğun inkişafı üçün mühüm addımdır.

Bu yanaşmanın UNEC-də mərhələli tətbiqi, həm tələbələrin, həm də müəllimlərin təhsil prosesinə daha fəal cəlb olunmasına şərait yaradır, tədris zamanı kommunikasiya və əməkdaşlığı gücləndirir, həmçinin tələbələrin kritik düşünmə və problem həll etmə bacarıqlarını inkişaf etdirir.

Layihə Əsaslı Təhsil (Project-Based Learning - PBL) metodu da UNEC-də reallaşdırılan yeni yanaşmalardandır. PBL - tələbələrin real həyatdan götürülmüş problemlər üzərində qrup şəklində işləyərək, müstəqil tədqiqat aparması və praktiki biliklər əldə etməsi prinsipi üzərində qurulan tədris metodudur. Bu metod ənənəvi mühazirə yanaşmasından fərqli olaraq, tələbələrə fənn üzrə nəzəriyyəni praktik vəziyyətlərdə tətbiq etmə imkanı verir, eyni zamanda komanda işini, kritik düşünmə bacarıqlarını və məsuliyyət hissini inkişaf etdirir.

UNEC-də PBL metodunun tətbiqi təhsilin keyfiyyətinin artırılması və tələbələrin praktiki bacarıqlarının gücləndirilməsi istiqamətində atılmış mühüm addımdır. PBL eləcə də, tələbələrin tədqiqatçılıq bacarıqlarının inkişafına, tədris prosesində aktiv iştiraklarına və əmək bazarının tələblərinə uyğun peşəkar biliklərin formalaşmasına xidmət edir.

## Elmi fəaliyyətin təşkilinə yeni baxış

UNEC-də AVESİS elmi informasiya idarəetmə sistemi tətbiq edilir. AVESİS (Academic Activity Management System)- akademik fəaliyyətlərin elektron idarə olunması üçün nəzərdə tutulmuş vahid sistemdir. Sistem əsasən, akademik heyətin fərdi profillərinin formalaşdırılması, elmi nəşrlərin inteqrasiyası, süni intellekt alətlərindən istifadənin təşviqi, elmi fəaliyyətin rəqəmsal əsasda stimullaşdırılması və maliyyələşdirilməsi, struktur bölmələr üzrə elmi potensialın təhlili, nüfuzlu platformalarla avtomatik məlumat inteqrasiyası və tədqiqatçılararası əməkdaşlığın genişləndirilməsi məqsədlərinə xidmət edir. Həmçinin burada hesabatlılıq baxımından elmi nəşrlər, layihələr, istinadlar, patentlər, mükafatlar, elmi fəaliyyətlər, tezislər və işçilər müxtəlif kateqoriyalar baxımından təhlil olunur. Bu platforma vasitəsilə universitet əməkdaşlarının elmi, tədris, layihə və inzibati fəaliyyətləri sistemli şəkildə qeyd olunur və mərkəzləşdirilmiş şəkildə arxivləşdirilir.

AVESİS sisteminin əsas məqsədi universitet müəllim və tədqiqatçılarının elmi-pedaqoji fəaliyyətlərini şəffaf və strukturlaşdırılmış formada sənədləşdirmək, illik qiymətləndirmə və hesabatların avtomatlaşdırılmasını təmin etməkdir.

Sistemin tətbiqi aşağıdakı üstünlükləri təqdim edir:

* Elmi məqalələr, layihələr, konfrans çıxışları və tədris fəaliyyəti barədə məlumatların vahid bazada saxlanılması;
* Fəaliyyətə dair statistik hesabatların və akademik portfolionun avtomatik hazırlanması;
* Keyfiyyət təminatı, akkreditasiya və beynəlxalq əməkdaşlıq proseslərində şəffaflıq və izləniləbilənlik;
* Hər bir əməkdaş üçün açıq və yenilənəbilən akademik profilin yaradılması.

Belə bir sistemin universitetimizdə tətbiqi akademik idarəetmənin təkmilləşdirilməsi, şəffaflığın artırılması və beynəlxalq standartlara uyğun fəaliyyətin təmin olunması baxımından məqsədəuyğundur.

Süni intellektin imkanlarından istifadə etməklə elmi fəaliyyətin məhsuldarlığını, sürətini və keyfiyyətini artırmaq, UNEC-də innovativ, rəqəmsal və proqnoz əsaslı elmi mühit formalaşdırmaq istiqamətində işlər davam etdirilir.

Elmi tədqiqatların effektivliyini və keyfiyyətini süni intellekt texnologiyaları vasitəsilə artırmaq, UNEC-də rəqəmsal elmi ekosistem qurmaq, UNEC-i 2030-cu ilədək regionda süni intellekt əsaslı elmi idarəetmənin və innovativ tədqiqat mühitinin lider mərkəzinə çevirmək əsas hədəflərimizdəndir.

Hazırda UNEC-də aşağıdakı elmi jurnallar fəaliyyət göstərir: "The Journal of Economic Sciences: Theory and Practice", "UNEC Journal of Engineering and Applied Sciences", "UNEC Tələbə Tədqiqatları jurnalı", "Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri", "UNEC EKSPERT".

UNEC-in ingilis dilində nəşr olunan yeni "UNEC Journal of Engineering and Applied Sciences" (UNEC JEAS) elmi jurnalı Scopus elmi bazasında indeksləşdirilmişdir.

Bundan əlavə, UNEC-in elmi nəşr sahəsində fəaliyyətini genişləndirmək məqsədilə bu gün 3 yeni jurnalın ilk nömrələri tədqiqatçılara təqdim edilmişdir: UNEC Journal of Economics and Management Advances, UNEC Journal of Computer Science and Digital Technologies, Dizaynın Aktual Problemləri.

Hazırda universitetdə 48 Tədqiqat Mərkəzi fəaliyyət göstərməkdədir. Həmin mərkəzlərdə 267 nəfər çalışır ki, onlar sırasında 35 ölkədən - Türkiyə, İtaliya, İsrail, Niderland, Qırğızıstan, Almaniya, Banqladeş, Syerra-Leone, Çin, Rusiya, Böyük Britaniya, Avstriya, Polşa, Macarıstan, Fransa, ABŞ, Tayvan, Mərakeş, İrlandiya, İspaniya, Hindistan və digər ölkələrdən olan 131 xarici tədqiqatçı yer almaqdadır.

Bu gün UNEC-in uğurlu işlərindən biri də Kitabxana İnformasiya Mərkəzinin fəaliyyətidir. EBSCO, Emerald; Scopus, Sciencedirect, Web of Science Core Collection bazalarına abunə olunmuşdur. Bu ildən etibarən InCites platforması, Web of Science Research Assistant süni intellekt aləti, ProQuest Dissertations & Theses Global (PQDT) bazalarına abunə olmuşdur. UNEC-də, ümumiyyətlə, 5 milyona yaxın elektron resursa giriş imkanı mövcuddur.

## Rəqabətin stimullaşdırılması və bacarıqların formalaşması

Universitet daxilində rəqabətin stimullaşdırılması məqsədilə daxili reytinq sistemləri tətbiq olunur ki, bu da müəllim və kafedralar arasında akademik nailiyyətləri təşviq edir.

Məzunların peşəkar bacarıqlarının daha geniş və sistemli şəkildə qiymətləndirilməsi məqsədilə Non Akademik Transkript layihəsi icra edilir.

Bu layihə çərçivəsində tələbələr yalnız akademik biliklərə deyil, həmçinin liderlik, komandada işləmək, kommunikasiya və digər sosial bacarıqlara dair ölçmə prosesindən keçirlər. Layihənin əsas məqsədi məzunların iş həyatına daha asan adaptasiyasını təmin etmək və onların şəxsi və peşəkar inkişafını dəstəkləyəcək uyğun non akademik bacarıqlarını sistemli şəkildə sənədləşdirməkdir.

İnnovativ Biznes İnkubatoru UNEC-in sahibkarlıq yönümlü təhsil strategiyasının mühüm elementinə çevrilmişdir.

UNEC tələbələri ingilis dilini mənimsəyir. İngilis dilinin tədrisində aparılan yeniliklər, UNEC tələbələrinin minimum orta səviyyədə ingilis dilini mənimsəməsinə yönəlmişdir.

## Təhsilin inklüzivliyi

UNEC-də inklüziv təhsilin təşviqi və əlilliyi olan tələbələrin təhsil hüquqlarının təmin olunması məqsədilə İnklüziv Təhsil Mərkəzi fəaliyyət göstərir.

2016-cı ildə UNEC-də 26 nəfər əlilliyi olan tələbə təhsil alırdısa, 2024-cü ildə artaraq 76 nəfər əlilliyi olan və ümumi 240-dan çox həssas kateqoriyadan olanlar təhsil alırlar.

UNEC inklüziv təhsilin inkişafı istiqamətində rəqəmsal mühitin əlçatanlığını artırmaq üçün mühüm addımlar atmışdır. Görmə və eşitmə məhdudiyyətli tələbələrin tədris prosesinə daha fəal inteqrasiyası üçün bir sıra xüsusi texnologiyalar tətbiq olunmuşdur. Bunlara Braille printerləri, ekran oxuyucu proqram təminatları və digər köməkçi vasitələr daxildir. Eyni zamanda UNEC kitabxana resursları görmə məhdudiyyətli tələbələrin ehtiyaclarına uyğunlaşdırılmış və "Audio-kitab" layihəsi çərçivəsində bir neçə fənnin mühazirələri audio formatda hazırlanaraq təqdim edilmişdir.

Son 10 il ərzində UNEC-də 300-dən artıq müəllim və inzibati heyət üzvü inklüziv tədris və fərdi yanaşma üzrə təşkil olunmuş təlimlərdə iştirak etmişdir.

UNEC İnklüziv Təhsil Mərkəzinin dəstəyi ilə son 10 il ərzində 200-dən artıq əlilliyi olan tələbə ali təhsilini uğurla başa vurmuşdur.

## UNEC-in beynəlmiləlləşməsi

UNEC-in beynəlmiləlləşmə siyasətinin tərkib hissəsi olan ikili diplom proqramları bu gün artıq bir çox xarici universitetlərlə uğurla həyata keçirilir. Bu proqramlar vasitəsilə UNEC tələbəsi paralel olaraq həm UNEC, həm də xarici universitetin diplomunu əldə edir. Əcnəbi tələbələrin sayının artması və tələbə-müəllim mübadilə proqramlarının genişlənməsi universitetin beynəlxalq arenada tanınmasına əhəmiyyətli töhfə verir.

95 illik tarixi ərzində UNEC yalnız iqtisadçı yetişdirməklə kifayətlənməmiş, həm də milli dəyərləri, elmi təfəkkürü və sosial məsuliyyət hissini bir araya gətirən bir universitet modelini formalaşdırmışdır. Bugünkü uğurlarımız keçmişin irsindən, bu günün səylərindən və sabaha olan inamdan doğur.

UNEC artıq 95 ildir ki, Azərbaycanın iqtisadi, intellektual və elmi həyatına töhfə verir. Qarşımızda daha böyük hədəflər var. Yüzilliyə doğru inamla irəliləyirik. Bu inamımızın əsasında dayanan əsas amil isə dəyişməz UNEC dəyərləridir.

UNEC bundan sonra da dəyərlərinə sadiqliyini qoruyub saxlayacaq və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Dövlət İqtisad Universiteti dünya səviyyəli universitetə çevrilməlidir" tapşırığının icrasını təmin etmək üçün bütün gücünü səfərbər edəcək.

*Ədalət MURADOV,*
*UNEC-in rektoru*

# Yerli şirkətlərin 6-cı tanıtım sərgisinin açılışı olub

**"Son dövrlər əmək qanunvericiliyinə edilmiş dəyişikliklər sahibkarlığın inkişafına xidmət etməklə yanaşı, işəgötürənlərə münasibətdə daha humanist yanaşmaları özündə əks etdirir".**







Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və "Marsol Group"un birgə təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçirilən 6-cı "Yerli şirkətlərin tanıtım sərgisi"nin açılışı zamanı çıxışında bildirib. Qeyd edib ki, əmək qanunvericiliyinin pozulmasına görə inzibati cərimənin şərti tətbiq edilməsinin dairəsi genişləndirilərək belə maddələrin sayı 10-a çatdırılıb. "Həmin maddələr üzrə pozuntulara yol verən işəgötürənlərə onların aradan qaldırılması üçün vaxt verilir, işçilərin əmək hüquqları bərpa edildikdə işəgötürən cərimə ödəməkdən azad olunur. Bu həm də işçilərin hüquqları ilə bağlı işəgötürənlərin öhdəliklərini yerinə yetirməsinə əlavə stimul yaradır".

Nazir əlavə olaraq bəzi inzibati cərimələrin də şərti tətbiqi məqsədilə qanunvericiliyə yeni dəyişiklik layihəsinin hazırlanmaqda olduğunu bildirib. Anar Əliyev bu ilin əvvəlindən icra olunan növbəti - 2018-ci ildən 5-ci sosial islahat paketi üzrə 3 milyon insanı əhatə edən əməkhaqqı, pensiya, müavinət və təqaüdlərdə artımlar edildiyini, bu artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrıldığını deyib. Nazir həmçinin Vətən müharibəsindən sonra sosial dəstək paketi üzrə şəhid ailələrinin üzvləri, müharibə ilə əlaqədar əlilliyi olanlar, müharibə veteranlarından ibarət 131 minədək şəxsə 388 min sosial xidmət göstərildiyini, sosial ödənişlərin orta hesabla 2 dəfə artırıldığını qeyd edib. Son illərdə 2 milyondan çox şəxsin aktiv məşğulluq tədbirləri ilə əhatə olunduğunu, o cümlədən 750 mindən çox şəxsin münasib işlə təmin edildiyini, 103 mindən çox şəxsin özünüməşğulluq proqramına, 45,6 min şəxsin peşə hazırlığına cəlb olunduğunu bildirib.

"Əmək və Məşğulluq" (ƏMAS) altsistemi üzərindən artıq təxminən 1,6 milyondan artıq əmək müqaviləsinin e-qaydada bağlandığını, bunun da mövcud əmək müqavilələrinin 87 faizini təşkil etdiyini diqqətə çatdıran A.Əliyev qeyd edib ki, ölkə üzrə bütün vakansiyaların ƏMAS-da vahid platformada cəmlənməsi işsiz və işaxtaranların məşğulluq imkanlarını genişləndirməyə və əmək bazarında dinamikliyə müsbət təsir göstərir.

"DOST Müfəttiş" layihəsinin işəgötürənlər üçün önəmindən bəhs edən nazir bildirib ki, layihədə könüllü iştirak üçün müraciət edən işəgötürənlərdə əməyin mühafizəsi və elektron altsistemlərdən istifadə, əmək qanunvericiliyinin tətbiqi və insan resurslarının idarə edilməsi üzrə ekspertlər tərəfindən diaqnostik qiymətləndirmələr aparılır: "Qiymətləndirmələr nəticəsində mövcud boşluqlar aşkar edildikdə onların həlli üçün tövsiyələr verilir və müvafiq təlimlər təşkil olunur. Bu zaman aşkar olunan pozuntularla bağlı hər hansı bir məsuliyyət tədbiri də tətbiq edilmir".

Qeyd edək ki, "Kapital Bank"ın rəsmi tərəfdaşlığı ilə keçiriləcək sərginin builki tərəfdaşları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi, Azərbaycan Dövlət Reklam Agentliyi və İş Adamları Cəmiyyətinin Milli Assosiasiyasıdır. 300-ə yaxın yerli şirkətin məhsul və xidmətlərinin nümayiş olunduğu sərgidə Dövlət Məşğulluq Agentliyi ayrıca stend ilə təmsil edilir. Sərgidə həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarlarının əl işləri təqdim olunur.

Dövlət rəsmiləri, sahibkarlar və ictimaiyyət nümayəndələrinin qatıldığı tədbirin iştirakçıları yerli şirkətlərin sərgidə nümayiş etdirilən məhsul və xidmətləri ilə tanış olublar.

***"Azərbaycan"***

# Azərbaycanın sədrliyi dövründə Macarıstan Ticarət və Sənaye Palatası TCCI-ya tamhüquqlu üzv oldu

**İyunun 15-i və 16-da Macarıstanın paytaxtı Budapeşt şəhərində Türk Ticarət və Sənaye Palataları Birliyinin (TCCI) İdarə Heyətinin növbədənkənar iclası keçirilib. Təqdirəlayiq haldır ki, Türk Ticarət və Sənaye Palataları Birliyinə sədrliyin Azərbaycana keçdiyi 2025-ci ildə Macarıstanın bu təşkilata tamhüquqlu üzv qəbul edilməsi məsələsinə baxılıb.**



İyunun 16-da keçirilən İdarə Heyətinin növbədənkənar iclasında Macarıstan Xarici İşlər və Ticarət Nazirliyinin dövlət katibinin müavini Katalin Bihari, Türk İnvestisiya Fondunun prezidenti Bağdad Amreyev, fondun icraçı direktoru Ramil Babayev, Türk Ticarət və Sənaye Palataları Birliyinin fəxri prezidenti, Türkiyə Palatalar və Birjalar Birliyinin prezidenti Rifat Hisarcıklıoğlu, Türk Ticarət və Sənaye Palataları Birliyinin və Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev, Macarıstan Ticarət və Sənaye Palatasının prezidenti Elek Nagi, Qırğız Respublikası Ticarət və Sənaye Palatasının prezidenti Temir Sarıyev, Özbəkistan Ticarət və Sənaye Palatasının sədri Davron Vaxabov, Türkmənistan Ticarət və Sənaye Palatasının sədri Mergen Qurdov, Qazaxıstanın "Atameken" Milli Ticarət Palatası sədrinin məsləhətçisi Kanat Akın, Türk Dövlətləri Təşkilatının Macarıstandakı Nümayəndəliyinin İcraçı direktoru Balaj Hendrix iştirak ediblər.

Macarıstan Xarici İşlər və Ticarət Nazirliyinin dövlət katibinin müavini Katalin Bihari türk dövlətləri üçün imkanlara və çağırışlara diqqət çəkərək Macarıstanı türk dövlətləri üçün Avropaya açılan qapı kimi qiymətləndirib. O, ticarət sahəsində əməkdaşlıq potensialını, birgə iqtisadi komissiyalarda kənd təsərrüfatı və logistika da daxil olmaqla müxtəlif sektorlar üzrə əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb. Eyni zamanda Türk İnvestisiya Fonduna (TIF) qoşulmaq səylərinin Macarıstanın iqtisadi əlaqələrin genişləndirilməsinə sadiqliyini nümayiş etdirdiyini bildirib.

Daha sonra çıxış edən Türk Ticarət və Sənaye Palataları Birliyinin fəxri prezidenti, Türkiyə Palatalar və Birjalar Birliyinin prezidenti Rifat Hisarcıklıoğlu iştirakçıları Dünya Palatalar Federasiyası və türk iş adamları adından salamlayaraq, üzv palataları ticarət müharibələri, iqlim böhranları kimi qlobal çağırışların öhdəsindən gəlmək üçün birliyi gücləndirməyə və süni intellekt, logistika və enerji sahələrində imkanlardan istifadə etməyə çağırıb.

Türk Ticarət və Sənaye Palataları Birliyinin və Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev qədim macar türk torpaqlarında keçirilən bu tədbirin də əməkdaşlıqda yeni imkanlar açmağa, gücləri birləşdirməyə və uğurlara nail olmağa yeni bir töhfə verəcəyinə inandığını söyləyib.



O bildirib ki, 2024-cü ilin yekunlarına görə Türk Dövlətlər Təşkilatının üzv dövlətlərində ÜDM-in həcmi 2 trilyon 112 milyard, ticarət dövriyyəsi 1 trilyon 174 milyard dollar təşkil edir. Ümumilikdə dünya ərazisinin 1 faizi, əhalisinin 3 faizə qədəri, qlobal ticarət dövriyyəsinin 3,5 faizi üzv ölkələrin payına düşür. Türk dünyasında qeydə alınan iqtisadi artım, xüsusilə qeyri-neft sektoru və ticarət sahələrindəki inkişafla daha da güclənib. Bu artım rəqəmləri təkcə türk dövlətlərinin iqtisadiyyatların dayanıqlığını deyil, həm də onların qlobal iqtisadi sistemə artan inteqrasiyasını göstərir.

Macarıstan Ticarət və Sənaye Palatasının prezidenti Elek Nagi, Türk Ticarət və Sənaye Palataları Birliyi üzvlərinin təkcə tərəfdaşlar kimi deyil, ortaq ambisiyaların və dinamik, gələcəyə baxışların birləşdiyi bir ailə kimi bir araya gəldiyini vurğulayıb. E.Nagi görüşün biznesyönümlü əməkdaşlığın qurulması, kiçik və orta biznesin dəstəklənməsi, peşə təhsilinin inkişafı və üzv ölkələrin şirkətlərini stimullaşdırmaq üçün kapital proqramlarının işə salınması, eyni zamanda bilik mübadiləsi, qarşılıqlı etimad və sarsılmaz qardaşlıq bağı vasitəsilə əlaqələri gücləndirmək istiqamətində önəmindən danışıb.

Türk İnvestisiya Fondunun prezidenti Bağdad Amreyev Macarıstan Palatasının tərəfdaşlıqların qurulmasında fəal iştirak etməsindən şad olduğunu, bu il fond və TCCI arasında Anlaşma Memorandumunun imzalandığını vurğulayıb. O, memorandumun Türk İnvestisiya Fonduna türk ölkələrindəki müəssisələrin real ehtiyaclarına daha yaxın olmağa kömək edəcəyini, Türk İnvestisiya Fondunun əsas işinin dəyər yaradan layihələri maliyyələşdirmək olduğunu qeyd edib. B.Amreyev Macarıstanın türk dünyası ilə Avropa arasında mühüm körpü rolu oynadığını bildirib.

ASK Rəyasət Heyətinin üzvü, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Səkinə Babayeva türk dünyasında qadın sahibkarları birləşdirmək, gücləndirmək səylərindən bəhs edərək, əməkdaşlığın gücləndirilməsi üçün öz təkliflərini irəli sürüb. Dinamik platforma - bilik və imkanları bölüşmək üçün hibrid forumlar, illik sammitlər və rəqəmsal şəbəkələrin, məqsədli əməkdaşlıqlar - moda, kənd təsərrüfatı, turizm, texnologiya və sənətkarlıq (e-ticarət) sahələrində birgə müəssisələrin yaradılması, ideyaları fəaliyyətə çevirmək üçün inkubatorlar, hakatonlar və təlim proqramlarının təşkili, hər üzv dövlətdə koordinatorun seçilməsi ilə şəbəkənin yaradılması ideyalarını səsləndirib.

Sonda üzv palataların yekdilliklə səs verməsi ilə Macarıstan Ticarət və Sənaye Palatası Türk Ticarət və Sənaye Palataları Birliyinə tamhüquqlu üzv qəbul edilib.

Qeyd edək ki, Azərbaycan nümayəndə heyəti Budapeştə rəsmi səfər çərçivəsində macar folklorunun mühüm simvolu olan möcüzəli maral heykəlinin açılışında iştirak edib. Macarıstan Mərkəzi Bankının rəhbəri Mixali Varqa konfederasiya prezidenti Məmməd Musayev ilə görüşərək, Asiyadan gələn macarların Karpat hövzəsinin fəthi zamanı bu simvolu özləri ilə gətirdiklərini qeyd edib, möcüzəli maralı Asiya ilə Avropa arasında ölkənin mədəni irsinin və kimliyinin bir hissəsi olan "körpü" adlandırıb.

Heykəlin açılışında çıxış edən Türk Ticarət və Sənaye Palataları Birliyinin və Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev türk dövlətlərini artıq yalnız tarixi bağların deyil, həm də iqtisadi və ticarət əlaqələrinin sıx birləşdirdiyini qeyd edib.

Bu səfərdə Azərbaycan nümayəndə heyətinin tərkibində həmçinin ASK Baş katibi Ziya Hacılı, ASK prezidentinin Baş məsləhətçisi Adil Qurbanov, ASK İdarə Heyətinin üzvü, "Fəxrəddin-K" MMC-nin icraçı direktoru Fəxrəddin Baxışov, ASK Rəyasət Heyətinin üzvü, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Səkinə Babayeva, ASK Beynəlxalq əlaqələr və dayanıqlı inkişaf şöbəsinin müdiri Afət Məmmədova, "Scandens Pharmaceutical Industries" MMC-nin Kommersiya direktoru Aygün Musayeva, şirkətin PR mütəxəssisi Xeyransa Əhmədova təmsil olunublar.

***Nərminə ƏSGƏROVA, "Azərbaycan"***

# Medianın İnkişafı Agentliyi rusiyalı televiziya aparıcısı Vladimir Solovyovun qərəzli fikirləri ilə bağlı açıqlama yayıb

**Televiziya aparıcısı Vladimir Solovyov Rusiyanın dövlət televiziya kanalı "Rossiya 1"də yayımlanan müəllif proqramında özünəməxsus qərəz və isterik davranışla Azərbaycana qarşı növbəti dəfə hörmətsizlik nümayiş etdirmişdir.**

Ermənistanda hüquq-mühafizə orqanları tərəfindən saxlanılan yaxın dostu, erməniəsilli rusiyalı iş adamı Samvel Karapetyanın müdafiəsinə qalxan aparıcı bir neçə dəfə "Artsax" ifadəsini işlətmiş, Ermənistan hakimiyyətini "Artsaxı hədiyyə etməkdə" günahlandırmış, canlı yayımda birbaşa erməni xalqına müraciət edərək onu da gələcəkdə "Artsaxın taleyi gözlədiyini" demişdir.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Medianın İnkişafı Agentliyinin açıqlamasında yer alıb.

Açıqlamada həmçinin qeyd olunub: "Real tarixi faktları təhrif edən, yaxın keçmişdə baş vermiş proseslərə qərəzlə yanaşan Vladimir Solovyov hər zaman Azərbaycana kin və nifrət bəsləmiş, bu münasibət onun çıxışlarında açıq şəkildə özünü büruzə vermişdir. V.Solovyovun Ermənistan-Azərbaycan münaqişəsi, 44 günlük Vətən müharibəsi, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi ilə bağlı müxtəlif vaxtlarda etdiyi çıxışlar həmişə qeyri-obyektiv olmuş, ziddiyyətli mahiyyət daşımış və Azərbaycanda adekvat reaksiyalara səbəb olmuşdur.

Rusiyanın dövlət televiziya kanalının efirində belə destruktiv iddiaların yer alması narahatlıq doğurur, xalqımıza qarşı qəbuledilməz hesab edilir, ölkələrimiz arasında dostluq münasibətlərinin ruhuna və məsələ ilə əlaqədar Rusiyanın rəsmi mövqeyinə tamamilə ziddir.

Jurnalist etikası və əxlaqi dəyərlərlə bir araya sığmayan bu nifrət nitqini yolverilməz hesab edir, qəti şəkildə pisləyir və qarşı tərəfin üzrxahlıq etməsini gözləyirik".

# Kəngərliyə qayıdış davam edir

## ◆ Böyük qayıdış

**Dünən Böyük qayıdış proqramı çərçivəsində Ağdam rayonunun Kəngərli kəndinə daha 40 ailə - 154 nəfər köçürülüb. Bununla da kənd sakinlərinin sayı 847 nəfərə çatıb. Təməli 2022-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulan Kəngərli sakinlərinə qovuşan sayca 14-cü yaşayış məntəqəsi, Ağdam rayonunun isə ikinci kəndidir.**

İllərdir yurd həsrəti çəkən kəngərlilər bu günü bayram ab-havası ilə yaşayırlar. Bu insanlar bir gün yenidən dədə-baba torpaqlarına ayaq basmaq, uşaqlıq xatirələrini canlandırmaq arzusu ilə yaşayıblar. İndi artıq istəkləri gerçəkliyə çevrilib.

Əzəli torpaqlarına 32 ildən sonra qovuşan keçmiş məcburi köçkün İsmayıl Bağırov deyib ki, yenidən Kəngərliyə, doğma yurduna qayıtmaq yaşadığı ən böyük həsrətin bitməsi deməkdir: "Bu torpağa olan ümidim heç vaxt itməyib. Kəndi tərk edən son sakinlərdən biri idim. Ayrıldığım gün hələ də gözümün önündədir. Ancaq sənədlərimizi götürə bilmişdik. Hər şeyimizi, xəyallarımızı, arzularımızı, gəncliyimizi, mal-mülkümüzü qoyub çıxdıq o torpaqlarda. Amma həmişə inanmışıq ki, 30 yaşında çıxmalı olduğum kəndə bir gün geri dönəcəyik. Çox şükür, bu günləri görmək bizə nəsib oldu. Bizim torpaqlara qayıdışımız toy-bayramdır. O qədər sevincliyəm ki, qəhər məni boğur. Ali Baş Komandanımıza, ordumuza, şəhidlərimizə və qazilərimizə sonsuz təşəkkür edirəm. Bu günə bizi onlar yetirdi. Allah şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı versin".

Kəngərliyə qayıdanlar arasında yalnız uşaqlığı, gəncliyi bu torpaqlarda keçənlər deyil, həm də doğma yurd yerlərini ilk dəfə görənlər də var. 13 yaşlı Zeynəb Abbasova deyib ki, hər zaman nənəsi və babası ilə kənd haqqında danışıb, uşaqlıqdan bu yerləri görmək istəyib: "Onlar Ağdamı elə təsvir edirdilər ki, sanki bir nağıl aləmidir. Mən orada olmamışdım. Görmədiyim üçün çox üzülürdüm. İndi isə arzuma çatmışam. Doğma yurda qovuşmaq unudulmaz hissdir. Kəngərlidə yaşayıb, burada təhsil alacağam, yeni dostlarım, müəllimlərim olacaq. Gələcəkdə Ağdamda həkim olmaq istəyirəm".





Kəngərli kəndində sakinlərin rahatlığının təmin edilməsi üçün hər cür şərait yaradılıb, iqtisadi, təhsil, sosial, mədəni və məişət təyinatlı müxtəlif obyektlər tikilib, yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub, sakinlərin işlə təmini üçün müvafiq addımlar atılıb. Açılışı mayın 10-da gerçəkləşən Kəngərliyə birinci mərhələdə 1279 nəfərin köçürülməsi planlaşdırılır. Ümumilikdə isə kənd 2544 nəfər üçün nəzərdə tutulub. Əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 72,5 hektar torpaq sahəsi ayrılıb. Layihələndirilən ümumi ərazi 177 hektardan çoxdur.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı layihələr insanların təhlükəsiz və dayanıqlı şəkildə yurdlarına qayıtmasını təmin edir. Bu günədək artıq 15 yaşayış məntəqəsində keçmiş məcburi köçkünlərin daimi məskunlaşması reallaşdırılıb, 14997 nəfər (3761 ailə) əzəli torpağına qovuşub. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 571 ailə (2091 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 376 ailə (1409 nəfər) Şuşa şəhərində, 86 ailə (346 nəfər) Xocalı şəhərində, 512 ailə (2293 nəfər) Cəbrayıl şəhərində, 180 ailə (840 nəfər) Xocalı rayonunun Ballıca kəndində, 90 ailə (306 nəfər) Ağdərə rayonunun Həsənriz kəndində, 180 ailə (592 nəfər) Ağdərə rayonunun Suqovuşan kəndində, 186 ailə (775 nəfər) Ağdam rayonunun Sarıcalı kəndində, 197 ailə (847 nəfər) Ağdam rayonunun Kəngərli kəndində, 89 ailə (363 nəfər) Laçın rayonunun Bəylik kəndində məskunlaşıb. Qarabağ və Şərqi Zəngəzurda keçmiş məcburi köçkünlərdən əlavə, bu bölgədə aparılan layihələrin icrasında çalışan, ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə 43 mindən çox insan yaşayır.

Qarabağa və Şərqi Zəngəzura qayıdan həyat, Azərbaycan xalqının əzmini, doğma yurda olan sonsuz sevgisini əks etdirir. Bu torpaqlarda inşa edilən hər bir bina, çəkilən hər bir yol Azərbaycanın gələcək inkişafı üçün mühüm zəmin yaradır.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Kahramanmaraşda qardaşlıq abidəsi: Azərbaycan-Türkiyə həmrəyliyinin daha bir rəmzi

**Azərbaycan və Türkiyə əsrlər boyu ortaq tarix, mədəniyyət, dil və dini dəyərlər əsasında formalaşmış möhkəm qardaşlıq telləri ilə bir-birinə bağlı olan iki dost və qardaş ölkədir. "Bir millət, iki dövlət" prinsipi bu münasibətlərin təməlini təşkil edərək, təkcə regionda deyil, bütün dünyada dövlətlərarası əməkdaşlığın, səmimi tərəfdaşlığın və qarşılıqlı dəstəyin bariz nümunəsinə çevrilib. Hər iki xalq ortaq soy-kökə, bənzər adət-ənənələrə və milli-mənəvi irsə malik olmaqla yanaşı, zamanın sınaqlarından çıxaraq dostluq və qardaşlıq münasibətlərini bu gün də eyni sədaqətlə yaşatmaqda davam edir.**




Bu səmimi, qırılmaz əlaqələr iki ölkənin siyasi, iqtisadi, hərbi və humanitar sahələrdə sıx əməkdaşlığı ilə yanaşı, ortaq mədəni dəyərlərin qorunması və inkişaf etdirilməsi istiqamətində də özünü göstərir. Azərbaycan və Türkiyə geosiyasi baxımdan mühüm regionlarda yerləşərək, regional və qlobal təhlükəsizlik, enerji layihələri və iqtisadi əməkdaşlıq sahələrində strateji tərəfdaş kimi çıxış edir. Eyni zamanda hər iki dövlət türk dünyasında birliyin və həmrəyliyin möhkəmləndirilməsində fəal rol oynayır, ortaq layihələr və təşəbbüslərlə bu birliyin gələcək inkişafına töhfə verir. Azərbaycan və Türkiyə arasındakı münasibətlər bu gün təkcə dövlətlərarası əməkdaşlıq müstəvisində deyil, xalqlar arasında da səmimi dostluq və qarşılıqlı etimada əsaslanır. Xüsusən də hər iki ölkənin humanitar fəlakətlər zamanı bir-birinə dəstəyi, qarşılıqlı yardımı və mənəvi həmrəyliyi bu münasibətlərin nə qədər dərin və sarsılmaz olduğunu bir daha sübut edir. Məhz bu qardaşlıq və birlik ruhu Azərbaycan ilə Türkiyəni təkcə regionda deyil, bütün dünyada nümunəvi dövlətlərdən birinə çevirib.

AZƏRTAC-ın bu məqaləsində Azərbaycan-Türkiyə münasibətlərinin strateji mahiyyəti, iki ölkə arasındakı dostluq və tərəfdaşlıq əlaqələrinin türk dünyasının birliyinin möhkəmlənməsindəki xüsusi rolu təhlil olunur.





## Tarixin və gələcəyin ortaq səsi: Azərbaycan-Türkiyə münasibətləri

Azərbaycan və Türkiyə arasında əsrlərə söykənən qardaşlıq münasibətləri XX əsrin əvvəllərindən etibarən yeni mərhələyə qədəm qoyub. Ortaq tarix, mədəniyyət və dil birliyi bu əlaqələrin daha da güclənməsinə zəmin yaradıb. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaradıldıqda, Osmanlı İmperiyasının varisi sayılan Türkiyə həmin dövrdə gənc müstəqil dövləti dəstəkləyən ilk ölkələrdən biri olub, bu münasibətlər diplomatik səviyyədə davam etdirilib. Lakin Sovet dövründə bu əlaqələr formal səviyyədə zəifləyib, daha çox qeyri-rəsmi münasibətlər şəklində yaşamağa davam edib. 1991-ci ildə Azərbaycanın müstəqilliyini bərpa etməsi ilə bu münasibətlər yenidən canlanıb. Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olmaqla, diplomatik əlaqələrin bərpasında və ölkəmizin beynəlxalq arenada möhkəmlənməsində mühüm rol oynayıb. Xüsusilə 1990-cı illərdə Türkiyə Azərbaycanın müstəqil siyasətinin formalaşması və iqtisadi inkişafının təmin olunması istiqamətində fəal dəstək göstərib. Bu dövrdən başlayaraq, iki ölkə arasında siyasi, iqtisadi və mədəni əməkdaşlıq sürətlə inkişaf etməyə başlayıb.

Enerji, nəqliyyat və ticarət sahələrində qurulan əlaqələr də münasibətlərin əsas sütunlarından biri olub. 2000-ci illərdə həyata keçirilən iri enerji və infrastruktur layihələri - xüsusilə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələri Azərbaycanın Avropaya enerji ixracını təmin etməklə yanaşı, Türkiyəni regionda mühüm enerji tranzit mərkəzinə çevirib. Bu əməkdaşlıq hər iki ölkənin iqtisadi dayanıqlığını və regional mövqeyini gücləndirib.

Bununla yanaşı, hərbi sahədə də tərəfdaşlıq möhkəm təməl üzərində qurulub. Türkiyə Azərbaycanın müdafiə potensialının artırılması üçün hərbi təlimlər və texniki dəstək verərək, hərbi əməkdaşlığı daha yüksək səviyyəyə çatdırıb. Xüsusilə 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini birmənalı dəstəkləməsi iki ölkə arasındakı siyasi və hərbi münasibətləri daha da möhkəmləndirib.

Bu yaxınlıq yalnız siyasi və iqtisadi deyil, mədəni və təhsil sahələrində də özünü göstərir. Türkiyənin Azərbaycanda həyata keçirdiyi təhsil və mədəniyyət layihələri, eləcə də tələbə və müəllim mübadiləsi proqramları iki xalq arasında qarşılıqlı anlaşmanı və mənəvi bağlılığı daha da dərinləşdirib. Bu fəaliyyətlər gələcək nəsillərin bir-birinə daha yaxın və həmrəy yetişməsinə zəmin yaratmaqla, Azərbaycan-Türkiyə qardaşlığının möhkəm və davamlı olacağını bir daha sübut edir.

## Enerji körpüsü və ya iqtisadi güc birliyi

Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq da son illərdə sürətlə inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu münasibətlər içərisində enerji sektoru xüsusi yer tutur. 2023-cü ilin göstəricilərinə əsasən, iki ölkə arasında ticarət dövriyyəsi 8 milyard ABŞ dollarına çatıb və bu rəqəmin hər il artması tendensiyası davam edir. Azərbaycanın qardaş ölkənin iqtisadiyyatına yatırdığı sərmayələrin həcmi artıq 20 milyard dolları ötüb və yaxın illərdə bu rəqəmin daha da yüksələcəyi proqnozlaşdırılır.

Ölkəmiz Cənubi Qafqazın ən böyük enerji ixracatçısı kimi Türkiyə ərazisindən Avropa bazarına enerji tədarükündə mühüm mövqeyə malikdir. Xüsusilə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi layihələr iki ölkə arasında enerji sahəsində əməkdaşlığın təməl sütunlarına çevrilib. Bu layihələr təkcə iqtisadi baxımdan deyil, həm də regional siyasi sabitlik və enerji təhlükəsizliyi üçün strateji əhəmiyyət kəsb edir.

2020-ci ildən tam fəaliyyətə başlayan Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) isə Azərbaycanın təbii qazını Türkiyə vasitəsilə Avropaya çatdırmaqla Cənubi Qafqazı Avropa enerji bazarına birləşdirən əsas dəhlizə çevrilib. TANAP yalnız iqtisadi tərəfdaşlığı gücləndirməklə kifayətlənmir, həm də Avropanın enerji təhlükəsizliyi siyasətində Azərbaycanın və Türkiyənin rolunu əhəmiyyətli dərəcədə artırır.

Bu tərəfdaşlığın daha bir nümunəsi isə İğdır-Naxçıvan qaz kəməri layihəsidir. Uzun illər Ermənistanın blokadada saxladığı Naxçıvan Muxtar Respublikası üçün bu kəmər həyati əhəmiyyət daşıyır. Azərbaycan və Türkiyə prezidentlərinin uzaqgörən siyasəti nəticəsində ərsəyə gələn bu layihə Naxçıvanın enerji təminatında yeni mərhələ açıb. Cari il martın 5-də İğdır-Naxçıvan qaz kəmərinin istismara verilməsi iki qardaş ölkənin həmrəyliyinin və ortaq enerji siyasətinin növbəti təntənəsidir. Kəmər Naxçıvanın təbii qaz ehtiyacını tam təmin etməklə yanaşı, muxtar respublikanın enerji təhlükəsizliyini gücləndirib və bir mənbədən asılılığını aradan qaldırıb.

Azərbaycan və Türkiyənin enerji sahəsində uğurla həyata keçirdiyi bu layihələr, bütövlükdə türk dünyası üçün də yeni imkanlar açır və regionda sabitliyin möhkəmlənməsinə xidmət edir.

## Ortaq güc, ortaq təhlükəsizlik - Azərbaycan-Türkiyə hərbi tərəfdaşlığı

Azərbaycanla Türkiyə arasında hərbi və təhlükəsizlik sahəsində qurulan əməkdaşlıq yalnız iki ölkənin milli maraqları çərçivəsində deyil, bütövlükdə regionun sabitliyinin, təhlükəsizliyinin təmin olunması baxımından da xüsusi önəm daşıyır. Bu tərəfdaşlıq əsrlər boyu qardaş xalqlarımızın ortaq iradəsinin və siyasi uzaqgörənliyinin nəticəsi kimi müasir dövrdə yeni məzmun və mahiyyət qazanıb. İki dövlət müxtəlif beynəlxalq təşkilatlarda, o cümlədən BMT, ATƏT, NATO və İslam Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlıq edərək, regional və qlobal təhlükəsizlik təşəbbüslərində birgə mövqe sərgiləyir. Xüsusilə Azərbaycanın 30 il davam edən işğala son qoyduğu İkinci Qarabağ müharibəsi dövründə Türkiyənin göstərdiyi birmənalı siyasi dəstək bu əlaqələrin sarsılmazlığını və qardaşlığın gücünü bütün dünyaya nümayiş etdirdi.

Bununla yanaşı, hərbi əməkdaşlığın praktiki istiqaməti də daim genişlənməkdədir. Ölkəmizin müxtəlif bölgələrində keçirilən hərbi təlimlərdə Azərbaycanın və Türkiyənin Silahlı Qüvvələrinin birgə iştirakı hər iki ordunun döyüş hazırlığının artırılmasına, koordinasiyanın güclənməsinə və regional təhlükəsizliyin təmininə mühüm töhfə verir. Bu təlimlər yalnız ikitərəfli səviyyədə deyil, həm də NATO ilə əməkdaşlıq çərçivəsində aparılan işlərin gücləndirilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir.

Bundan əlavə, müdafiə sənayesi sahəsində birgə layihələr, müasir silah sistemlərinin tədarükü və texniki təchizatın təkmilləşdirilməsi istiqamətində atılan addımlar qardaş ölkələrimizin müdafiə qabiliyyətinin daha da artırılmasına xidmət edir. Bu əməkdaşlıq Azərbaycanın və Türkiyənin regional təhlükəsizlik məsələlərindəki həmrəyliyini gücləndirməklə yanaşı, eyni zamanda bütövlükdə Cənubi Qafqaz və Orta Asiya regionlarında sülhün, sabitliyin təmin olunmasında mühüm rol oynayır.

## Türk dünyasının güclənməsində Azərbaycanın və Türkiyənin lider rolu

Türk dünyası ortaq tarix, dil və mədəniyyətə malik 7 müstəqil dövlət, bir neçə muxtar ərazidən ibarət böyük coğrafi və mədəni məkandır. Bu dövlətlər arasında Azərbaycan və Türkiyə yalnız qardaşlıq telləri ilə deyil, həm də lider mövqeləri ilə seçilir. Hər iki ölkə türk dünyasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın dərinləşməsində əsas aparıcı qüvvə kimi çıxış edir.

2009-cu ildə təsis edilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (bugünkü Türk Dövlətləri Təşkilatı - TDT) bu əməkdaşlığın daha də inkişaf etməsi və birliyin möhkəmlənməsi üçün mühüm platforma rolunu oynayır. 2021-ci ildə təşkilatın statusu və nüfuzu daha da yüksəldilərək Türk Dövlətləri Təşkilatı adlandırıldı və bu addım türk dünyasının beynəlxalq arenada söz sahibi kimi çıxış etməsinə imkan yaratdı.

Azərbaycan Prezidenti İlham Əliyev də TDT çərçivəsində keçirilən bütün Zirvə görüşlərində türk dövlətləri arasında birliyin və həmrəyliyin möhkəmləndirilməsinin vacibliyini daim vurğulayıb. Xüsusilə 2021-ci ilin noyabrında TDT-nin İstanbulda keçirilən VIII Zirvə toplantısında Prezident İlham Əliyev türk dünyasının gələcəyinin ortaq köklər və dəyərlər üzərində qurulduğunu qeyd edərək qarşılıqlı dəstəyin vacibliyini xüsusi vurğulayıb. Dövlətimizin başçısının "Bizim ailəmiz türk dünyasıdır" fikri bu birliyin siyasi və mənəvi əsaslarını əks etdirən ən təsirli ifadələrdən biri kimi yadda qalıb.

Prezident İlham Əliyev digər Zirvə görüşlərində də türk dünyasının təhlükəsizlik, iqtisadiyyat və müdafiə sahələrində birləşməsinin, birgə maraqlar əsasında ortaq strategiyalar hazırlanmasının əhəmiyyətini xüsusi qeyd edib. 2020-ci ildə İkinci Qarabağ müharibəsində qazanılan tarixi Qələbə və bu prosesdə Türkiyənin birmənalı siyasi dəstəyi Türk Dövlətləri Təşkilatı daxilində də həmrəylik nümunəsi kimi dəyərləndirilib.

Bu gün Azərbaycan ilə Türkiyə TDT-nin iqtisadi inkişafını və siyasi stabilliyini təmin edən aparıcı dövlətlər kimi çıxış edir. Hər iki ölkə təşkilat çərçivəsində birgə layihələrin həyata keçirilməsində fəal çalışır, eyni zamanda region dövlətlərini bir araya gətirən mühüm təşəbbüslərə liderlik edir. Prezident İlham Əliyevin 2024-cü ilin fevral ayında keçirilən andiçmə mərasimində verdiyi bəyanat da bu xəttin davamı kimi diqqətəlayiqdir. Dövlətimizin başçısı deyib: "Bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır". Bu yanaşma Azərbaycanın beynəlxalq siyasətində türk dünyasının prioritet statusunu bir daha təsdiqləyir.

## Kahramanmaraşda "Azərbaycan" məhəlləsi: Qardaşlığın yaşayan abidəsi

2023-cü ilin fevralında Türkiyənin cənub-şərqində baş verən və "əsrin faciəsi" adlandırılan dəhşətli zəlzələdən dərhal sonra Azərbaycan dövləti və xalqı qardaş ölkənin yanında oldu. Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan Fövqəladə Hallar Nazirliyinin xilasediciləri, həkimlər və könüllülər zərərçəkən ərazilərə ezam olundular, humanitar yardımlar göndərildi. 5373 tonluq humanitar yardımın tərkibində 9183 çadır, 145 konteyner tipli mobil ev, səhra hospitalı, səhra mətbəxi, generatorlar və digər həyati əhəmiyyətli ləvazimatlar yer aldı. Azərbaycan xilasediciləri dağıntılar altından 53 nəfəri sağ çıxardı, 780 nəfərin cəsədini tapdı, ümumilikdə 3123 nəfərə tibbi yardım göstərildi. Bu yardımların ümumi maliyyə dəyəri 31 milyon 510 min 900 ABŞ dolları (53 milyon 568 min 530 AZN) təşkil etdi. Həmçinin 13 milyon 397 min 883 ABŞ dolları (22 milyon 776 min 400 AZN) birbaşa maliyyə yardımı şəklində təqdim olundu.




Lakin bu dəstək yalnız təcili yardım səviyyəsində qalmaqla kifayətlənmədi. Prezident İlham Əliyevin xüsusi tapşırığı ilə Azərbaycanın qardaş ölkəyə uzunmüddətli dəstəyi üçün Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin inşasına start verildi. Məhəllənin tikintisinə 100 milyon ABŞ dolları (170 milyon AZN) vəsait ayrıldı və tikinti işləri Azərbaycanın Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən həyata keçirildi. 27,6 hektarlıq ərazini əhatə edən məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti də yaradılıb.

Layihənin əlamətdar məqamlarından biri 2023-cü il aprelin 29-da keçirilən TEKNOFEST festivalı çərçivəsində Heydər Əliyev adına məktəbin və uşaq bağçasının təməlqoyma mərasimi oldu. Bu mərasimə Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan videokonfrans vasitəsilə qatıldılar. Daha sonra 2023-cü ilin sentyabrında Naxçıvanda iki ölkə arasında bu layihəyə dair Əməkdaşlıq Sazişi imzalandı. Nəticədə 2024-cü ilin sentyabrında Heydər Əliyev adına ibtidai məktəb və uşaq bağçasının açılışı baş tutdu. Məktəb tədrisin və uşaqların fərdi inkişafının yüksək səviyyədə təşkili üçün bütün zəruri avadanlıq və tədris materialları ilə təmin edilib.

Kahramanmaraşda ucaldılan Azərbaycan-Türkiyə dostluq abidəsi isə bu sarsılmaz qardaşlığın rəmzinə çevrilib. Bu layihə təkcə bir tikinti layihəsi deyil, eyni zamanda Azərbaycan və Türkiyə qardaşlığının, ağır günlərdə bir-birinə dayaq olmağın, dostluq və həmrəyliyin əyani nümunəsidir. "Azərbaycan" məhəlləsi iki ölkə arasında humanitar həmrəyliyin və strateji tərəfdaşlığın gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan-Türkiyə qardaşlığının əyani nümunəsi olan "Azərbaycan" məhəlləsi artıq ilk sakinlərini qəbul etməyə hazırdır. Sabah - iyunun 19-da isə məhəllənin rəsmi açılış mərasiminin keçirilməsi planlaşdırılır.

Əminliklə demək olar ki, bu layihə və göstərilən yardımlar təkcə Azərbaycan və Türkiyə arasında deyil, bütövlükdə türk dünyasında qardaşlığın və birliyin möhkəmlənməsinə, həmçinin regionda sülhün və təhlükəsizliyin təmininə töhfə verən nadir nümunəyə çevrilib. Bir sözlə, Azərbaycan-Türkiyə münasibətləri "Bir millət, iki dövlət" fəlsəfəsinin real və canlı təzahürüdür.

Ölkələrimiz arasındakı münasibətlər təkcə diplomatik və strateji əməkdaşlıqla məhdudlaşmır, həm də xalqların könül birliyi, ortaq tarix və ortaq taleyə söykənən möhkəm qardaşlıq tellərinə əsaslanır. İki ölkənin birliyinin təməlində dayanan "Bir millət, iki dövlət" fəlsəfəsi illərdir həyata keçirilən uğurlu layihələr, ortaq təşəbbüslər və bir-birinə göstərilən dəstək vasitəsilə real məzmun qazanıb. Xüsusilə humanitar fəlakətlər zamanı nümayiş etdirilən həmrəylik, ortaq iqtisadi və enerji layihələri, hərbi və təhlükəsizlik sahələrində strateji əməkdaşlıq, türk dünyasında birliyin möhkəmləndirilməsində aparıcı rol bu münasibətlərin mahiyyətini daha da dərinləşdirib.

Azərbaycan ilə Türkiyə bu gün regionda və beynəlxalq müstəvidə bir-birinin ən etibarlı tərəfdaşı kimi çıxış edir. Gələcəkdə də bu strateji ittifaqın daha da güclənəcəyini, ölkələrimizin türk dünyasının və regionun rifahı, sabitliyi və inkişafı naminə mühüm layihələrə imza atacağını əminliklə söyləmək olar.




# Konstitusion vəzifələr və vətəndaşlıq borcu

**Hər bir insan vətəndaşı olduğu ölkə qarşısında müəyyən vəzifə və mənəvi məsuliyyət daşıyır. Bu, vətəndaşlıq borcu və ya vətəndaşların konstitusion vəzifələri ilə bağlıdır. Cəmiyyətdə hər bir şəxsin davranışı və fəaliyyəti isə onun əməllərində ifadə olunur. Elə əməllər ki, bunlar nə cəmiyyətə, nə də şəxsiyyətin mənafeyinə zərər vursun, yəni hüquqauyğun davranış hesab edilsin.**




Azərbaycan Respublikası Konstitusiyasının 4-cü fəsli vətəndaşların əsas vəzifələrinə həsr olunub. Əsas Qanunumuzda qeyd olunur ki, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər kəsin üzərinə vəzifələr yalnız Azərbaycan Respublikasının Konstitusiyası ilə və ya qanunla qoyula bilər. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Hər bir şəxs həm dövlət qarşısında, həm də cəmiyyət qarşısında müəyyən öhdəliklər daşıyır. Cəmiyyətin mütəşəkkilliyi isə ümumi maraqlarla şəxsi maraqların harmoniyasından yaranır. Belə maraqların ahəngdarlığı ictimai həyatın sabitliyini və inkişafını təmin edir. Çünki hər birimiz yaşadığımız cəmiyyətin bir üzvü kimi müəyyən öhdəliklər daşıyırıq.

Şəxsi hüquq və vəzifələr bir-biri ilə sıx bağlı olan və hüquq münasibətlərinin məzmununu müəyyən edən ən vacib ünsürlərdən biridir. Ulu Öndər Heydər Əliyev deyirdi: "Heç bir vətəndaş ictimai-siyasi həyata biganə qalmamalıdır". Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk isə qeyd edirdi ki, "Vətənini ən çox sevən vəzifəsini ən yaxşı yerinə yetirəndir". Vətən millətin və xalqın yer üzərindəki ünvanıdır. Vətənə sədaqət müqəddəsdir. Ulu Öndər Heydər Əliyev qeyd edirdi ki, "Gərək nəbzin Vətənin nəbzi ilə vursun". Bu müqəddəslik həm mənəvi borc, həm də konstitusion vəzifədir. Vəzifəyə seçilmə və ya təyinat yolu ilə qanunvericilik, icra və ya məhkəmə hakimiyyəti orqanlarında işləyən şəxslər öz vəzifələrini dürüst və layiqincə yerinə yetirməməyə görə məsuliyyət daşıyırlar və qanunla müəyyən edilmiş hallarda and içirlər. Vətənə sədaqət vəzifəsindən və kimliyindən asılı olmayaraq, hər bir vətəndaşın müqəddəs borcudur. Əxlaqi baxımdan isə Vətənə sədaqət hər bir şəxsdə vətənpərvərlik hisslərinin olması ilə müəyyən edilir. Vətənə sədaqət vətənpərvərlikdən başlayır. Vətənə sədaqət təkcə vətəndaşların "Sədaqət andı" ilə məhdudlaşmır. Ümummilli Liderimiz deyirdi: "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır".

Konstitusiyada təsbit olunmuş digər bir vəzifə dövlət rəmzlərinə hörmətdir. Hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir. Dövlər rəmzləri hər bir dövlətin varlığını təəcəssüm etdirən əsas amildir. Ulu Öndər qeyd edirdi: "Xalqımız üçün qürur hissini yaradan, iftixar hissini verən odur ki, o, artıq azad yaşayır, öz taleyinin sahibidir və Azərbaycan xalqının dünya xalqları içərisində imzası var". Bəli, xalqın imzası onun dövlət rəmzlərində ifadəsidir.

Azərbaycanın dövlət bayrağı dövlətimizin suverenliyinin rəmzidir. Üçrəngli bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının binası üzərində qaldırılıb. 1920-ci il aprelin 27-nə - Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər dövlət bayrağı statusuna malik olan bu bayraq Sovet Rusiyasının qoşunlarının Azərbaycanı işğal etməsi nəticəsində 1920-ci il mayın 3-də Azərbaycan parlamentinin binası üzərindən endirilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan MR-in dövlət bayrağı kimi təsdiq edilib. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi bu bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması barədə Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırıb.

1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti həmin vəsatətə baxıb və bu bayrağın yenidən Azərbaycanın Dövlət Bayrağı kimi qəbul olunması haqqında qərar qəbul edib. Sonralar Ümummilli Lider bu barədə demişdir: "Mən belə fikirdəyəm ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikasının işinə çox təsir etdi və Azərbaycan rəhbərliyi bir neçə belə qərarın qəbul edilməsində məcburiyyət qarşısında qaldı. Naxçıvan Muxtar Respublikasının üzərində bu bayraq 1990-cı il noyabrın 17-də, Azərbaycan Respublikasında isə 1991-ci il fevralın 5-də dalğalandı". Prezident İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı sərəncamla hər il noyabrın 9-u ölkəmizdə Dövlət Bayrağı Günü kimi qeyd edilir. 2010-cu il sentyabrın 1-də Bakıda Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində Prezident İlham Əliyev dövlət bayrağının xüsusi əhəmiyyətini vurğulayaraq demişdir: "Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına!"

2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdıqdan sonra çıxış edərkən söyləmişdir: "Mən qürur hissi ilə Azərbaycan Bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq".

Azərbaycan Respublikasının Dövlət Gerbi dövlətimizin müstəqilliyinin rəmzidir. Müasir dövlət gerbi Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış gerb layihəsinin müəyyən dəyişikliklər edilmiş formasıdır. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da dövlət gerbi haqqında müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin il mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu nəticəsində dövlət gerbi haqqında qərarın qəbulu mümkün olmamışdır. 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Dövlət Gerbi ilə bağlı məsələni müzakirə edərək, Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət Gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırmışdır. 1993-cü il yanvarın 19-da Konstitusiya Qanunu ilə Azərbaycan Respublikasının Dövlət Gerbi təsdiq edilmişdir. 2018-ci il noyabrın 2-də "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanunu qəbul edilmişdir.

Azərbaycan Respublikasının Dövlət himni Azərbaycan dövlətinin, onun müstəqilliyinin və birliyinin müqəddəs rəmzidir. 1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul etmiş və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan olunmuşdur. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini qəbul etməyə imkan verməmişdir. Yalnız 1992-ci il mayın 27-də Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının Dövlət Himni haqqında" qanun qəbul etmişdir. Azərbaycan Respublikasının 1993-cü il 2 mart tarixli qanunu ilə "Azərbaycan Respublikasının Dövlət Himni haqqında Əsasnamə" təsdiqlənmişdir. "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanununa uyğun olaraq musiqisi Üzeyir bəy Hacıbəyliyə, sözləri Əhməd Cavada məxsus olan "Azərbaycan marşı" Azərbaycan Respublikasının Dövlət Himni kimi təsdiq edilmişdir. Ümummilli Lider Heydər Əliyev demişdir: "Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim Vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir!"

Konstitusiyada qeyd olunur ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Qanunla müəyyən edilmiş qaydada vətəndaşlar hərbi xidmət keçirlər. Vətənin müdafiəsində içtirak etmək və hərbi xidmət hər bir vətəndaşın hüquqi vəzifəsi olmaqla yanaşı, həm də onun müqəddəs borcudur. Ulu Öndər qeyd edirdi ki, "Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir". Hər bir Vətən övladı bilir ki, Vətən ancaq üzərində gəzdiyimiz, yaşadığımız torpaq parçası deyil. Vətən uğrunda nə qədər qurbanlar verilib. Özünün bayrağı, müstəqilliyi, suverenliyi, milli dövlət himni, sərhədləri olan torpağa Vətən deyilir. "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar", - deyirdi Ulu Öndər. Vətən azadlıqdır. Torpağın Vətən olması üçün düşmənlərlə mübarizə aparmaq, zəfər qazanmaq lazımdır. Xalq yalnız öz Vətənini qorumaqla gələcəyinə təminat verə bilər. Bizi Vətənə olan sevgimiz ucaldır. Vətənin müdafiəsi bizim üçün inanc, iman olmalıdır.

44 günlük Vətən müharibəsində xalqımız Ali Baş Komandanın rəhbərliyi altında müqəddəs Vətən torpaqlarını işğaldan azad etdi. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər günü kimi yazıldı. Uğrunda minlərlə şəhid verdiyimiz bu torpağın mənəvi dəyəri çox yüksəkdir. Vətən bizə əcdadlarımızın ən dəyərli əmanətidir, onu qorumaq hər birimizin borcudur. Şair Məmməd Arazın poetik dili ilə desək: "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı".

"Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir", - deyirdi Ulu Öndər. Tarix və mədəniyyət abidələrini qorumaq isə hər bir şəxsin borcudur. Çünki tariximizin hər səhifəsi bizim üçün əzizdir. Tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və ondan səmərəli istifadə edilməsi ilə bağlı münasibətlər isə müfaviq qanunvericlik aktları ilə tənzimlənir. Lakin tarix və mədəniyyət abidələrini qorumaq təkcə qanunvericilik aktları ilə yox, həm də vətəndaşlıq borcu naminə olmalıdır. Çünki Ulu Öndərin qeyd etdiyi kimi: "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir".

Ətraf mühiti qorumaq hər bir şəxsin vətəndaşlıq borcudur. Hər bir şəxs öz həyat fəaliyyəti prosesində bu və ya digər formada təbiətlə, ətraf mühitlə təmasda olur. Buna görə də hər kəs istər məişətdə, istərsə də istirahət zamanı qanunvericiliklə müəyyən edilmiş vəzifəsini yerinə yetirməlidir. Bu vəzifə əmək fəaliyyəti nəticəsində təbiətdən istifadə edən və ətraf mühitə təsir edə biləcək hər bir şəxsin üzərinə düşür. Təbiəti qorumaq üçün məcburiyyətdən öncə təbiətə sevgi lazımdır. Bəli, təbiət düşünür və düşündürür. Təbiət haqqında yalnız 5 iyun Dünya Ətraf Mühitin Mühafizəsi günündə yox, ilin bütün günlərində düşünməliyik. Hər bir şəxsin ətraf mühiti qorumaq və ona qayğı ilə yanaşmaq vəzifəsi həm hüquqi, həm də əxlaqi dəyərlərlə ölçülür. Ətraf mühiti qorumaq və ona qayğı ilıə yanaşmaq cəmiyyətin hər bir üzvünün mənəvi borcudur.

Ümummilli Lider Heydər Əliyevin ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılması, ağacların əkilməsi, xüsusən də Bakıda və Abşeron yarımadasında yaşıllıq zolaqlarının genişləndirilməsi üçün verdiyi tapşırıqlar, su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, ölkənin su təchizatı, inkişafı və dirçəlişi istiqamətində gördüyü tədbirlər Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün də uğurla davam etdirilir. 15 dekabr 2023-cü ildə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçirilməsi ilə əlaqədar keçirilən müşavirədə Prezident bildirmişdir: "Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz "yaşıl enerji" ilə bağlıdır. "Yaşıl enerji" növlərinin yaradılması və "yaşıl enerji"nin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək".

Konstitusiya ilə hər bir şəxsin üzərinə qoyulan bu vəzifələr hər birimizin vətəndaşlıq borcudur. Heç kəs Azərbaycan Respublikasının Konstitusiyasına və ya qanunlarına zidd vəzifələrin icrasına məcbur edilə bilməz. Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan suiistifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur. Yəni hüquqi vəzifələr hüquq və azadalıqların məhdudlaşdırılmasını tələb edir. Bu məhdudlaşdırmalar isə başqa şəxslərin hüquq və azadlıqlarını lazımi şəkildə qəbul etmək və ona hörmətlə yanaşmaqda ifadə olunur.

Hər bir şəxs cəmiyyət qarşısında öz məsuliyyətini dərk edərək vətəndaşı olduğu dövlətin əbədiliyi, mənsub olduğu xalqın tərəqqisi naminə öz vətəndaşlıq borcunu layiqincə yerinə yetirməlidir. Azərbaycan dövlətinin qurucusu və memarı Ulu Öndər demişdir: "Mən inanıram, əminəm ki, biz müstəqilliyinin geniş yoluna çıxacağıq və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaq və bizim müstəqilliyimizi, milli azadlığımızı heç kəs heç bir yolla sarsıda bilməyəcəkdir".

***Faiq SƏFƏROV,***
***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi***

# Siyasətçilər ayrılır, ekoloqlar birləşir

## İqlim dəyişikliklərinə qarşı mübarizədə Azərbaycan nümunəsi getdikcə daha aktual olur

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) uğurlu nəticələrindən sonra qlobal iqlim səylərinin davamlı irəliləməsi və qəbul edilən qərarların həyata keçirilməsi üçün növbəti mühüm mərhələ olaraq Bonn İyun İqlim Sammiti ön plana çıxıb.**

Sammit iqlim dəyişmələri ilə mübarizədə il ərzində görülən işlərin qiymətləndirilməsi, yeni tədbirlərin planlaşdırılması və BMT səviyyəsində siyasi iradənin artırılması üçün mühüm platforma olmaqla yanaşı, həm də COP kimi böyük konfranslara hazırlıq mərhələsi kimi də əhəmiyyət daşıyır.

Bu günlər Bonn İyun İqlim Sammiti - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Yardımçı Orqanlarının 62-ci Sessiyası (SB62) çərçivəsində Şarm-əl-Şeyx Dialoqunu əhatə edən 2025-ci ilin 1-ci vork-şopunun açılışı olub. Qeyd edək ki, "vork-şop" ingiliscədən tərcümədə müəyyən mövzuda insanları bir araya gətirən, təlim, müzakirə və praktik işlərin aparıldığı tədbir deməkdir. Haqqında bəhs etdiyimiz iqlim dəyişmələri üzrə keçirilən sessiya da bu qəbildəndir. Tədbirin əsas məqsədi inkişaf etməkdə olan ölkələrin iqlim dəyişmələri ilə mübarizədə üzləşdikləri maliyyə çatışmazlıqlarının aradan qaldırılması yollarını müzakirə etmək olub. Dialoq çərçivəsində keçirilən vork-şop iştirakçılar arasında fikir mübadiləsi təşviq edilib, müxtəlif ölkələrin təcrübələri və uğurlu maliyyə mexanizmləri təqdim olunub.

Məlumat üçün bildirək ki, Şarm-əl-Şeyx Dialoqu 2022-ci ildə Misirdə keçirilmiş COP27 zamanı Paris Sazişinin 2-ci maddəsinin 1(c) bəndinin əhatə dairəsi və həmin maddənin Sazişin 9-cu maddəsinə uyğunluğu (tamamlayıcılığı) barədə müzakirələrin keçirilməsi məqsədilə yaradılıb. Qərara əsasən, 2023-cü il ərzində COP27 sədrliyinin rəhbərliyi ilə iki seminar keçirilib. 2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərində keçirilən COP28 zamanı Şarm-əl-Şeyx Dialoqunun ilkin məqsədlərinə Paris Sazişinin 2-ci maddəsinin 1(c) bəndinin tətbiqi ilə bağlı anlayışın genişləndirilməsi əlavə edilib. Bundan başqa, dialoqun 2024-cü və 2025-ci illəri əhatə etməsi və bu çərçivədə UNFCCC katibliyi tərəfindən ildə iki dəfə seminarların keçirilməsi barədə qərar qəbul olunub. Eyni zamanda iclasların koordinasiyasının həyata keçirilməsi üçün COP28-in prezidenti tərəfindən müvafiq olaraq inkişaf etmiş və inkişaf etməkdə olan ölkələri təmsil edən isveçrəli və misirli iki həmsədr təyin edilib. Dialoq çərçivəsində müzakirələrə Paris Sazişinə tərəf dövlətlərlə yanaşı, müvafiq təşkilatlar və digər maraqlı tərəflər də qatılırlar.

Bu baxımdan COP29-un nəticəsi olaraq qəbul edilən Bakı Maliyyə Hədəfi iqlim dəyişikliyi ilə mübarizədə tarixi addım kimi qiymətləndirilir. Bakı Maliyyə Hədəfi ilk dəfə illik iqlim maliyyəsi üçün konkret rəqəmə əsaslanan qlobal məqsəd müəyyən edib. Bu, iqlim sahəsində öhdəliklərin sadəcə siyasi bəyanatlarla deyil, praktik və ölçülə bilən mexanizmlərlə dəstəklənməsi yönümündən əhəmiyyətli yenilik kimi qeyd olunub. Əsas məqsəd inkişaf etməkdə olan və iqlim dəyişmələrinə daha həssas olan ölkələrin iqlim maliyyəsinə çıxış imkanlarını genişləndirmək idi. Bununla yanaşı, Bakı sənədi dövlətlərarası əməkdaşlığı gücləndirmək, iqlimə uyğun investisiyalar üçün institusional çərçivələri möhkəmləndirmək və özəl sektorun iqlim maliyyəsində iştirakını stimullaşdırmaq üçün yeni təşəbbüslər və mexanizmlər təklif edib.

Bütün bunların davamı olaraq, Şarm-əl-Şeyx Dialoqu çərçivəsində keçirilən tədbirin açılında çıxış edən nümayəndələr iqlim dəyişmələrinə qarşı qlobal əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıblar və 2025-ci ildən sonrakı dövr üçün maliyyə öhdəliklərinin daha konkret və şəffaf şəkildə müəyyən olunmasına çağırış ediblər. Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) rəisi Elməddin Mehdiyev açılış sessiyasındakı çıxışında iqlim maliyyələşməsi istiqamətində əldə olunmuş mühüm irəliləyişlərə diqqət yönəldib: "Bu hədəflə inkişaf etməkdə olan ölkələr üçün 2035-ci ilə qədər hər il azı 300 milyard dollar maliyyə vəsaitinin səfərbər edilməsi nəzərdə tutulur. Təşəbbüsün davamı olaraq Azərbaycan və Braziliya tərəfinə "Bakıdan Beləmə Yol Xəritəsi"ni hazırlamaq həvalə olunub və məqsəd 1,3 trilyon dollarlıq illik iqlim maliyyəsinin təmin edilməsidir".

AIDA rəisi çıxışında karbon bazarlarına dair 6-cı maddə üzrə onillik danışıqların yekunlaşdığı və bu mexanizmlərin 2050-ci ilə qədər 1 trilyon dollarlıq maliyyə axını yarada biləcəyini qeyd edərək COP29 zamanı inkişaf etməkdə olan ölkələr üçün maliyyə əlçatanlığının artırılması, kapitalın yüksək dəyəri və digər struktur maneələrin aradan qaldırılması məsələlərinə də toxunub. Elməddin Mehdiyev iqlim maliyyəsinin təkcə rəqəmlərlə deyil, praktiki tədbirlərlə və yerli səviyyədə nəticələrlə müşayiət olunmasının vacibliyini diqqətə çatdırıb. O, bu istiqamətdə Şarm-əl-Şeyx Dialoqunun mühüm dialoq platforması rolunu oynadığını bildirib və Bakı Maliyyə Hədəfinin icrasında 2.1(c) maddəsinin əhəmiyyətini vurğulayıb.

Hələ ötən ilin noyabrında COP29 çərçivəsində Bakıda keçirilən iclaslarda iqlim maliyyəsinin funksionallığının artırılması, Paris Sazişinə uyğun maliyyə mexanizmlərinin təkmilləşdirilməsi və "yaşıl investisiya"ların təşviqi məsələləri ətrafında geniş və məqsədyönlü müzakirələr aparılmışdı. Əsas diqqət mövcud mexanizmlərin fəaliyyətinin təhlili, vəsaitlərin daha sürətli ötürülməsi, şəffaflığın artırılması və nəticələrin ölçülməsi sistemlərinin təkmilləşdirilməsi üzərində cəmlənmişdi. Bununla yanaşı, Paris Sazişinin 2.1(c) maddəsinə uyğun olaraq maliyyə axınlarının iqlimə davamlı inkişafla uyğunlaşdırılması üçün daha sistemli və uzunmüddətli yanaşmaların formalaşdırılması vacibliyi diqqətə çatdırılmışdı.

Bonn İyun İqlim Sammitində bəzi ölkələr əlavə maddələr irəli sürüblər ki, bu da fikir ayrılığına və razılığa gəlməkdə tərəddüdə səbəb olub. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası (UNFCCC) katibliyinim üzvü Karin Simonson deyib ki, bu səbəblərdən dolayı bir çox diplomatik danışıq konkret izah, diplomatik təcrübə və səbir tələb edir. "Sessiyanın ilk günündə vaxt məhdudiyyətlərinə görə tərəflər arasında razılığın əldə olunması mümkün olmadı. Bu gün gecikməyə baxmayaraq, bütün tərəflərin razı olduğu birgə yol xəritəsinin formalaşdırılması çoxtərəfli prosesin gücünü göstərdi. Konsensus yaratmaq vaxt aparır, amma bu proses həm güclü, həm də zəif tərəfləri ilə çoxtərəfliliyin əsasını təşkil edir. COP29-un sədrliyi Bonnda İyun İqlim Görüşlərində aparılan danışıqlarda körpü rolu oynadı və Azərbaycan nümayəndə heyətinin bu prosesi dəstəkləməsi konsensusun əldə olunmasına töhfə verdi", - deyə UNFCCC-nin nümayəndəsi bildirib.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## ÜDM istehsalı 1,5 faiz artıb

**Bu ilin yanvar-may aylarında ölkədə 50 milyard 99,5 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3,0 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 3,9 faiz artmışdır.

ÜDM istehsalının 36,2 faizi sənaye, 9,9 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,0 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,2 faizi tikinti, 4,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,8 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 21,7 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,4 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 4896,1 manata bərabər olmuşdur.

## Əsas kapitala 6,7 milyard manatlığa yaxın investisiya yönəldilib



**2025-ci ilin yanvar-may aylarında əsas kapitala 6 milyard 694,6 milyon manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz az investisiya yönəldilmişdir.**

Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 21,9 faiz azalmış, qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 11,7 faiz artmışdır.

İstifadə olunmuş investisiyanın 3363,0 milyon manatı və ya 50,2 faizi məhsul istehsalı sahələrinə, 2236,8 milyon manatı (33,4 faizi) xidmət sahələrinə, 1094,8 milyon manatı (16,4 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş investisiyaların 5048,7 milyon manatını və ya 75,4 faizini daxili investisiyalar təşkil etmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 5231,4 milyon manatı və ya 78,1 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

## Əlilliyi olan şəxslərə 57 min reabilitasiya vasitəsi verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən cari ilin 5 ayı ərzində əlilliyi olan şəxslərə 57 min reabilitasiya vasitəsi verilib.**

Onlardan 4,2 mindən çoxu təkərli oturacaq (o cümlədən 41-i mühərrikli təkərli oturacaq), 1,1 mini aşağı və yuxarı ətraf protezi, 2,7 mini əsa, qoltuqaltı və dirsəkaltı ağac olub.

Həmçinin əlilliyi olan şəxslərə 4,1 min cüt protez və ortopedik ayaqqabı, 560-dan çox eşitmə aparatı, korset və s. reabilitasiya vasitələri təqdim olunub.

Yanvar-may aylarında əlilliyi olan 7,6 min şəxs reabilitasiya vasitələri ilə təmin edilib.

## Türk dünyasında iqtisadi əməkdaşlıq platformaları: rəqəmsal ticarət, startaplar və investisiya

**Bu günlər "Bakı-Ekspo" Mərkəzində İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM), Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və Türkiyənin "Rok Expo" şirkətinin birgə təşkilatçılığı ilə "II Türk dövlətləri ticarət və investisiya əməkdaşlıq forumu və sərgisi" keçirilmişdir.**




Tədbirin əsas məqsədi türk dövlətləri arasında ticarət əlaqələrinin genişləndirilməsi, birbaşa investisiyaların təşviqi və qarşılıqlı sərmayə imkanlarının dəyərləndirilməsi, regional layihələrin və strateji tərəfdaşlıqların daha da inkişaf etdirilməsi idi. Forum çərçivəsində yeni texnologiyaların, sənaye məhsullarının və xidmətlərin sərgisinin təşkili də bu istiqamətdə atılan addımlardandır. Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və digər türk dövlətlərinin rəsmi nümayəndə heyətləri, ixracatçılar, sənaye şirkətləri, investisiya qurumları və iş adamları, həmçinin regional və beynəlxalq media nümyəndələrinin iştirak etdiyi bu forum türk dövlətləri arasında iqtisadi və ticarət əlaqələrinin gücləndirilməsi baxımından çox əhəmiyyətlidir. Belə tədbirlər, ümumiyyətlə, türk dövlətləri arasında iqtisadi əməkdaşlığı möhkəmləndirmək, sərmayə imkanlarını genişləndirmək və ticarət əlaqələrini artırmaq məqsədini güdür.

İyunun 10-12-də keçirilən forumda tədbir iştirakçıları ölkələrin investisiya imkanları, beynəlxalq ticarətdə mövcud çağırışlar və regional əməkdaşlıq perspektivləri barədə müzakirələr aparıblar. İştirakçılar üçün yeni biznes əlaqələri qurmaq, tərəfdaşlıq imkanlarını dəyərləndirmək və türk dünyasının vahid iqtisadi məkan kimi formalaşmasına töhfə vermək üçün unikal fürsət yaradan tədbirdə türk dövlətlərinin iqtisadiyyatı, rəqəmsal ticarət, kənd təsərrüfatı, turizm və mədəniyyət, startaplar və investisiya, o cümlədən akademik sahələri əhatə edən panel müzakirələri təşkil olunub. Xüsusilə də "Türk dövlətləri iqtisadiyyatı", "Türk dövlətlərində kənd təsərrüfatı ticarəti və imkanları", "Kommersiya mübahisələrinin həllində arbitraj və mediasiya", "Türk dövlətlərində rəqəmsal ticarət", "Türk dünyası biznes qadınları zirvəsi", "Akademik istiqamətlər", "Startaplar və investisiyalar", "Türk dünyasında medianın gücü" mövzularında keçirilən panel müzakirələr əhəmiyyətinə görə diqqət çəkib.

Tədbir çərçivəsində ikitərəfli görüşlər keçirilib, şirkətlərin strateji tərəfdaşlıqları qurulub və türk dövlətlərinin ortaq brendlərinin yaradılması ilə bağlı müzakirələr aparılıb. Bu cür tədbirlərdə adətən sərmayə qoyuluşu, iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlıq və ticari mübadilənin inkişafı müzakirə olunur, eyni zamanda müxtəlif sahələrdə fəaliyyət göstərən şirkətlər öz məhsul və xidmətlərini nümayiş etdirir və qarşılıqlı əlaqələr qururlar. Bu baxımdan forumla birgə təşkil olunan sərgi çərçivəsində 10 ölkədən 35-ə yaxın sahə üzrə, o cümlədən ticarət, enerji, "yaşıl iqtisadiyyat", turizm, rəqəmsallaşma və hətta kosmik tədqiqatlara qədər məhsullar və qabaqcıl texnologiyalar nümayiş etdirilib.

Yeri gəlmişkən qeyd edək ki, indiyədək türk dövlətləri arasında iqtisadi əməkdaşlığı gücləndirmək məqsədi daşıyan bir sıra digər tədbirlər keçirilmişdir. Bu tədbirlər qardaş dövlətlər arasında iqtisadi inteqrasiya, regional əməkdaşlıq və birgə inkişaf strategiyalarının qurulması baxımından böyük əhəmiyyət kəsb edir. Məsələn, 2023-cü il 21 dekabr tarixdə keçirilən Azərbaycan-Türkiyə İnvestisiya Forumu Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi və Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Bakıda keçirilmişdir. Strateji önəm daşıyan həmin forumda təkcə iqtisadi deyil, həm də siyasi və təhlükəsizlik əməkdaşlığının dərinləşməsi üçün baza yaradılmışdır.

Ötən ilin mayında Bakıda Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Türk Dövlətləri Təşkilatı (TDT) və digər tərəfdaş qurumların birgə təşkilatçılığı ilə keçirilən Türk Dövlətləri İqtisadi Forumunda da türkdilli ölkələr arasında iqtisadi əməkdaşlığın inkişafı, markaların beynəlxalq bazara inteqrasiyası və digər mövzular müzakirə olunmuşdur. Tədbirdə KOB-ların beynəlxalq bazarlara çıxış imkanlarının artırılması, rəqəmsallaşma, logistika və ixracın təşviqi üzrə fikir mübadiləsi aparılmışdır ki, bu da türk dünyası iqtisadi məkanının formalaşdırılması istiqamətində atılmış addımdan dolayı regional əhəmiyyət daşıyır.

Türk dövlətləri arasında iqtisadi əlaqələri möhkəmləndirmək baxımından keçirilən digər iki tədbir də əhəmiyyətinə görə diqqət çəkir. Bu ilin yanvarında Türkiyə Ticarət Nazirliyi, Azərbaycan İqtisadiyyat Nazirliyi və Özbəkistan İnvestisiya, Sənaye və Ticarət Nazirliyi tərəfindən dəstəklənən, Türkiyə Odalar və Borsalar Birliyi (TOBB), Azərbaycanın İxrac və İnvestisiya Təşviqi Agentliyi (AZPROMO) və Özbəkistanın İnvestisiya Təşviqi Agentliyi tərəfindən təşkil olunan tədbir Ankarada baş tutmuşdur. Azərbaycanın tranzit mövqeyi, Türkiyənin sənaye gücü və Özbəkistanın təbii resurslarının birləşməsi üçtərəfli əməkdaşlıq baxımından türk dünyasının iqtisadi potensialını reallaşdırmaq üçün ideal mühit yaradır. Bu format həm də türk dünyasında inteqrasiyanın çoxşaxəli modelidir.

Təxminən üç ay əvvəl bu qəbildən olan Türk İnvestisiya Fondu və Türk Ticarət və Sənaye Palataları İttifaqının (TCCI) görüşündə Türk İnvestisiya Fondu ilə TCCI arasında əməkdaşlıq memorandumu imzalanmışdır. Məlumat üçün bildirək ki, TCCI Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında iqtisadi əməkdaşlığı gücləndirmək, sahibkarlıq mühitini yaxşılaşdırmaq və birgə layihələri təşviq etmək məqsədilə təsis olunub. Üstəlik, Türk İnvestisiya Fondu isə TDT-yə üzv ölkələr arasında iqtisadi əməkdaşlığı gücləndirmək, ticarət və investisiyaları artırmaq məqsədilə yaradılmış ilk ortaq maliyyə qurumudur. Fond 2023-cü ilin 16 mart tarixində Ankarada keçirilən TDT-nin fövqəladə zirvə görüşündə imzalanan sazişlə təsis olunmuşdur.

Beləliklə, türk dövlətləri arasında iqtisadi əməkdaşlığı gücləndirmək məqsədi daşıyan bu forumlar ticarət əlaqələrinin genişləndirilməsi və birgə investisiya imkanlarının artırılması istiqamətində mühüm platforma rolunu oynayır. Sadalanan təsisatlar yalnız iqtisadi əməkdaşlıq üçün deyil, həm də ortaq inkişaf və sabitlik üçün mühüm vasitədir. Bu strukturlar milli iqtisadiyyatların bir-birini tamamlamasına, sərmayə axınlarının asanlaşmasına və türk dünyasının qlobal iqtisadi sistemdə bir güc mərkəzi kimi formalaşmasına şərait yaradır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Rəqəmsal kitabxana BP-nin 10 min tələbəyə hədiyyəsidir

**Azərbaycanda ən iri neft, qaz, ixrac və indi həm də "yaşıl enerji" layihələrinin operatoru olan BP yeni bir sosial proqramın başa çatdığını elan edib. Bu sosial sərmayə layihəsi mühəndislik sahəsində ölkəmizin aparıcı ali təhsil müəssisələrindən biri olan Azərbaycan Texniki Universitetində (AzTU) müasir rəqəmsal kitabxananın yaradılmasını nəzərdə tutur və universitetlərdə bilik mənbələrinin rəqəmsallaşdırılmasına dəstək kimi dəyərləndirilir.**





Sözügedən təşəbbüs BP-nin Azərbaycanda təhsilin inkişafına və potensialın artırılmasına dəstək öhdəliyinin bir hissəsidir. Bu innovativ layihənin məqsədi tələbələrin və professor-müəllim heyətinin tədris, öyrənmə və digər akademik materiallara, mənbələrə və resurslara çıxışını, bu resursların idarə olunması və paylaşma üsullarını modernləşdirməklə onlardan istifadəni sürətli və asan etməkdir.

Hazırda universitetin mövcud kitabxanasında 500 mindən çox kitab saxlanılır, eləcə də 20 tədris və multimedia otağı və ixtisaslaşdırılmış laboratoriyalar fəaliyyət göstərir. Yeni rəqəmsal kitabxana bu resursları elektronlaşdırmaqla sürətli və fasiləsiz bilik və məzmun mübadiləsi və birgə işləmək imkanları yaradır. Belə ki, geniş rəqəmsal bilik bazasına məsafədən və birbaşa çıxış, akademik və tədqiqat materialları üçün təkmilləşdirilmiş axtarış imkanları yaranır, eləcə də kontenti paylaşmaq və tədqiqat məlumatlarını saxlamaq üçün birgə istifadə vasitələri təmin edilir.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz kitabxananın açılışı ilə bağlı belə deyib: "Bu layihə Azərbaycanda təhsilin gələcəyinə və yeni nəsil mühəndis və yenilikçi mütəxəssislər yetişdirilməsinə dəstək öhdəliyimizi əks etdirir. Qürur duyuruq ki, AzTU-nu daha sıx birləşmiş və innovativ təhsil mühiti qurmaq niyyətilə üz tutduğu rəqəmsal transformasiya yolunda dəstəkləyə bilmişik. Belə bir mühitin yaradılmasına doğru atılmış bu addım universitetə öz akademik infrastrukturunu modernləşdirməyə şərait yaradaraq biliklərin və tədqiqat imkanlarının daha əlçatan olmasını təmin edir. Biz xüsusilə məmnunuq ki, 10 mindən çox tələbəyə və 600 nəfərlik professor-müəllim heyətinə müasir rəqəmsal vasitələrdən və distant təhsil imkanlarından faydalanmağa kömək edirik".

Layihə çərçivəsində universitet əməkdaşları üçün təlim aspekti də nəzərdə tutulub. Onlara kitabxana resurslarını daha səmərəli idarə etmək üçün yeni rəqəmsal metodlar öyrədilib. İcra müddəti 18 ay olan bu layihəni öz sosial sərmayə fəaliyyətlərinin bir hissəsi olaraq BP şirkəti maliyyələşdirib. Layihənin ümumi dəyəri 408 min manatdır.

Xatırladaq ki, BP şirkəti Azərbaycanda bu vaxtadək öz tərəfdaşları ilə birlikdə icraçısı olduğu layihələrə 87 milyard dollardan çox sərmayə qoyub. Bundan əlavə, fəaliyyətə başladığı vaxtdan indiyədək özü və əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkəmizdəki sosial sərmayə layihələrinə ümumilikdə 111 milyon dollardan çox vəsait xərcləyib.

Bunu BP belə bəyan edir: "Azərbaycanda biz ən çox töhfə verə biləcəyimizə inandığımız sahələrə yönəlməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürmüşük. BP-nin ölkədə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirməklə, onların həyatını yaxşılaşdırıb və dəyişdirib. Şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Ölkə üzrə 5 ayda 26 milyard manatlıq sənaye məhsulları istehsal olunub

**Azərbaycanda 2025-ci ilin yanvar-may aylarında 26,0 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1,6 faiz az sənaye məhsulları istehsal edilmişdir.**

Neft-qaz sektorunda məhsul istehsalı 2,8 faiz azalmış, qeyri-neft-qaz sektorunda isə 6,4 faiz artmışdır.

Sənaye məhsulunun 62,2 faizi mədənçıxarma sektorunda, 31,0 faizi emal sektorunda, 5,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1,0 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 4,9 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 1,7 faiz artmışdır.

Emal sektorunda ağacın emalı və ağacdan məmulatların istehsalı 2,1 dəfə, əczaçılıq məhsullarının istehsalı 84,9, toxuculuq sənayesi məhsullarının istehsalı 26,8, kimya sənayesi məhsullarının istehsalı 13,1, qida məhsullarının istehsalı 9,4, maşın və avadanlıqların istehsalı 7,7, içkilərin istehsalı 5,6, tütün məmulatlarının istehsalı 4,9, rezin və plastik kütlə məmulatlarının istehsalı 4,7, mebel istehsalı 4,6, elektrik avadanlıqlarının istehsalı 3,6 faiz artmış, neft məhsullarının istehsalı 5,2, kompüter, elektron və optik məhsulların istehsalı 7,8, hazır metal məmulatlarının istehsalı 9,6, tikinti materiallarının istehsalı 10,1, metallurgiya sənayesi məhsullarının istehsalı 12,9, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 13,0, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 14,1, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 16,9, kağız və karton istehsalı 24,9, poliqrafiya məhsullarının istehsalı 35,5, geyim istehsalı isə 47,7 faiz azalmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 2,4, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 0,2 faiz artmışdır.

## İqtisadi sektorda orta aylıq nominal əməkhaqqı 1100 manatı üstələyib

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari il mayın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 771,7 min nəfər olmuşdur.**

Onlardan 876,3 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 895,4 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,5 faizi təhsil, 13,7 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi tikinti, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 14,9 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Hesabat dövründə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,2 faiz artaraq 1100,6 manat təşkil etmişdir. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.





# Mədəniyyət





● İstirahət məkanlarımız

# Azərbaycan turizm imkanları geniş olan ölkələrdəndir

**Ölkəmizin gözəl iqlimi var, yaz-yay aylarında bir tərəfi Lənkəran, bir tərəfi Nabranacan uzanan Xəzər sahillərindən tutmuş qədim Naxçıvan, Qarabağ, Göy Göl, Hacıkənd, Gədəbəy, İsmayıllı, Şəki, Zaqatala, Quba, Qusar, Yardımlı, Lerik və digər ərazilərdə əlverişli, dünya standartlarına cavab verən müasir hotellər, istirahət yerləri, müalicə məkanları var.**

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə turizm iqtisadiyyatımızın aparıcı sahələrindən birinə çevrilib. Təsadüfi deyil ki, Azərbaycana (pandemiya dövrü istisna olmaqla) turist səfərləri edənlərin sayında hər il ən azı 10 faiz artım müşahidə olunur. Bu müşahidələr ildən-ilə öz reallığı ilə rəğbət doğurur. Bunu xarici ölkələrin mərkəzi televiziya və radio verilişlərindən, bölgələrin həyatından bəhs edən süjetlərdən görmək də mümkündür. İstirahət mövsümi ilə əlaqədar Rusiya Federasiyası, Türkiyə, Avstraliya, İtaliya və bir sıra ərəb ölkələrində Azərbaycanın coğrafi şəraiti, əsrarəngiz təbiət müxtəlifliyi, günün tələblərinə cavab verən bir-birindən yaraşıqlı istirahət mərkəzləri, gəzməli və görməli yerləri barədə maraqlı verilişlər təqdim olunur.

Son illər dövlət başçıları və hökumət nümayəndələri rəsmi görüşlərdə, Bakının evsahibliyi etdiyi konfrans, simpozium və festivallarda, habelə digər beynəlxalq tədbirlərdə çıxışlarında ölkəmizdə turizmin inkişafını yüksək dəyərləndirirlər. İctimai rəydə məmnunluq doğuran odur ki, bütün bu uğurların əsasında Prezident İlham Əliyevin ölkəmizdə turizmin dünya standartlarına uyğun qurulması və inkişaf etdirilməsi siyasəti dayanır. Respublikamızda turizm sahəsinin inkişafı üçün qanunvericilik bazasının təkmilləşdirilməsi məqsədilə "Turizm haqqında" qanun qəbul olunub, 2016-2025-ci illər üçün Azərbaycanda turizmin inkişaf strategiyası təsdiqlənib. Həmin strategiya uğurla həyata keçirildikcə Azərbaycanın bu sahədəki nailiyyətləri artır.

Təsadüfi deyil ki, bu ilin yanvar-may aylarında Azərbaycana 979,963 əcnəbi və vətəndaşlığı olmayan şəxs səfər edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 14,408 nəfər və ya 1,5 faiz çoxdur.

Xatırladaq ki, cari ilin may ayında Azərbaycana ən çox turist Rusiyadan gəlib. Sözügedən ölkədən Azərbaycana səfər edənlərin sayı 62,809 nəfər olub. Siyahıda ikinci pillədə 41,299 nəfər (illik müqayisədə 10 artım) göstərici ilə Türkiyə, üçüncü yerdə isə 23,326 nəfər (illik müqayisədə 21 artım) göstərici ilə Hindistan qərarlaşıb.

"Çindən Azərbaycana ildə azı 1,5 milyon turist gələ bilər... Hər il xaricə səyahət edən 150 milyon Çin vətəndaşının cəmi 1 faizi Azərbaycana gəlsə, bu, ölkəmiz üçün yetərli olacaq". Bunu isə cari ilin aprel ayının sonlarında Prezident İlham Əliyev Pekində Çinin CGTN telekanalına müsahibəsində bildirib.

Dövlət başçısı Azərbaycanın ötən il ilk dəfə Çin vətəndaşları üçün viza rejimini birtərəfli qaydada ləğv etdiyini xatırladaraq bu il eyni addımı atdıqları üçün qarşı tərəfə minnətdar olduğunu deyib: "Adətən, biz bunu həmişə ikitərəfli əsasda edirdik. Lakin bu halda biz dostluğumuzu və səmimiliyimizi nümayiş etdirmək üçün bunu birtərəfli qaydada etdik. Bu gün, həmçinin həmkarlarımla aviareyslərin sayının artırılması barədə danışdıq. Hazırda düşünürəm ki, həftədə 6 və ya 7 aviareys həyata keçirilir. Ötən il viza rejimi ləğv ediləndən sonra Çindən bundan demək olar ki, iki dəfə çox turist qəbul etdiyimizi nəzərə alsaq, ümidvaram, bu rəqəm artacaq. Bu gün mən öyrəndim ki, 150 milyon çinli xaricə səfər edir".



Bu ehtimallar onu deməyə əsas verir ki, ölkəmizə gələn turistlərin sayı ildən-ilə artdıqca neft-qaz gəlirlərindən asılılıq azalacaq, qeyri-neft sektoru inkişaf edəcək.

Sözügedən məsələ ilə bağlı ekspert Rəsul Cahangirli mətbuata açıqlamasında, Çindən çoxlu sayda turistin Azərbaycana gəlməsini mümkün hesab edir: "Bunu şərtləndirən başlıca amil odur ki, Çin əhalisinin sayına görə dünyanın ən böyük iki ölkəsindən biridir. Turizm potensialı çox genişdir. Çin hər il 130 milyon turist göndərən ölkədir. Çin turistləri dünya üzrə trilyonlarla dollar vəsait xərcləyirlər. ABŞ və Qərbi Avropa ilə müqayisədə məsafə baxımdan Çin ölkəmizə daha yaxındır. Çinlə Azərbaycan arasında Orta Asiya yerləşir. Ona görə də hesab edirəm ki, viza rejiminin ləğv edilməsi bir çox sahələrdə əməkdaşlıq imkanlarını artıracaq və ölkəmizə daha çox turistin gəlməsinə müsbət təsir edəcək. Hesab edirəm ki, bundan sonra bu ölkədən daha çox turist gələcək. Çünki Çin turistləri daha çox mədəniyyət yönümlü turistlərdir. Onlar sadəcə Bakını deyil, ölkəmizin digər rayonlarında, xüsusən də Qarabağ bölgəsində tarixi məkanları görməkdə maraqlıdır. Bu zaman turlar bir neçə gün çəkir. Bölgələrdə inşa edilən müxtəlif tutumlu hotellərin, günün tələblərinə cavab verən turizm obyektlərinin yüksəksəviyyəli fəaliyyəti qürurvericidir, xüsusən də erməni işğalından azad edilmiş Qarabağ bölgəsində hotel şəbəkəsi genişləndikcə, Azərbaycana turizm axınında ciddi artım olacaq. Təbii ki, ölkəmizə çoxsaylı turistlərin gəlməsi kapital axınına müsbət təsir edəcək. Çünki bu sahə çox gəlirlidir. Azərbaycanın əlverişli coğrafi məkanda yerləşdiyini nəzərə alsaq, daha çox turisti ölkəmizə cəlb etmək mümkündür".

Bakıda, eləcə də ölkəmizin ayrı-ayrı regionlarında biznes, istirahət, sağlamlıq, idman turizmini inkişaf etdirmək üçün irimiqyaslı layihələr həyata keçirilib. Ölkə rəhbəri 2016-cı ilin oktyabrından etibarən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün elektron vizaların maksimum üç saat ərzində verilməsinə dair sərəncam imzalayıb. Həmin vaxtdan "ASAN viza" sistemi uğurla fəaliyyət göstərir.

Respublikamızdakı ictimai-siyasi sabitlik, əmin-amanlıq, yüksəksəviyyəli təhlükəsizlik, infrastruktur və xidmət sektorunun vəziyyətinin yaxşılaşdırılması, Azərbaycanın dünyada tanıdılması yönündə aparılan ardıcıl işlər, viza sisteminin sadələşdirilməsi Azərbaycana gəlmək istəyən turistlərin ildən-ilə artmasını təşviq edir.

Azərbaycanda turizm çox geniş imkanlara malikdir. İlk növbədə ölkəmizdə təhlükəsizlik və sabitlik hökm sürür, xalqımız çox qonaqpərvərdir. Dünyada mövcud olan 11 iqlim qovşağının 9-nun ölkəmizdə olması turizmin inkişafı üçün geniş imkanlar yaradır. Günün tələblərinə cavab verən infrastruktur yaradılıb, 9 beynəlxalq aeroport, müasir magistral yollar, dəmir yolları, hotellər, kurortlar, yay-qış xizək, dəniz kurortları, müalicəvi turizm səyahətçilərin diqqətini çəkir. Naftalan indi böyük turizm mərkəzinə çevrilib. Digər müalicəvi yerlərə - Naxçıvanda Duzdağa, eləcə də ilin bütün fəsillərində Qalaaltıya müalicəyə gəlirlər.

Qarabağda turizm yeni inkişaf mərhələsinə qədəm qoyub. Şuşadan Xankəndiyə kanat çəkilməsi nəzərdə tutulur. Xatırladaq ki, Qarabağ ta qədimdən təkcə tarixi və mədəni irsi ilə deyil, həm də turizm potensialı ilə diqqət çəkib. Bu bölgədə xüsusilə dağ turizmi üçün geniş imkanlar mövcuddur. Şuşa şəhəri və onun ətrafındakı gözəl guşələr, Xankəndi, Laçın, Kəlbəcər və digər rayonlar turizm baxımından unikal məkanlardır.

Kəlbəcər isti suları, füsunkar dağ mənzərələri və meşələri ilə seçilir. Bu bölgə yaxın gələcəkdə dünyanın əsas turizm məkanlarından birinə çevrilmək potensialına malikdir. Bir müddət əvvəl Kəlbəcərin turizm resursları, turizm dəhlizləri, inkişaf potensialı və prioritet turizm məhsulları sahələri üzrə araşdırılmalar aparılıb.

Məsələ ilə əlaqədar inkişaf konsepsiyası hazırlanıb. Sənəddə Kəlbəcərin 2040-cı ilədək il boyu turizm fəaliyyətlərinin təşkili və Cənubi Qafqaz regionunda ən çox səfər edilən turizm məkanlarından birinə çevrilməsi hədəflənib.

Bu gün Azərbaycanın işğaldan azad olunmuş ərazilərində geniş quruculuq və abadlıq işləri aparılır. Yeni yollar, tunellər, elektrik stansiyaları, hava limanları və digər infrastruktur layihələri icra olunur, bunlar həm də turizmin inkişafına xidmət edir.

Xankəndi də öz tarixi simasını və təyinatını bərpa etməkdədir. Burada Qarabağ Universitetinin təsis edilməsi, insanların doğma yurdlarına qayıdışı, sosial və iqtisadi layihələrin icrası şəhərin simasını dəyişir. Artıq Xankəndi və ətraf ərazilər turistləri özünə çəkir. Yol və nəqliyyat infrastrukturunun sürətlə inkişafı, Füzuli Beynəlxalq Hava Limanının fəaliyyət göstərməsi və yaxın gələcəkdə digər nəqliyyat xətlərinin genişləndirilməsi bu bölgənin turizm potensialını artırır.

Şuşa ilə Xankəndini birləşdirəcək kanat yolunun çəkilməsi təklif olunub. Layihə hələ ilkin mərhələdə olsa da, bu ideyanın reallaşması Qarabağ turizminə böyük töhfə verə bilər. Kanat yolu həm yerli sakinlər, həm də turistlər üçün yeni turizm vasitəsi olacaq. Şuşadan Xankəndiyə doğru uzanan kanat yolu bölgənin gözəlliklərini havadan izləməyə də imkan yaradacaq və Qarabağın turizm cəlbediciliyini artıracaq.

Azərbaycanda artıq bir neçə bölgədə kanat yolları fəaliyyət göstərir. Qəbələdə, Şahdağ və Tufandağ turizm mərkəzlərində yerləşən kanat yolları hər il minlərlə turisti cəlb edir. Kanat yolları dağlıq ərazilərdə turizmin inkişafı üçün vacib infrastruktur elementlərindən biridir. Bu, nəqliyyat baxımından əlverişli olmaqla yanaşı, həm də insanlara təbiətin gözəlliklərini daha yaxından görmək imkanı yaradır.

Ölkəmizin bütün bölgələrində olduğu kimi, Qarabağda da tarixi abidələrimiz çoxdur. Bu da böyük maraq doğurur. Coğrafi vəziyyətimiz də əlverişlidir. Bakı dünyanın ən gözəl şəhərlərindəndir. Yəni bütün bu amillər turizm sənayesinin Azərbaycanda sürətlə inkişaf etməsinə imkan yaradır. Xaricdən turistlərin cəlb edilməsi məqsədilə yeni layihələr də həyata keçirilir. Məsələn, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi tərəfindən ölkədə macəra turizminin inkişafı, dağçılıq və ekstremal idman növlərinə marağın artırılması üçün respublika Gənclər Fondunun dəstəyi ilə "Vətənimdə qarış-qarış" layihəsi çərçivəsində İsmayıllı rayonundan başlayan Sulut kəndi ərazisindəki Fit dağında yerləşən XVII-XVIII əsrlərə aid "Buzxana" və "Qırxotaq əfsanəsi" abidələrinin marşrutu üzrə istiqamətləndirici nişan və məlumat lövhələri hazırlanıb. Layihə respublikanın digər regionlarında da həyata keçirilir. Yeni tarixi yerlər və abidələrlə əlaqədar marşrutların istiqamətləri müəyyənləşdirilir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Kino xadimlərimiz

# Qazandığı uğurlar onu arxayınlaşdırmazdı



**Yaxınlarının, doğmalarının dediklərinə görə küçədə, yolda qarşılaşanlar ona salam verəndə: "Salam, Cəbiş müəllim, necəsiz?"- deyə soruşarmışlar. O da cavab verərmiş ki, axı mənim öz adım var.**

Söhbət Azərbaycanın Xalq artisti, görkəmli aktyor Süleyman Ağababa oğlu Ələsgərovdan gedir. Doğrudan da, insanlar bu böyük sənətkarı yüksək məharət və bacarıqla canlandırdığı Cəbiş müəllim obrazı ilə tanıyıb sevərdilər. Təbiidir ki, bu, aktyorun xoşbəxtliyidir, sənət uğurudur, həm də xalqın ona olan sevgisinin sonsuz təcəssümüdür. Bu həm də hər aktyora nəsib olmayan səadətdir.

Həyat və yaradıcılıq yollarını vərəqlədikcə öyrənirik ki, Süleyman Ağababa oğlu Ələsgərov 20 iyun 1915-ci ildə Bakı şəhərində anadan olub. Yeddiillik təhsilini başa vurduqdan sonra Maliyyə Texnikumuna qəbul olub. Üç il bu təhsil ocağında oxuyub biliklərini artırıb. İmtahanlarını uğurla verərək iqtisadçı diplomu alıb. Hələ kiçik yaşlarından həkim olmaq arzusu ilə yaşayan Süleyman istəyinə çatmaq üçün Azərbaycan Dövlət Tibb İnstitutuna imtahan verib. Sınaqlardan uğurla keçərək tələbə adı qazanıb. Böyük həvəslə tibb təhsilini uğurla davam etdirib. Gələcəyin böyük aktyoru oxumaq həvəsi ilə teatr dərnəklərinə gedib, bu sahəyə də böyük maraq göstərib. Günlər keçdikcə aktyorluq peşəsinə olan sevgi və məhəbbəti artıb. Süleyman Ələsgərov ilk dəfə səhnəyə 1933-cü ildə Bakıdakı Dənizçilər Mədəniyyət Evinin dram dərnəyində çıxıb. Onun sənət yollarında atdığı ilk addım çox uğurlu olub. Dərnəklərə böyük sevgisi onu bu sənətə, səhnəyə daha da möhkəm tellərlə bağlayıb. Aktyorluq sənətinə olan marağı onu həmişəlik olaraq səhnəyə gətirib. Buna görə də tibbi təhsilini yarımçıq qoyub.

Həyatda səbəbsiz baş verməyən hadisə yoxdur. Özünün də xatirələrindən məlum olur ki, həkimliklə vidalaşmasına səbəb gələcəkdə tamaşaçıların sevimli aktyoruna çevriləcək Xalq artistinin görkəmli sənətkar Əliağa Ağayevlə təsadüfən rastlaşması olub. Süleyman Ələsgərov xatirələrində bu haqda belə deyir: "Bəlkə də səbəbkar rəhmətlik Əliağadır. 1928-ci iliydi. Dağıstanda pioner düşərgəsindəydik. Bizi cərgəyə düzmüşdülər, mən onuncuydum. Qayda beləydi: hər kəs sırada neçənci olduğunu yüksəkdən deməliydi. Növbə mənə çatanda "desyat" dedim. Məndən sonra dayanan oğlansa "odinnadsat" əvəzinə "desyat odin" dedi. Hamı güldü. Nəzarətçi ona neçə dəfə "odinadsat" sözünü təkrar elətdirsə də, oğlan tutduğundan əl çəkmədi. Onun qəribəliyi ürəyimə yatdı. Həmin gündən dostlaşdım onunla. O oğlan Əliağa Ağayeviydi. Sonra uzun müddət görüşə bilmədik. Tibb Universitetində oxuyurdum. Bir gün təsadüfən rastlaşdıq, hal-əhval tutduq. Dedi, nə əcəb həkim olmaq sevdasına düşmüsən, sən ki kinoyla, teatrla maraqlanan adamıydın? Dedim qismətdi də... Özü də çilingər işləyirmiş. Birdən qayıtdı ki, bəlkə, gündüzlər oxuyub, gecələr dərnəyə gələsən? Dənizçilərin klubundakı dərnəyə işarə edirdi. Söz verdim ki, gələcəm. Elə o vaxtdan başladım dərnəyə gəlməyə. Əliağa özü də orada olurdu. Bizimlə rejissor İbrahim Rəhimli işləyirdi. Bir müddət sonra bizə rollar verdi. Düz üç il təbliğat-təşviqat briqadası ilə işlədik, dənizçilərin qarşısında çıxış etdik. Beləcə dərsdən soyudum, həkim olmaq fikrindən daşındım. Briqadada işləmək mənə sərf edirdi. Fərli-başlı pul almasam da, yeyib-içməyim oranın hesabınaydı. Bu mənə bəs edirdi. Sonra bu sənətin aşiqi oldum".

Süleyman Ələsgərov 1936-cı ilin sentyabrında müsabiqə yolu ilə Gənc Tamaşaçılar Teatrına aktyor kimi işə götürülür. Onun çıxışları, oynadığı rollar, canlandırdığı obrazlar münsiflər heyətini heyran qoyurdu. Aktyor kimi işə düzələndən sonra gənc Süleyman Ələsgərov sənət yollarında böyük həvəslə ilk addımlarını atmağa başlayır. Gələcəyin böyük sənətkarı teatrda çox məhsuldar aktyorlardan biri olur. Ən kiçik, epizodik rol olsa belə, Süleyman Ələsgərov onu böyük peşəkarlıqla canlandırmağa çalışır və buna nail olur.

Görkəmli aktyor Gənc Tamaşaçılar Teatrının səhnəsində yaratdığı Polad ("Qızıl quş"), Fərzəli bəy ("Nəsrəddin"), Aqşin ("Babək"), Vəzir, Oruc ("Fitnə", "Qaraca qız"), Lorenso ("Romeo və Cülyetta") və bir-birindən maraqlı və xarakterik obrazları ilə tamaşaçıların yaddaşında həmişəlik iz qoyur. Müxtəlif tamaşalarda yaratdığı müxtəlif obrazlar onun gələcək həyatının parlaq olacağından xəbər verir. Süleyman Ələsgərov Gənc Tamaşaçılar Teatrında fasiləsiz olaraq 63 il səhnə ömrü yaşayır. Bu illər onun həyatına qızıl hərflərlə yazılır.

Süleyman Ələsgərov "Azərbaycanfilm" kinostudiyasında istehsal olunan bir çox filmlərdə baş rollarla bərabər, epizodik rollarda da çəkilib. "Yenilməz batalyon", "Babamın babasının babası", "Bakıda küləklər əsir", "Bəxtiyar" "Bir ailəlik bağ evi", "Bir cənub şəhərində", "Xatirələr sahili", "İnsan məskən salır", "İstintaq davam edir", "Torpaq. Dəniz. Od. Səma" və digər filmlərdə o, epizodik rolları çox məharət və peşəkarlıqla oynayıb. Onun üçün rolun böyüyü, kiçiyi yox idi, əsas sənət idi. Ömrünün son anına qədər Süleyman Ələsgərov sənətinə, peşəsinə sadiq qaldı. Səhnədə bir-birindən maraqlı obrazlar yaratdı.

Süleyman Ələsgərova ən böyük şöhrət gətirən, ən çox sevilən irihəcmli ekran obrazı "Bizim Cəbiş müəllim" filmində əsas qəhrəman olan Cəbiş müəllimdir. Aktyor bu rolda sanki özünü ifa edir. Deyilənlərə görə, o, filmdə olduğu kimi, həyatda da Cəbiş müəllim kimi sakit, sadə və təvazökar bir insan olub. Aktyorun zamanında dediklərindən məlum olur ki, filmin rejissoru Həsən Seyidbəyli film tam hazır olana qədər onun ifasına münasibət bildirməyib. Nə "yaxşı", nə də "pis" deyib. Süleyman Ələsgərov müsahibələrinin birində bu barədə deyib: "Bir dəfə də olsun, demirdi ki, xoşum gələn kimi oynayırsan. Film hazır olandan sonra sakitcə oturub baxdı, sonra dedi, əhsən, qiyamətsən! Bu sözdən sonra mənim canım da rahatlandı. Sonra tamaşaçılar da tərifləməyə başladı. 1970-ci ildə bu obrazım Minskdə keçirilən festivalın qalibi oldu". Ürək və sevgi ilə canlandırdığı Cəbiş müəllim obrazı Süleyman Ələsgərova çox böyük məşhurluq qazandırdı, uğurlar gətirdi. Amma bu uğurlar heç vaxt onu arxayınlaşdırmadı. Daim sənəti üzərində çalışdı, peşəkarlığını artırdı.

Görkəmli aktyor xatirələrində deyib ki, mən müharibənin ağrılarını yaşamışam. Ermənilərin 1918-ci ilin martında Bakıda törətdikləri qırğınların şahidi olmuşam. Həmin vaxtlarda ailəmiz böyük çətinliklərlə üz-üzə qalmışdı. Şükürlər olsun ki, ermənilərin törətdikləri soyqırımdan sağ-salamat çıxa bildik. Elə Böyük Vətən müharibəsi illərində də dəhşətli cəbhə yolu keçdim. Bəlkə də elə ona görə rejissor Cəbiş müəllimin rolunu mənə həvalə etdi.

Gənc Tamaşaçılar Teatrı bir növ onun ömür və yaradıcılıq yolunun bələdçisi olub və xalqa sevdirib. Görkəmli aktyor burada fəxri adlara, mükafatlara layiq görülüb. Gənc Tamaşaçılar Teatrının inkişafında xidmətlərinə görə 1954-cü ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1982-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülüb. 1961-ci ildə respublika Lenin komsomolu mükafatı laureatı olub.

Süleyman Ələsgərov 1998-ci ilin dekabr ayında xəstələnib yatağa düşür. Ölümünə bir gün qalmış dekabrın 9-u saat 9-un yarısında qızını yanına çağıraraq deyib ki, ananı niyə qapıda saxlamısan, burax, gəlsin içəri. Mənim vaxtıma hələ var. Səhər saat 6-ya 20 dəqiqə işləmiş gedəcəm. Gecəni narahat yatan Süleyman Ələsgərov doğrudan da, dediyi vaxtda, dekabrın 10-da səhər saat 6-ya 20 dəqiqə işləmiş dünyasını dəyişir.

Görkəmli aktyorun ölümü sənət dostlarını, doğmalarını və onu sevənləri ürəkdən kədərləndirdi. Onlar yalnız ondan təskinlik tapdılar ki, Xalq artisti Süleyman Ələsgərov müxtəlif illərdə, müxtəlif tamaşa və filmlərdə oynadığı bir-birinə bənzəməyən rollarla, ən başlıcası isə "Bizim Cəbiş müəllim" filmində canlandırdığı obraz ilə həmişə xatırlanacaq və xalqın yaddaşında əbədi olaraq yaşayacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Almaniyada Üzeyir bəy Hacıbəylinin 140 illiyinə həsr edilmiş konsertlər təşkil olunub

**Azərbaycanın dahi bəstəkarı Üzeyir bəy Hacıbəylinin anadan olmasının 140 illik yubileyi Almaniyada yüksək səviyyədə qeyd edilib. Tədbirlər Azərbaycanın Almaniyadakı səfirliyinin tabeliyindəki Azərbaycan Mədəniyyət Mərkəzinin dəstəyi ilə keçirilib.**



Mərkəzdən bildiriblər ki, Bottrop şəhərindəki Müqəddəs Xaç Mədəniyyət Kilsəsində (Kulturkirche Heilig Kreuz) və Dorsten şəhərindəki Müqəddəs Məryəm Kilsəsində (Kirche St. Marien) baş tutan konsertlərdə Almaniyada yaşayan və fəaliyyət göstərən tanınmış azərbaycanlı musiqiçi Tural İsmayılovun rəhbərliyi ilə fəaliyyət göstərən "Anima Şirvani" ansamblı və Almaniyanın peşəkar "Confido Vocale" xor kollektivi çıxış ediblər.

Konsertlərdə Üzeyir bəy Hacıbəylinin bəstələri ilə yanaşı, digər Azərbaycan və dünya bəstəkarlarının əsərləri səsləndirilib. Hər iki konsert "Leyli və Məcnun" operasından "Şəbi-hicran" parçasının ifası ilə başa çatıb.

Tədbirin əsas məqsədi Azərbaycan mədəniyyətinin zənginliyini və Üzeyir bəy Hacıbəylinin irsini beynəlxalq auditoriyaya çatdırmaq, müxtəlif mədəniyyətləri musiqi vasitəsilə bir araya gətirmək və mədəniyyətlərarası dialoqu təşviq etmək olub.

İştirakçılar Azərbaycan musiqisinin dərinliyini və emosional təsir gücünü yüksək qiymətləndiriblər.

# "Ustad Ələsgərin Göyçə harayı - Vətənə sarı" layihəsinin icrasına başlanılıb

**Dədə Ələsgər Ocağı İctimai Birliyi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin 2025-ci il üzrə orta qrant müsabiqəsinin qalibi olaraq "Ustad Ələsgərin Göyçə harayı - Vətənə sarı" adlı layihənin icrasına başlayıb.**



İctimai Birlikdən məlumat verilib ki, layihənin əsas məqsədi Azərbaycan xalq ədəbiyyatının zirvələrindən biri olan ustad aşıq Ələsgər irsini və Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın vətənə qayıdış ideyasını bir araya gətirərək sazla-sözlə xalqımızın milli ruhunu gücləndirmək, eləcə də qərbi azərbaycanlılar arasında bu müqəddəs ideyanın təbliğinə töhfə verməkdir.

Tarixi Azərbaycan torpaqlarından - indiki Ermənistan ərazisindən zorla çıxarılmış soydaşlarımız bu gün də doğma yurdlarına qayıtmaq ümidi ilə yaşayırlar. Azərbaycan dövləti və Qərbi Azərbaycan İcması bu istiqamətdə həm beynəlxalq hüquq müstəvisində, həm də ictimai səviyyədə məqsədyönlü və sistemli fəaliyyət göstərməkdədir. Layihə də bu geniş və vacib prosesə mədəni və mənəvi dəstək verməyi hədəfləyir.

Layihə çərçivəsində qərbi azərbaycanlıların sıx məskunlaşdığı dörd bölgədə və Bakı şəhərində aşıqlardan ibarət konsert proqramları təşkil olunacaq. Sazla doğulub, sazla böyüyən bu insanların yaddaşında aşıq sənəti təkcə bir incəsənət forması deyil, həm də kimlik, tarix və vətən duyğusudur. Konsertlər vasitəsilə onların vətənə bağlılıq hissləri bir daha canlandırılacaq və qayıdış əhvali-ruhiyyəsi gücləndiriləcək.

Layihə sentyabrın 1-dək davam edəcək.

# Məktublar: problemlər, rəylər, təkliflər...






● RAZILIQ

## Yol problemimiz həll olundu



**Yaşadığımız kənd Şəmkir rayonunda o qədər də böyük olmayan yaşayış məntəqələrindəndir. Kəndə gələn yolun bərbad olması sakinləri həmişə narahat edirdi.**

Bu yaxınlarda rayon icra hakimiyyətinin başçısı Hacıalılar və Şeidlər kəndində səyyar görüş keçirərkən sakinlər həmin məsələni qaldırdılar. Problem qısa vaxtda öz həllini tapdı. Sakinlərin istəyi nəzərə alınaraq rayon icra hakimiyyətinin təşkilatçılığı, 25 saylı Yol İstismar İdarəsinin dəstəyi və kənd bələdiyyəsinin iştirakı ilə Çənlibel kəndindən Hacıalılar kəndinə gedən yolda təmir-bərpa işləri aparıldı. Ağır texnika ilə yola qum-çınqıl döşənərək hamarlandı. Yolun ətrafı təmizlənərək, su axınlarının yola zərər vurmaması üçün arxlar çəkildi.

*İmran NOVRUZOV,*
*Şəmkir rayon*
*Hacıalılar kəndinin sakini*

● İDMAN

## Kənd stadionlarından böyük arenalara

**"Sağlam bədəndə sağlam ruh olar" - deyiblər. Bu baxımdan ölkəmizdə idmanın inkişafına göstərilən diqqət və qayğı olduqca təqdirəlayiqdir. Çünki fiziki sağlamlığın başlıca şərtlərindən biri məhz idmanla müntəzəm məşğul olmaqdır.**

Ölkəmizdə idmanın inkişafı istiqamətində ciddi və ardıcıl tədbirlər həyata keçirilir. Odur ki, indi Azərbaycan idmanın inkişaf səviyyəsinə görə dünyada aparıcı ölkələrdən biri kimi tanınır. İdmançılarımızın olimpiada və digər beynəlxalq yarışlarda əldə etdiyi uğurlar Azərbaycanın idman ölkəsi kimi qazandığı imici daha da möhkəmləndirir.

Bu sahədə aparılan dövlət siyasəti rayonumuzda da uğurla həyata keçirilir. Rayon rəhbərliyi tərəfindən idman sahəsinin inkişafı, xüsusilə uşaqların, yeniyetmələrin və gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün kəndlərdə mövcud stadionların yenilənməsi və təmiri istiqamətində işlər aparılır. Bu da təsadüfi deyil. Çünki stadionlar sağlamlığa xidmət edir. Elə böyük idmana aparan yolların çoxu da kənd stadionlarından başlanır.



Hazırda Qusar Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Aşağı İmamqulukənd, Aşağı Ləgər, Gədəzeyxur, Atlıxan, Mucuqoba kənd stadionlarında təmir işləri görülür. İndiyəcən Aşağı Ləgər kənd stadionu üçün ayrılmış ərazi hasara alınmış, ot örtüyünün salınması üçün əlavə torpaq gətirilərək meydança hamarlanmış, yer yumşaldılmışdır. Stadionda geyinib-soyunma otağı tikilmiş, su anbarı təmizlənmiş və su xətti istifadəyə verilmişdir. Gədəzeyxur, Atlıxan kəndlərində də stadion üçün ayrılmış ərazi təmizlənərək hasarlanmışdır. Hazırda Gədəzeyxur və Aşağı İmamqulukənd stadionlarında soyunub-geyinmə otaqları tikilir. Çubuqlu kəndində isə uzun müddətdir arzuolunan stadion üçün torpaq sahəsi ayrılmışdır.

Görülən bütün bu işlər son bir ilin töhfələridir. Bildiyimizə görə, rayon rəhbərliyi və idman ictimaiyyəti birlikdə bu istiqamətdə çox işlər görəcəklər. Çünki bu, qusarlı gənclərin sağlam böyüməsi üçün çox vacibdir. Sağlam gənclik yetişdirmək həyatın, ölkəmiz üçün idmançılar hazırlamaq isə dövrün tələbidir.

*Sənan XƏLİLOV,*
*Qusar Rayon Ağsaqqallar Şurasının sədri*

AZƏRBAYCAN-a cavab verirlər

## Sakinlərin müraciəti nəzərə alınacaq

**Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti tərəfindən 14 may 2025-ci il tarixli məktubla "Küçəmizin təmir olunmasını səbirsizliklə gözləyirik" barədə Biləcəri Bələdiyyəsinə 19.05.2025-ci il tarixli məktub daxil olmuşdur.**

Məlumat üçün bildiririk ki, daxil olmuş müraciətinizlə bağlı tərəfimizdən edilən çoxsaylı müraciətləri, eyni zamanda həmin küçədə yaşayan vətəndaşların yazılı, şifahi irad və təkliflərini nəzərə alaraq Füzuli (indiki adı Şəhid Tural Zeynalov) küçəsində su xəttinin yenilənməsi və yolun asfaltlanması nəzərdə tutulmuşdur.

*F.CƏFƏROV,*
*Biləcəri bələdiyyəsinin sədri*

● DİQQƏT

## Hər bir işin uğuru diqqətdən başlayır

**Sumqayıtın böyük yaşayış massivlərindən biri də yaşadığımız 8-ci mikrorayondur. Sakini olduğumuz 9/25-ci bina ötən əsrin 80-ci illərində tikilib. Fərqli layihə ilə inşa edildiyindən onu "eksperimental bina" adlandırırlar. Şəhərimizdə cəmi üç belə yaşayış binası var.**

Biz 90-cı illərdən burada yaşayırıq və ötən dövrdə demək olar ki, kommunal sahədə heç bir problem yaşamamışdıq. Bu ilin aprel ayında isə evin zirzəmisindən gələn xoşagəlməz qoxu bizi narahat etməyə başladı. Binada təxminən 180 sakin yaşayır. Yaranmış problem isə təkcə sakinləri deyil, yaxınlıqdan ötüb keçən hər kəsi narahat edirdi.

Əlaqədar təşkilatlar dərhal səsimizə səs verdilər və nümayəndələrini göndərdilər. Binanın giriş-çıxış boruları



yoxlanıldı. Qərara alındı ki, kanalizasiya xətləri yenilənməlidir. Vəziyyət nəzərə alınaraq vaxt itirilmədən işə başlanıldı. Ustalar cəmi bir həftə ərzində bütün çürümüş boruları yeni xətlərlə əvəzlədilər. Hətta gələcəkdə problem yarada biləcək xətlər də dəyişdirildi. Mənzil Kommunal İstismar İdarəsinin işçiləri zirzəmidəki çirkabı da xüsusi maşınlara yükləyib apardılar.

Demək istədiyimiz odur ki, görüləcək hər bir işin uğuru diqqətdən başlayır. Məhz işini bilən, ona məsuliyyətlə yanaşan insanların problemə diqqətlə yanaşması sayəsində bizi narahat edən məsələ tezliklə həll olundu. Buna görə sakinlərimiz onlara minnətdarlıqlarını bildirirlər.

*Məhəbbət SƏFƏROV,*
*Müşfiq ƏHMƏDOV,*
*Sumqayıt şəhəri, 8-ci mikrorayon sakinləri*

● FOTO-FAKT

## Qurumaqda olan ağaclara etinasızlıq







**Paytaxtın küçə və prospektlərində yaşıllıqlara diqqət göstərilsə də, qayğıdan kənarda qalan ərazilər, qurumaqda olan yaşıllıqlar da yox deyil. Bu mənzərənin simvolik ifadəsi isə şəhərin tam mərkəzində - Ekologiya və Təbii Sərvətlər Nazirliyinin inzibati binası yaxınlığında - Ələsgər Ələkbərov və Landau küçələrində yaşanır. Burada bir neçə ağac quruyub, bəziləri tamamilə məhv olub, bir qismi isə baxımsızlıqdan solğun və "xəstə" görünür. Ağaclara baxdıqca sanki onların səssiz harayını eşidirsən.**



Ekoloji siyasətin müəllifi və icraçısı hesab olunan bir qurumun gözü önündə belə bir mənzərənin hökm sürməsi ictimai etimad və idarəetmənin effektivliyi baxımından haqlı suallar doğurur. Axı hamımızın gözləri önündə susuzluqdan və baxımsızlıqdan bu hala düşən yaşıl canlılara münasibətimiz niyə belədir? Axı biz insanlara oksigen bəxş edən bu varlıqlara niyə bu qədər laqeyidik? Özü də coğrafi baxımdan ağac yetişdirilməsi o qədər də asan olmayan paytaxtda...

Ələsgər Ələkbərov və Landau küçələrində, "KapitalBank"ın Yasamal filialının qarşısında müşahidə olunan mənzərələr - ağacların tədricən quruması və məhv olması şəhər suvarma sistemlərinin effektivsizliyi, suvarma xidmətlərinin yarıtmaz təşkili və monitorinqlərin olmamasından da xəbər verir. Vəziyyət təkcə ekoloji məsələ deyil, o, idarəetmə və vətəndaş məsuliyyəti kontekstində də qiymətləndirilməlidir. Bu məsələlərdə yalnız cavabdeh təşkilatın hərəkətini gözləməməli və ya o idarənin məsuliyyətsizliyini müşahidə etməməliyik. Hər bir vətəndaş, hər bir müəssisə rəhbəri - istər dövlət, istərsə də qeyri-dövlət müəssisələri olsun, ətrafdakı yaşıllıqların qorunması istiqamətində öz töhfəsini verməlidir. O qədər də zaman almayan 3-5 ağacın suvarılmasını hər bir müəssisə əməkdaşı həyata keçirə bilər. Yetər ki, istəyək, bunu özümüzə bir vətəndaşlıq borcu bilək. Çalışdığımız iş yerimizin ətrafında əkilmiş ağaclara qulluq edək, lap elə dibini belləyək, su verək, bunu bir ictimai vərdişə çevirək. Bu həm də bir təşviq, eyni zamanda savabdır. Mərkəzi küçələrdə belə vəziyyətin hökm sürməsi kənar məhəllələrdə və ətraf yaşayış massivlərində vəziyyətin nə qədər acınacaqlı ola biləcəyini təsəvvür etməyə imkan verir. Yaşıllıq nəzarətsiz qaldıqca, şəhər istisi artır, toz və qaz hissəcikləri yığılır, sakinlərin sağlamlığı və gündəlik həyat keyfiyyəti birbaşa mənfi təsirlərlə üzləşir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi və yerli kommunal xidmət orqanları bu vəziyyətə dərhal müdaxilə etməklə, yuxarıda adları çəkilən küçələrdə və digər ərazilərdə ağacların vəziyyəti ilə bağlı kompleks audit aparmaqla problemi aradan qaldıra bilərlər. Təkcə yeni ağac əkməklə iş bitmir - mövcud ağacların qorunması, davamlı qulluq və müasir suvarma sistemlərinin tətbiqi bu işin əsasını təşkil etməlidir.

Eyni zamanda vətəndaş cəmiyyəti və media da bu prosesdə passiv müşahidəçi olmamalıdır. Ekoloji məsələlər ictimai gündəmin prioritetinə çevrilməli, hər bir ağac şəhər həyatının dəyər göstəricisi kimi qiymətləndirilməlidir. Əgər bu gün şəhərin mərkəzindəki yaşıllıqlar belə baxımsız buraxılırsa, sabah bu laqeydlik daha genişmiqyaslı ekoloji böhrana yol aça bilər.

Göz önündəki ağaclar susur, lakin onların səssiz harayı gələcək üçün ciddi xəbərdarlıqdır.

*N.ƏSGƏROVA,*
*"Azərbaycan"*

● OPERATİV

## Selin törətdiyi fəsadlar qısa vaxtda aradan qaldırıldı

**Bu yaxınlarda Goranboya yağan leysan rayonun bəzi bölgələri ilə yanaşı, Aşağı Ağcakənd qəsəbəsinə də xeyli ziyan vurdu.**




Nəticədə Goranboy-Aşağı Ağcakənd avtomobil yolunun qəsəbədən keçən bir hissəsi dağılıb sıradan çıxdı. Qəsəbənin bir hissəsində isə yolu tutan qum-çınqıl avtomobillərin hərəkətinə maneələr yaratdı.

Goranboy Rayon İcra Hakimiyyəti yanında Fövqəladə Hallar Komissiyası təcili tədbirlər görərək monitorinq keçirdi və müvafiq texnikalar əraziyə cəlb edilməklə yolda bərpa işləri aparıldı. Qısa müddət ərzində nəqliyyatın hərəkəti tam təmin edildi. İndi həmin ərazidə həyat öz axarına düşmüşdür.

Hörmətli redaksiya! Leysan yağışlarının törətdiyi fəsadların aradan qaldırılmasında əməyi olanlara qəsəbə sakinləri adından minnətdarlığımızı bildiririk.

**Zahid İBİŞOV,**
**Goranboy rayonu,**
**Aşağı Ağcakənd qəsəbəsinin sakini**

● MİNNƏTDARLIQ

## Xahişimizə əməl edildi

**Masallı Rayon İcra Hakimiyyəti başçısının Xırmandalı kəndində keçirdiyi səyyar görüş-qəbulu zamanı artezian quyusu ilə bağlı qaldırılan məsələ öz həllini tapmışdır.**



RİH başçısı Araz Əhmədovun tapşırığına əsasən, Masallı Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi tərəfindən Xırmandalı kəndində dərinliyi 60 metr olan artezian su quyusu qazılaraq vətəndaşların istifadəsinə verilmişdir.

Kənd sakinləri "Azərbaycan" qəzeti vasitəsilə artezian quyusunun qazılmasında xidməti olan hər kəsə minnətdarlıqlarını bildirirlər.

Kənd sakinləri adından

*S.CAVADOV*

